## Günün sözü

İşğaldan azad olunmuş ərazilərdə təhlükəsiz yaşayışın təmini, şəhər, qəsəbə və kəndlərin tikintisi, strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması, yerli və xarici dəyər zəncirlərinə inteqrasiya, habelə ətraf mühitin bərpası istiqamətində qabaqcıl nümunələr yaradılır. Böyük Qayıdışla bağlı hədəflərimiz uğurla reallaşdırılır.

## Vaşinqton görüşündə ilk nəticə: heç bir status olmayacaq!



Səhifə ⇨ 12

Səhifə ⇨ 10



Beynəlxalq aləmdə bütün dövlətlərə münasibətdə vahid yanaşma olmalıdır


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 92 (30208) 5 may 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikasi Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


# Böyük Qayıdış hədəflərimiz gerçəkləşir

## Laçın rayonunun Güləbird kəndində təməlqoyma



**Mayın 4-də Laçın rayonunun Güləbird kəndinin təməli qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan Prezidentinə kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Güləbird kəndində ümumilikdə 581 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ərazinin ümumi sahəsi 172 hektardır. Birinci mərhələdə kəndə 150 ailənin köçürülməsi üçün fərdi evlərin inşası planlaşdırılır. Kənddə tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. İkiotaqlı evlərin sahəsi 70, üçotaqlılar 88, dördotaqlılar 103, ikimərtəbəli olacaq beşotaqlıların sahəsi isə 120 kvadratmetr təşkil edəcək. Burada, həmçinin 432 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək.

Qeyd olundu ki, Güləbird kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Kənddə klub icma, ailə sağlamlıq və idman sağlamlıq mərkəzləri və digər zəruri infrastruktur obyektləri inşa olunacaq. Burada istirahət parkı salınacaq, idman və uşaq meydançaları yaradılacaq, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Prezident İlham Əliyev Güləbird kəndinin təməlini qoydu.

***AZƏRTAC***

## Qubadlı şəhərində ilk yaşayış məhəlləsi yaradılır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak edib.**

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına yaşayış məhəlləsi barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 2,6 hektara yaxın olan yaşayış məhəlləsinin yerləşdiyi ərazi çay və dağ mənzərəsi ilə əhatə olunub. Məhəllə şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə binaların üçmərtəbəli və dördmərtəbəli olması planlaşdırılır. Ümumilikdə məhəllədə 156 mənzilin tikintisi nəzərdə tutulur. Mənzillərdən 48-nin ikiotaqlı, 68-nin üçotaqlı, 20-sinin dördotaqlı və 20-sinin isə beşotaqlı olması planlaşdırılır. Binaların inşasında müasir memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq.

Məhəllədə idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur. Bütün binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. İstilik və isti su təchizatı mərkəzi qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii inşaat materiallarından istifadə olunacaq.

Dövlətimizin başçısı Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlini qoydu.

***AZƏRTAC***

## Zəngəzur dəhlizi qlobal önəm daşıyır




Səhifə ⇨ 11

## Qarabağda sahibkarlara maliyyə yardımı



Səhifə ⇨ 9

# Prezidentin Şuşa mesajları: Ermənistanla sülh gözləntisi

Səhifə ⇨ 6

## Ankara iqtisadi gücünü dünyaya nümayiş etdirir



Səhifə ⇨ 13

## 20 ildə iqtisadiyyata investisiya qoyuluşu 4 dəfə artıb

Səhifə ⇨ 9

## Xarici işlər nazirlərinin ABŞ-da keçirilən görüşü başa çatıb

Səhifə ⇨ 5

## Azərbaycanın AÇG və "Şahdəniz" yataqları üzrə gəlirləri açıqlanıb



Səhifə ⇨ 9

## Paşinyanın xəbərdarlığı: Bir dövlət kimi mövcudluğumuz sual altına düşəcək



Səhifə ⇨ 12

## Ermənistanda əsirlərimizə münasibət bu ölkənin sülhə hazır olmadığını göstərir

Səhifə ⇨ 12

# Qubadlı şəhərində inzibati binanın təməlqoyma mərasimi



Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı şəhərində tikiləcək inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib.

Dövlətimizin başçısına layihə barədə məlumat verildi.

Bildirildi ki, inzibati bina şəhərin giriş hissəsində, Baş plana əsasən işgüzar zona kimi müəyyən olunmuş bir hektar ərazidə tikiləcək. Binanın konsepsiyasının hazırlanması zamanı milli memarlıq elementləri, yaşıl fasad və dam həlləri, həmçinin günəş panellərinin inteqrasiyası nəzərə alınıb. Üçmərtəbəli binada avtomobillər üçün yeraltı parklanma nəzərdə tutulub. Binanın daxili planlaşdırılması müxtəlif mərtəbələrin vizual şəkildə əlaqələnməsini təmin edir. Bu yanaşma dinamik və müasir tələblərə cavab verən işgüzar mühitin formalaşmasına şərait yaradacaq.

Binanın birinci mərtəbəsi müxtəlif tipli iclas və təlim otaqları, həmçinin çoxfunksiyalı xidmət sahələri üçün nəzərdə tutulub. Burada, həmçinin bir sıra dövlət və hökumət qurumlarının yerli idarə, şöbə və bölmələri fəaliyyət göstərəcək. İkinci və üçüncü mərtəbələrdə isə müxtəlif kateqoriyalara uyğun iş sahələrinin yaradılması planlaşdırılıb.

İnzibati binanın inşasında metal konstruksiyalardan istifadə olunacaq. Fasad həlli və yastı dam günəş panellərinin quraşdırılması, həmçinin yaşıl elementlərin orqanik şəkildə inteqrasiya olunmasına imkan verəcək.

Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.

**AZƏRTAC**

# Rayon mərkəzində 600 yerlik məktəb tikiləcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Qubadlı şəhərində 600 şagird yerlik tam orta məktəb binasının təməlinin qoyulması mərasimində iştirak edib.

Dövlətimizin başçısına məktəb binası ilə bağlı məlumat verildi.

Bildirildi ki, məktəb Qubadlı şəhəri, Dondarlı kəndi və ona bitişik açıq ərazidə inşa olunacaq. Təhsil ocağı və ona məxsus açıq ərazilər yaşayış sahələri ilə əhatə olunacaq. Məktəbin həyətyanı ərazisindəki idman qurğularından və oyun meydançalarından axşamlar və həftə sonları ictimaiyyət nümayəndələri də istifadə edə biləcəklər.

Qeyd edildi ki, məktəb binası modul tipli sinif otaqlarından istifadə olunmaqla layihələndirilib. Təbii işıqla işıqlandırılmış daxili məkanlar məktəbin enerji tələbatını minimuma endirəcək. Binanın strukturu uyğunlaşan sistemdir və şəhərin böyüməsi ilə bağlı şagird sayı artdıqca genişləndirilə bilər.

Dövlətimizin başçısı məktəb binasının təməlini qoydu.

**AZƏRTAC**

# Mərkəzi Xəstəxananın özülü qoyulub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Qubadlı şəhərində 91 çarpayılıq Mərkəzi Xəstəxana binasının təməlinin qoyulması mərasimində iştirak edib.

Dövlətimizin başçısına xəstəxana binasının layihəsi barədə məlumat verildi.

Bildirildi ki, 4,5 hektardan çox ərazidə inşa olunacaq bu tibb müəssisəsi inzibati binadan, stasionar və ambulator xidmət hissələrindən ibarət olacaq. Stasionar xidmət hissəsində qəbul, terapiya, cərrahiyyə, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək. Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından ibarət olacaq.

Müalicə ocağı ən müasir tələblərə cavab verən tibbi avadanlıq, o cümlədən kompüter tomoqrafiya, maqnit-rezonans tomoqrafiya, angioqrafiya və digər cihazlarla təchiz ediləcək.

Prezident İlham Əliyev xəstəxana binasının təməlini qoydu.

**AZƏRTAC**

# Xanlıq kəndində 4 mindən çox sakin yaşayacaq



Mayın 4-də Qubadlı rayonunun Xanlıq kəndinin təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, kənd Qubadlı rayonunun mərkəzindən 16 kilometr məsafədə, Həkəri çayının sahilində yerləşir. Yaşayış məntəqəsinin layihələndirilən ərazisi elə Xanlıq kəndinin köhnə ərazisini əhatə edir və ümumi sahəsi 273 hektardan çoxdur.

Qeyd edildi ki, birinci mərhələdə kəndə 1357 nəfərin köçürülməsi üçün 356 fərdi evin tikintisi nəzərdə tutulur. İnşa ediləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Perspektivdə Xanlıq kəndində 4 mindən çox sakinin (1024 ailə) məskunlaşdırılması planlaşdırılıb.

Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılacaq. Həmçinin inzibati bina, məktəb, uşaq bağçası, ailə sağlamlıq, klub icma və idman sağlamlıq mərkəzləri fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev Xanlıq kəndinin təməlini qoydu.

**AZƏRTAC**

# Bərpa edilən növbəti kənd – Mahruzlu



Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı rayonunun Mahruzlu kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.

Dövlətimizin başçısına kəndin layihəsi barədə məlumat verildi.

Qeyd olundu ki, kənd Qubadlı rayonunun mərkəzindən 19 kilometr məsafədə yerləşir. Kəndin layihələndirilən ümumi ərazisi 197 hektar təşkil edir. Gələcəkdə bu kənddə 2700-dən çox sakinin, başqa sözlə, 690 ailənin yaşaması planlaşdırılıb. Mahruzlu kənd inzibati ərazi dairəsində yerləşən Alaqurşaq və Muğanlı kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib. Birinci fazada kənddə 145 evin tikilməsi və 649 nəfərin məskunlaşdırılması planlaşdırılır. Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi, çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, sənətkarlıq emalatxanası, tibb məntəqəsi, mərasim zalı, çayxana da yaradılacaq.

Diqqətə çatdırıldı ki, kənddə əhalinin məşğulluğu üçün hər cür şərait təmin ediləcək.

Sonra kəndin inkişaf planı barədə videoçarx nümayiş olundu.

Prezident İlham Əliyev Mahruzlu kəndinin təməlini qoydu.

**AZƏRTAC**

# Zilanlı kəndində 630 ailə məskunlaşacaq



Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı rayonunun Zilanlı kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.

Dövlətimizin başçısına kənddə görüləcək işlərlə bağlı məlumat verildi.

Diqqətə çatdırıldı ki, kənd Qubadlı rayonunun mərkəzindən 20 kilometr məsafədə, Həkəri və Bərgüşad çaylarının qovuşduğu ərazidə yerləşir. Zilanlı Zəngilan rayonunun Ağalı kəndi ilə qonşudur. Kəndin layihələndirilən ümumi ərazisi 180 hektardır. Birinci mərhələdə burada 159 evin tikintisi və 772 nəfərin məskunlaşdırılması nəzərdə tutulub. Tikiləcək evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. Gələcəkdə bu kənddə 2520 nəfərin (630 ailə) yaşaması planlaşdırılıb. Zilanlı kənd inzibati ərazi dairəsində yerləşən Kürd Mahmudlu və Seləli kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib.

Kənddə məktəb binası, uşaq bağçası, ailə sağlamlıq mərkəzi, inzibati bina, klub icma və idman mərkəzləri yaradılacaq. Ümumiyyətlə, bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq.

Dövlətimizin başçısı kəndin inkişaf planı barədə videoçarxa baxdı.

Sonra Prezident İlham Əliyev Zilanlı kəndinin təməlini qoydu.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Zəngilan Konqres Mərkəzinin tikintisində



**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan Konqres Mərkəzinin tikintisi ilə tanış olub.**

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Konqres Mərkəzinin layihələndirilən ərazisi 2,2 hektardır. Burada Mərkəzin binası ilə yanaşı, restoran, pavilyon da inşa olunur. Konqres Mərkəzi 605 yerlikdir. Buradakı restoranın isə 240 yerlik olması nəzərdə tutulub.

Bu ərazidə müvafiq yaşıllıq zonaları salınacaq, avtomobillər üçün yerüstü parklanma sahəsi yaradılacaq.

Ekoloji memarlıq konsepsiyasına əsasən, Mərkəzin damı yaşıllıq zolağı və günəş panelləri ilə əhatə olunacaq. Konqres Mərkəzində beynəlxalq və ölkə səviyyəli müxtəlif tədbirlər keçiriləcək.

**AZƏRTAC**

# İnzibati binanın təməlqoyma mərasimi



**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərində inzibati binanın təməlinin qoyulması mərasimində iştirak edib.**

Dövlətimizin başçısına layihə barədə məlumat verildi.

Bildirildi ki, inzibati bina Zəngilan şəhərinin mərkəzində, əsas küçələrin kəsişməsində yerləşir. Bu ərazi əsas ictimai obyektlərə, təhsil müəssisələrinə, peşə məktəbinə, memorial parka və məscidə yaxındır.

Qeyd olundu ki, üçmərtəbəli bina quruluşuna görə şəhərin müxtəlif yerlərindən görünə biləcək. İnzibati binanın daxili atrium quruluşda layihələndirilib. Binanın ardıcıl quruluşu isə iki hissəni birləşdirir. İnzibati binanın külək turbinləri şəklində olan fasad strukturu damın kənarı boyunca düzülüb. Dam örtüyü günəş panelləri ilə əhatə olunur. Damın quruluşu binanın daxilinin təbii işıqlanmasına imkan verir və böyük tədbirlərin keçirilməsi üçün əlavə yer imkanı yaradır.

Bir sıra dövlət və hökumət qurumlarının yerli idarə, şöbə və bölmələrinin fəaliyyət göstərəcəyi binada müxtəlif tipli iclas və təlim otaqları, həmçinin çoxfunksiyalı xidmət sahələri yaradılacaq. İnzibati binanın ətrafında müxtəlif istirahət məkanları və iaşə obyektləri fəaliyyət göstərəcək.

Layihə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.

**AZƏRTAC**

# "Sarıqışlaq" Su Elektrik Stansiyasının tikintisi ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də "Azərenerji" ASC-nin Zəngilan rayonunda "Sarıqışlaq" Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.**

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Araz çayının sol qolu olan Oxçuçayın üzərində yerləşən stansiyanın qoyuluş gücü 10,5 meqavatdır. Su Elektrik Stansiyasında orta illik elektrik enerjisi istehsalı 26,7 milyon kilovat-saat nəzərdə tutulur.

Qeyd olundu ki, yeni stansiya binasının tikintisi, perimetr boyu hasarlama işləri yekunlaşıb. Maşın zalı, aqreqatlar, generatorlar, idarəetmə panelləri, rele mühafizəsi, avtomatika və idarəetmə panellərində məsafədən idarəetmə kompüterlərinin quraşdırılması üzrə işlər icra edilir. Həmçinin "Şayıflı" Kiçik Su Elektrik Stansiyasından çıxan suyun "Sarıqışlaq" SES-ə ötürülməsi məqsədilə nəzərdə tutulmuş derivasiya borusunun çəkilməsi üzrə işlər davam edir. Derivasiya tipli su elektrik stansiyasının suqəbuledicisi ilə stansiyaarası məsafə 5239 metrdir. "Sarıqışlaq" SES-in turbinlərindən keçən suyun heç bir itki olmadan "Zəngilan" KSES-ə ötürülməsi istiqamətində işlər davam etdirilir.

Bu stansiyada 110 kilovoltluq açıq paylayıcı qurğunun tikintisi, istehsal olunacaq elektrik enerjisinin enerjisistemə inteqrasiyası və stansiyada avtomatik idarəetmə sisteminin qurulması da nəzərdə tutulub. Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Sarıqışlaq" SES-də il ərzində 33,2 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

Dövlətimizin başçısına Zəngilan, Laçın və Kəlbəcər rayonlarında tikilən Su Elektrik stansiyaları barədə də məlumat verildi.

Bildirildi ki, hazırda "Azərenerji" tərəfindən Zəngilan və Laçın rayonlarında 7 yerdə ümumi gücü 70,5 meqavat olan Su Elektrik stansiyalarının tikintisi aparılır. Oxçuçayın üzərində yerləşən və Zəngilan rayonunun ərazisində yaradılan "Şayıflı", "Sarıqışlaq", "Zəngilan" və "Cahangirbəyli" Su Elektrik stansiyaları yeni tikilir və həmin stansiyaların hər birinin gücü 10,5 meqavat olmaqla, ümumilikdə 42 meqavat təşkil edəcək. Laçın rayonundakı 14,25 meqavat gücündə "Ağbulaq", 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" stansiyaları isə yenidən qurulur.

Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək bu stansiyaların hər biri rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olmaqla yanaşı, stansiyalara Bakıdan və digər yerlərdən nəzarət etmək əlçatan olacaq. Su Elektrik stansiyalarında il ərzində ümumilikdə 230 milyon kilovat-saat ekoloji cəhətdən təmiz yaşıl hidroenerjinin istehsalı nəzərdə tutulub.

Həmçinin diqqətə çatdırıldı ki, hazırda Laçın və Kəlbəcər rayonlarında daha 9 yerdə ümumi gücü 76,8 meqavat olan Su Elektrik stansiyalarının tikintisinə başlanılır. Laçın rayonu ərazisində "Mirik", "Qaraqışlaq", "Ağbulaq", "Zabux" və Kəlbəcərdəki "Zar" Su Elektrik stansiyaları tamamilə yenidən qurulacaq. Eyni zamanda, Kəlbəcər rayonu ərazisində "Nadirxanlı", "Yuxarı Vəng", "Aşağı Vəng" və işğaldan azad edilən Murov dağın aşağı istiqamətində "Toğanalı" Kiçik Su Elektrik stansiyaları yeni layihə əsasında tikiləcək.

Qeyd edək ki, bu günədək "Azərenerji" tərəfindən 11 yerdə ümumi gücü 53,6 meqavat olan Kiçik Su Elektrik stansiyaları yenidən qurulub. Onlardan ümumi gücü 27 meqavat olan 5 stansiya Kəlbəcər rayonunda açılışa hazır vəziyyətə gətirilib.

Beləliklə, böyük Zəfərdən sonra işğaldan azad edilən ərazilərdə tikilən Su Elektrik stansiyalarının ümumi sayı 25-ə çatdırılacaq və 200 meqavata yaxın ekoloji cəhətdən təmiz, hidro yaşıl enerji istehsal etmək mümkün olacaq.

**AZƏRTAC**

# Otel kompleksinin özülü qoyulub

**Mayın 4-də Zəngilanda otel kompleksinin təməlqoyma mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**



Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksin layihəsi barədə məlumat verdi.

Bildirildi ki, Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Otel müasir səviyyədə inşa olunacaq, rayona səfərə gələnlərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq.

Diqqətə çatdırıldı ki, 110 nömrədən ibarət olacaq otel binasında konfrans, iclas və banket zalları, fitnes və spa mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq əyləncə mərkəzləri yaradılacaq. Otel kompleksinin ərazisində, həmçinin 15 kottec də qonaqların istifadəsinə veriləcək.

Bir sözlə, müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi otel kompleksi müasir standartlar səviyyəsində inşa olunacaq.

Sonra Prezident İlham Əliyev otel kompleksinin təməlini qoydu.

**AZƏRTAC**

# Mərkəzi Xəstəxana müasir tibb ocağı olacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak edib.**

Dövlətimizin başçısına xəstəxana binasının layihəsi barədə məlumat verildi.

Bildirildi ki, Baş plana əsasən, yeni xəstəxananın ümumi ərazisi 4,5 hektardır. 91 çarpayılıq xəstəxananın ərazisində yoluxucu xəstəliklər şöbəsi və bir sıra texniki təyinatlı binalar olacaq. Ən müasir tibbi avadanlıqla təchiz ediləcək xəstəxanada müayinə və müalicə işinin aparılması üçün hər cür şərait yaradılacaq. Beləliklə, doğma yurdlarına qayıdacaq rayon sakinləri bu səhiyyə ocağının istifadəyə verilməsi ilə hərtərəfli tibbi xidmətlə əhatə olunacaqlar.

Prezident İlham Əliyev Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlini qoydu.

Qeyd edək ki, əhalinin sağlamlığının qorunması və vətəndaşlara keyfiyyətli tibbi xidmətin göstərilməsi dövlətimizin başçısının daim diqqəti mərkəzindədir. Bu baxımdan işğaldan azad edilən ərazilərdə də tibbi xidmətin səmərəli təşkili və həyata keçirilməsi üçün genişmiqyaslı işlər görülür.

**AZƏRTAC**

# Cahangirbəyli kəndində 1200 nəfər məskunlaşacaq

**Mayın 4-də Zəngilan rayonunun Cahangirbəyli kəndinin təməlqoyma mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

Əvvəlcə kəndin inkişaf planı barədə videoçarx nümayiş olundu.

Dövlətimizin başçısına kənddə görüləcək işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, kəndin layihələndirilən ərazisi 179,5 hektardır. Kənd perspektivdə 2520 nəfər əhalinin (573 ailə) yaşaması üçün planlaşdırılıb. Cahangirbəyli kəndində birinci mərhələdə iki, üç, dörd və beş otaqlı olmaqla ümumilikdə 242 fərdi evin tikintisi nəzərdə tutulur.

Qeyd edildi ki, birinci mərhələdə burada 1200 nəfərin məskunlaşdırılması planlaşdırılır. Cahangirbəylidə fərdi evlərlə bərabər, bloklaşdırılmış üçmərtəbəli binaların inşası da nəzərdə tutulur.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və qonaq evi, çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, sənətkarlıq emalatxanası, tibb məntəqəsi, mərasim zalı, iaşə obyektləri və digər müəssisələr olacaq.

Prezident İlham Əliyev Cahangirbəyli kəndinin təməlini qoydu.

**AZƏRTAC**



# Xudafərin qəsəbəsində təməlqoyma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Cəbrayıl rayonunda Xudafərin qəsəbəsinin təməlinin qoyulması tədbirində iştirak edib.**

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına qəsəbədə görüləcək işlər barədə məlumat verdi.

Qeyd edildi ki, qəsəbə Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan Xudafərin körpüsünün yaxınlığında, yeni dəmir yolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır. Qəsəbənin layihələndirilən ümumi ərazisi 25 hektardır. Baş plana əsasən, gələcəkdə burada 149 ev tikiləcək. Qəsəbədə birinci mərhələdə 20 evin inşası nəzərdə tutulur. Burada iki, üç, dörd və beş otaqlı fərdi evlər tikiləcək. Hər evin həyətyanı sahəsi 600 kvadratmetr təşkil edəcək. Qəsəbəyə birinci növbədə 77 sakin köçürüləcək.

Xudafərin qəsəbəsində məktəb, uşaq bağçası, inzibati bina, məscid, bazar, çoxfunksiyalı bina (ticarət müəssisələri, tikinti materiallarının satış zonası, ictimai qida müəssisələri və s.), mədəniyyət evi, "Karvansaray" hotel və icma evi də yaradılacaq. Bundan başqa, Araz çayının sahilində və Xudafərin körpüsünün yaxınlığında parkın salınması da nəzərdə tutulub.

Dövlətimizin başçısı qəsəbənin inkişaf planı barədə videoçarxa baxdı.

Sonra Prezident İlham Əliyev Xudafərin qəsəbəsinin təməlini qoydu.

***AZƏRTAC***

# "Cəbrayıl" qovşaq yarımstansiyasının açılışı

**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyasının açılışını edib.**



Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, ötən il mayın 26-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan-Türkiyə-Avropa Enerji Dəhlizi Layihəsi çərçivəsində təməli qoyulan 330/110 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyası və ikidövrəli olmaqla 132 kilometr məsafədə 330 kV-luq "Ağcabədi-Cəbrayıl" ötürmə xətti "Azərenerji" tərəfindən rekord müddətdə - bir ildə tikilib və 330 kV-luq "Ağcabədi" yarımstansiyası müasir texnologiyalar əsasında tam yenidən qurulub.

Ən əsası bu müddətdə işğaldan azad edilən rayonlarda 11 yerdə tikilən 110 kilovoltluq yarımstansiyaları selektiv paylama ilə qidalandırıb, dairəvi elektrik təchizatına nail olmaq üçün 330 kilovoltluq "Cəbrayıl" qovşaq yarımstansiyası ilə 110 kilovoltluq "Qubadlı" yarımstansiyası arasında ötürmə xətti çəkilib. Bu layihənin bir neçə mühüm əhəmiyyəti var. Belə ki, Qarabağ və Şərqi Zəngəzur regionlarını yeni mənbə olaraq qidalandırıb dairəvi elektrik təchizatını təmin etmək, bu bölgələrin dayanıqlı və fasiləsiz elektrik təchizatına nail olmaq, yaradılan meqalayihələrin tələbatını qarşılamaq, BP Günəş və digər bərpaolunan enerji mənbələrində, həmçinin "Xudafərin" və "Qız qalası" elektrik stansiyalarında, o cümlədən işğaldan azad edilən ərazilərdə "Azərenerji" tərəfindən tikilən 25 Su elektrik stansiyasında istehsal olunan enerjini ümumi sistemə ötürmək üçün "Cəbrayıl" enerji qovşağının istismara verilməsi olduqca əhəmiyyətli hadisədir.

Digər tərəfdən perspektivdə Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerji sisteminə qoşmaq, həmçinin Cəbrayıl-Naxçıvan-Türkiyə, oradan isə qardaş ölkənin enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə edib ixrac imkanlarını artırmaq üçün "Cəbrayıl" qovşaq yarımstansiyasının işə düşməsi xüsusi önəm daşıyır.

Dövlətimizin başçısı "Cəbrayıl" qovşaq yarımstansiyasını işə saldı.

Bildirildi ki, üçmərhələli ölkələrarası enerji layihəsini həyata keçirmək üçün "Cəbrayıl" enerji qovşağında tikilən 330 və 110 kV-luq açıq paylayıcı qurğularda əlavə ehtiyat yuvalar yaradılıb. Eyni zamanda, burada avtomatik açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və digər proseslər üçün Rəqəmsal İdarəetmə Mərkəzi tikilib.

"Cəbrayıl" enerji qovşağının ətrafında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar irimiqyaslı ağacəkmə və bağsalma aksiyası keçirilib.

Qeyd edək ki, işğaldan azad edilən ərazilərdə "Azərenerji" tərəfindən bu günədək 37 enerji obyekti - 12 yarımstansiya, 25 Su elektrik stansiyası tikilib və tikilməkdədir. Bu enerji obyektlərində indiyədək 170 nəfər yerli sakin məskunlaşma siyasətinə uyğun olaraq daimi işlə təmin edilib.

***AZƏRTAC***

# "Araz Vadisi İqtisadi Zonası"nda bir neçə yeni müəssisə tikiləcək





**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olub, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "Improtex Qarabağ Sənaye Kompleksi" MMC-nin müəssisələrinin təməllərini qoyub.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına sənaye parkında görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, regionda mövcud yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. azad edilmiş ərazilərimizə investor marağını da artırır.

Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Logistik imkanlar baxımından əlverişli ərazidə təşkil olunması investorların diqqətini cəlb edən əsas məqamlardan biridir. Belə ki, Sənaye Parkı yeni salınan magistral avtomobil yolu və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti Parkın rezidenti kimi, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb. Bu layihələrin reallaşması nəticəsində, ümumilikdə Sənaye Parkına 32,7 milyon manat investisiya yatırılacaq, 420-dən çox daimi iş yeri yaradılacaq.

Bildirildi ki, bu Sənaye Parkı 200 hektar ərazini əhatə edir. Sənaye Parkının prioritet istiqamətləri kimi, logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin və s. təşkili müəyyənləşdirilib. Sənaye Parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. Parkın ərazisi tam olaraq minalardan və hərbi sursatlardan təmizlənib. Sənaye Parkında fəaliyyət göstərəcək işçilərin və sahibkarların rahatlığının təmin edilməsi məqsədilə mobil şəhərcik salınıb. Şəhərcikdə yataqxana, yeməkxana, ofis, tibb məntəqəsi və aptek, market, qarışıq mallar mağazası, anbar, camaşırxana, bərbərxana, nəzarət buraxılış məntəqəsi quraşdırılıb, əraziyə asfalt yol çəkilib, abadlıq işləri görülüb. Sənaye Parkının ərazisində tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədilə subartezian quyusu qazılıb. Ərazidə 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb. Parkın işıqlandırılmasında günəş enerjisindən qidalanan panellərdən istifadə edilir. Sənaye Parkının ərazisində topoqrafik və mühəndis-geoloji tədqiqat işləri tam olaraq yekunlaşdırılıb. Hazırda Parkda inzibati binanın tikintisi işləri, rezidentlər üçün infrastruktur sisteminin qurulması, əraziyə dəmir yolu xəttinin çəkilməsi üçün layihələndirmə istiqamətində işlər davam etdirilir.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında ölkədə mövcud digər sənaye parklarında olduğu kimi, sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, Sənaye Parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s.) təmin edilir. Eyni zamanda, qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar. Bunlarla yanaşı, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən rezidentlərə hər cür təşkilati dəstək tədbirləri göstərilir. Həmçinin bu il yanvarın 1-dən etibarən Vergi Məcəlləsinə edilən dəyişikliyə əsasən, işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlar üçün əlavə güzəştlər tətbiq edilir. Buraya sosial sığorta haqlarının subsidiyalaşdırılması, işğaldan azad edilmiş ərazilərdə məskunlaşaraq işləyən mütəxəssislərə güzəştlər də daxildir.

Prezident İlham Əliyev Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış oldu.

Məlumat verildi ki, Rusiya və Azərbaycan birgə müəssisəsi olan "Avto Lizinq Azərbaycan" MMC tərəfindən Sənaye Parkının 3 hektar ərazisində yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına texniki servis xidmətlərinin göstərilməsi mərkəzi yaradılacaq. Sənaye Parkının ilk rezidenti kimi qeydiyyatdan keçən və 2021-ci il oktyabrın 5-də təməli qoyulan "Avto Lizinq Azərbaycan" MMC-nin texniki servis mərkəzinin tikintisi işləri uğurla davam etdirilir. Ümumi investisiya həcmi 10,2 milyon manat olan müəssisənin inşasına artıq 5,6 milyon manatdan çox investisiya yatırılıb. Müəssisənin fəaliyyətə başlaması ilə 65 nəfər daimi işlə təmin ediləcək. Texniki servis mərkəzinin 2023-cü ildə fəaliyyətə başlaması nəzərdə tutulur.

* * *

Sənaye Parkının 5 hektar ərazisində "Holcim Azərbaycan" ASC tərəfindən müasir texnologiyalar əsasında əmtəə beton və quru yapışdırıcı istehsalı üzrə zavod inşa olunacaq. Bununla bərabər, sement satışı üçün terminal da qurulacaq. Ümumi investisiya dəyəri 3,74 milyon manat olan müəssisədə Avropanın qabaqcıl texnologiyalarından istifadə ediləcək. Layihənin həyata keçirilməsi ilə 25 nəfər daimi işlə təmin olunacaq. Zavodda istehsal olunacaq məhsullar regionda dayanıqlı tikintinin həyata keçirilməsinə töhfə verəcək, məhsulların daşınması prosesinin optimallaşdırılması ətraf mühitin qorunmasına xidmət edəcək.

**Prezident İlham Əliyev dedi:** "Mən həmişə deyirəm, çalışmaq lazımdır ki, burada daha çox yerli insanlar işə cəlb edilsinlər. Mənim nümayəndəmlə, nazirliklə də sıx təmasda olmaq lazımdır. Birinci mərhələdə təbii ki, sizin təcrübə toplamış işçilər çalışacaq, amma bir neçə ildən sonra onları yetişdirilmiş sırf yerli kadrlar əvəz etməlidir.

"Holcim"in buraya gəlməsinin tarixçəsini mən yaxşı bilirəm. Yadımdadır, Davosda "Holcim"in ovaxtkı rəhbəri mənə yaxınlaşaraq belə bir təklif irəli sürdü. Mən də dərhal razılıq verdim və qısa müddət ərzində o zavod inşa edildi. Ondan sonra Azərbaycanda sement istehsalına maraq artdı. O vaxta qədər biz sementi idxal edirdik. İndi rəqabət də var, o da çox yaxşıdır. Amma "Holcim" hər halda öz keyfiyyət markasını saxlayır".

Dövlətimizin başçısı zavodun təməlini qoydu.

* * *

Prezident İlham Əliyevə məlumat verildi ki, "Az-Tex-Import" MMC tərəfindən Sənaye Parkının 2 hektar ərazisində investisiya həcmi 3,8 milyon manatdan çox olan yük avtomobillərinə texniki servis xidmətlərinin göstərilməsi layihəsi həyata keçiriləcək. Layihə çərçivəsində yük avtomobillərinə texniki servis xidmətlərinin göstərilməsi və daha sonrakı mərhələdə 5 tona qədər yüngül tonnajlı yük avtomobillərinin yığımı nəzərdə tutulur. İtaliya texnologiyasından istifadə ediləcək müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. Müəssisədə 25 nəfər işlə təmin ediləcək.

Prezident İlham Əliyev müəssisənin təməlini qoydu.

Qeyd edək ki, "Az-Tex-Import" MMC tərəfindən Sumqayıt Kimya Sənaye Parkının 4 hektar ərazisində İtaliyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə "IVECO" markalı yüngül, orta və ağır tonnajlı yük və xüsusi təyinatlı avtomobillərin istehsalı layihəsi də həyata keçirilir. Həmin müəssisənin təməli 2022-ci il iyulun 20-də dövlətimizin başçısının iştirakı ilə qoyulub. Hazırda müəssisədə tikinti işləri davam etdirilir. İşlərin 2024-cü ilin birinci yarısında yekunlaşdırılması nəzərdə tutulur. İnvestisiya dəyəri 19,2 milyon manat olan müəssisədə 90 nəfər daimi işlə təmin ediləcək.

* * *

"İmprotex Qarabağ Sənaye Kompleksi" MMC tərəfindən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 5 hektar ərazidə investisiya həcmi 7,4 milyon manat olan layihə çərçivəsində mərhələli şəkildə xüsusi təyinatlı texnika və metal məmulatların istehsalı nəzərdə tutulur. Müəssisədə ildə 100 ədəd mexaniki minatəmizləyən, 100 ədəd yanğınsöndürən və 300 ədəd tentli yarımqoşqu istehsal olunacaq. İstehsal edilən məhsulların daxili bazara satılması ilə yanaşı, Xəzəryanı və Şərqi Avropa ölkələrinə ixracı da planlaşdırılır. Layihənin həyata keçirilməsi ilə 120-dən çox iş yeri yaradılacaq.

Azərbaycan Prezidenti müəssisənin təməlini qoydu.

***AZƏRTAC***

# Cəbrayılın Şükürbəyli kəndinin təməli qoyulub



**Mayın 4-də Cəbrayıl rayonunun Şükürbəyli kəndinin təməli qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Şükürbəyli kəndində 1042 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 298 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 184 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 635 fərdi evin tikilməsi nəzərdə tutulur.

Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Dəjəl, Şıxəliağalı kəndləri və Mahmudlu qəsəbəsi ilə birlikdə layihələndirilib.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, ticarət mərkəzi, bazar, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, məscid, qonaq evinin inşası planlaşdırılıb. Burada da sakinlərin məşğulluğunun təminatı ilə bağlı bütün zəruri tədbirlər görüləcək.

***AZƏRTAC***

# Horovlu kəndi dirçəldilir



**Mayın 4-də Cəbrayıl rayonunun Horovlu kəndinin təməli qoyulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təməlqoyma mərasimində iştirak edib.**

Əvvəlcə kənddə görüləcək işlər və yaradılacaq şərait barədə videoçarx nümayiş olundu.

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, layihələndirilən ümumi ərazi 248,1 hektardır. Perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub. Baş plana əsasən, köhnə Horovlunun ərazisini əhatə edən bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Çapand, Safarşa, Fuğanlı və Həsənqaydı kəndləri ilə birlikdə layihələndirilib.

Qeyd olundu ki, birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün 334 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beş otaqlı olacaq.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, klub icma mərkəzi və çoxfunksiyalı bina, bazar kompleksi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, mərasim zalı, qonaq evinin tikintisi planlaşdırılıb. Əhalinin məşğulluğunun təmin edilməsi üçün zəruri tədbirlər də görüləcək.

Diqqətə çatdırıldı ki, kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə də həyata keçirilir.

Prezident İlham Əliyev Horovlu kəndinin təməlini qoydu.

***AZƏRTAC***

# Sahibə Qafarova Birləşmiş Krallığa işgüzar səfərə gedib



**Milli Məclisin sədri Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya kralı III Çarlzın tacqoyma mərasimində iştirak etmək məqsədilə mayın 4-də bu ölkəyə işgüzar səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Londonun "Luton" beynəlxalq hava limanında Azərbaycan parlamentinin rəhbərini Kralın nümayəndəsi Ruth Bell, Birləşmiş Krallığın Xarici İşlər Nazirliyinin təmsilçisi Nik Karter, Azərbaycanın bu ölkədəki fövqəladə və səlahiyyətli səfiri Elin Süleymanov və digər rəsmi şəxslər qarşılayıblar.

# Azərbaycan XİN Paşinyana cavab verib

**Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) Ermənistanın baş naziri Nikol Paşinyanın Çex Respublikasında mətbuat konfransı zamanı ölkəmizlə bağlı səsləndirdiyi iddialara münasibət bildirib.**

Bildirilib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın mayın 4-də Çex Respublikasının baş naziri ilə birgə mətbuat konfransında çıxışı zamanı ölkəmizin Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi təsis etməsi, habelə guya Azərbaycanın Ermənistanla sərhəddə vəziyyəti gərginləşdirməsi, Qarabağ bölgəsində humanitar böhran yaratdığı ilə bağlı dəfələrlə səsləndirdiyi cəfəng iddiaları qətiyyətlə rədd edirik.

Azərbaycanın öz suveren ərazisində yaratdığı və erməni sakinlərin artıq şəffaf şəkildə hər iki istiqamətdə keçməyə başladığı "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsini təsis etməsi məsələsinə hər hansı bir şərh qəbuledilməzdir.

Ermənistan tərəfi Azərbaycanın daxili işlərinə qarışmağa və uzun illər ərzində Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar siyasətə son qoymalıdır.

"Etnik təmizləmə" barədə baş nazirin cəfəng fikirlərinə gəldikdə isə qeyd edək ki, tarix boyu azərbaycanlılara qarşı xüsusi qəddarlıqla kütləvi qırğınlar, deportasiyalar siyasətinin, əməllərinin etiraf edilməsi və üzrxahlıq dilənməsi əvəzinə, Azərbaycanı belə əməllərdə təqsirləndirmək tarixdən dərs çıxarmamağın göstəricisidir.

Ermənistan tərəfinin sülh sazişi üzrə danışıqların davam etdiyi bir vaxtda bu kimi bəyanatlarla çıxış etməsi sülhə xidmət etmir.

# 960 yerlik məktəb binası tikilir



**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində inşa edilən akademik Mehdi Mehdizadə adına tam orta məktəbin binasında aparılan tikinti işlərinin gedişi ilə tanış olub.**

Dövlətimizin başçısına məktəb binasında görülən işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, 960 yerlik yeni məktəb binasının inşasına 2021-ci ilin oktyabrında başlanılıb. Burada şagirdlərin təhsili, təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün hərtərəfli şərait yaradılacaq.

Məktəbin həyətində geniş idman meydançası yaradılacaq ki, bu da sağlam gənc nəslin yetişməsi üçün vacib amillərdəndir.

Bir sözlə, doğma torpaqlarına geri dönən cəbrayıllı şagirdlər 145 yaşlı orta ümumtəhsil müəssisəsinin ən müasir tələblərə cavab verən yeni binasında təhsil alacaqlar.

***AZƏRTAC***

# Heydər Əliyev və məhkəmə-hüquq islahatları



**Müasir müstəqil dövlətimizin banisi, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ədliyyə orqanlarında geniş qeyd edilir. Bu münasibətlə mayın 4-də Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə "Fairmont Baku" hotelində "Heydər Əliyev və məhkəmə-hüquq islahatları: tarix, zaman və nailiyyətlər" mövzusunda geniş konfrans keçirilir.**

Ədliyyə naziri Fikrət Məmmədov məhkəmə-hüquq islahatlarında Heydər Əliyevin siyasi iradəsinin təntənəsi barədə geniş məruzə ilə çıxış edib.

Nazir xüsusi qeyd edib ki, hələ sovetlər birliyində ədliyyə sisteminin təkmil struktur kimi sabit fəaliyyətinin təmin olunması məhz 1970-ci ilə - ümummilli liderin Azərbaycan rəhbərliyinə gəlişi dövrünə təsadüf edir. Dövlət müstəqilliyimiz bərpa olunduqdan sonra ümummilli liderin rəhbərliyi ilə ədliyyə orqanlarının hərtərəfli inkişafı üzrə köklü islahatlar aparılıb. Onlardan yalnız bəzilərini xatırladıb.

İlk növbədə, cəzaların icrası sistemini təkmilləşdirmək, islah-tərbiyə işini humanistləşdirmək məqsədilə penitensiar müəssisələrin demokratik prinsiplərə uyğun olaraq cinayət təqibi orqanından Ədliyyə Nazirliyinə verilməsi işi başa çatdırılıb.

Ədalət mühakiməsinin ayrılmaz hissəsi olan məhkəmə qərarlarının icrasının müasir tələblərə uyğun həyata keçirilməsi ilə bağlı yeni vəzifələr müəyyən edilərək nazirlikdə icra xidməti təsis edilib. İlk dəfə istintaq idarəsi yaradılaraq ədalət mühakiməsi əleyhinə olan və bir sıra digər aidiyyəti cinayətlərin ibtidai istintaqının aparılması Ədliyyə Nazirliyinə həvalə olunub.

Diqqətə çatdırılıb ki, Azərbaycanda yerli demokratiyanın təşviqi istiqamətində mühüm addımlar atılaraq ilk dəfə yerli özünüidarə orqanları – bələdiyyələr formalaşdırılıb, beynəlxalq təcrübəyə uyğun olaraq bu orqanların fəaliyyətində qanunçuluğun təmin olunması, onlara metodoloji yardımın göstərilməsi, həmçinin parlamentə illik məruzələrin təqdim olunması nazirliyə tapşırılıb.

Məhkəmə ekspertizası sahəsində işin müasir tələblərə uyğun qurulması məqsədilə ayrıca qanun qəbul edilmiş və bütün qeyri-tibb məhkəmə ekspertizalarının aparılması Ədliyyə Nazirliyinə həvalə edilib.

Aparılan islahatların nəticəsi olaraq nazirliyin cəmiyyətdə rolu və nüfuzu xeyli artmış və o dövlətin hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrilib. Tam əminliklə deyə bilərək ki, müstəqil Azərbaycan dövlətinin qurucusu olan Heydər Əliyev həm də müasir ədliyyə sisteminin banisidir.

Tədbirdə Ali Məhkəmənin sədri İnam Kərimov, İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva, Vəkillər Kollegiyasının sədri Anar Bağırov, Mediasiya Şurasının sədri Nadir Adilov, Naxçıvan Muxtar Respublikası ədliyyə və məhkəmə orqanlarının rəhbər şəxsləri, Məhkəmə-Hüquq Şurasının üzvləri, apellyasiya və birinci instansiya məhkəmələrinin sədrləri, hakimliyə namizədlər, ali təhsil müəssisələrinin və vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri, gənc ədliyyə işçiləri və könüllüləri, hüquqşünas tələbələr və media mənsubları iştirak edirlər.

# Xarici işlər nazirlərinin ABŞ-da keçirilən görüşü başa çatıb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında mayın 1-4-də ABŞ-ın Virciniya ştatının Arlinqton şəhərində danışıqlar aparılıb.**

Bu barədə XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib.

Nazirlər Corc Şults adına Milli Xarici Əlaqələr Tədris Mərkəzində qəbul ediliblər. Vaşinqtonda olarkən onlar ABŞ-ın Dövlət katibi Antoni Blinken və prezidentin köməkçisi, milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanla görüşüblər.

Tərəflər hazırkı vəziyyətlə bağlı fikirlərini bölüşüb, münasibətlərin normallaşması ilə bağlı mövcud məsələlərə dair mövqelərini bildiriblər.

Nazirlər və onları müşayiət edən nümayəndə heyətinin üzvləri Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında ikitərəfli Saziş layihəsinin bəzi maddələri üzrə qarşılıqlı razılıq əldə edib, eyni zamanda, bəzi əsas məsələlər üzrə mövqelərin fərqli olaraq qaldığını qəbul ediblər.

Hər iki nazir Ermənistan və Azərbaycan arasında danışıqlara ev sahibliyi etdiyinə görə ABŞ tərəfinə minnətdarlıqlarını bildiriblər. Tərəflər müzakirələri davam etdirmək barədə razılığa gəliblər.

# İƏT Laçın yolunda nəzarət-buraxılış məntəqəsi qurulmasını təqdir edir

**İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibliyi Azərbaycanın təhlükəsizlik təhdidlərinə cavab olaraq, beynəlxalq hüququn prinsip və normalarına uyğun şəkildə öz suveren ərazisində nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə bağlı qanuni qərarını və addımını təqdir edir. Bu fikirlər təşkilatın Baş katibliyinin bəyanatında yer alıb.**

Bəyanatda deyilir: "Baş Katiblik 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya Federasiyası arasında imzalanmış üçtərəfli Bəyanatda digər məsələlərlə yanaşı, bütün hərbi fəaliyyətlərin dayandırılması barədə razılaşmaya istinad edir və Ermənistanı Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmətlə yanaşmağa çağırır.

Üçtərəfli sazişə əsasən, Azərbaycan Laçın-Xankəndi yolu ilə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinin təhlükəsizliyinə təminat vermək öhdəliyini daşıyır. Baş Katiblik etiraf edir ki, sərhəd təhlükəsizliyinin təmin edilməsi Azərbaycan hökumətinin səlahiyyəti, həmçinin milli təhlükəsizlik, dövlət suverenliyi və qanunun aliliyi üçün zəruri şərtdir.

Baş Katiblik İƏT Xarici İşlər Nazirləri Şurasının Mavritaniya İslam Respublikasının Nuakşot şəhərində keçirilmiş 49-cu sessiyasında və əvvəlki sessiyalarda Azərbaycan və Ermənistan arasında münasibətlərin qarşılıqlı tanınması və bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət əsasında normallaşdırılması çağırışını bir daha vurğulayır".

# Prezidentin Şuşa mesajları: Ermənistanla sülh gözləntisi

## Dövlətimizin başçısı izah və xəbərdarlıq edir

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada ADA Universitetinin təşkilatçılığı ilə keçirilmiş, ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransdakı çıxışında başlıca diqqəti Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesinə, sülhün əldə edilməsi perspektivlərinə, ümumən, iki ölkə arasındakı gərginliyin müxtəlif aspektlərinə yönəltdi. Azərbaycan lideri ayrı-ayrı suallara ətraflı cavablarında, həmçinin Cənubi Qafqaz bölgəsindəki mövcud durumun çərçivələrini mükəmməl şəkildə müəyyənləşdirdi, bütövlükdə, gələcəklə bağlı müstəsna əhəmiyyət daşıyan mesajlar verdi.**




Dövlətimizin başçısının geniş məzmunlu və dolğun nitqində diqqət yetirilməli ilk məqam Azərbaycanla Ermənistan arasındakı münaqişəli durumun həllini tapmamasının səbəblərinin vurğulanması idi. Cənab İlham Əliyev bu baxımdan yaxın keçmişə ekskurs etdi, Qarabağ konfliktinin və ölkəmizin ərazilərinin illərlə işğalda qalması reallığından söz açdı. Çünki indi də keçmişdəki "təcrübədən" faydalanmaq meyilləri aktualdır. O təcrübədən ki, onun müəllifləri Azərbaycanın suveren torpaqlarının otuz ilə yaxın müddətdə işğalda qalmasına biganə yanaşmışdılar.

Bu yerdə Ermənistanın beyin mərkəzlərinin və siyasi ekspertlərinin yaxın keçmişə nəzərən apardıqları hesablamaları yada salaq. Onlar bildirirdilər ki, nəsillər dəyişdikcə Azərbaycan cəmiyyəti Qarabağı yaddan çıxaracaq, beləliklə, münaqişə həllini tapacaq. Əlbəttə, yanıldılar və yanıldıqlarını ilk dəfə 2016-cı ilin Aprel müharibəsi zamanı etiraf etdilər də. Nəzərə alaq ki, həmin müharibə 2020-ci ilin 44 günlük müharibəsindəki rüsvayçılığın anonsu idi.

***

Bəli, erməni tərəf haqqında söz açdığımız siyasi, ictimai, ideoloji və psixoloji qənaətə gəlməməli idi. Düşünməməli idi ki, Azərbaycan cəmiyyəti öz qanuni ərazilərindən imtina edəcəkdir. Axı illər ərzində danışıqlar prosesi gedirdi. Rəsmi Bakı həmin prosesdə kifayət qədər dirəniş göstərirdi. Əlbəttə, Ermənistan da mövqeyini əldən verməmək istəyirdi. Yəni, inad edirdi. Buna kor inad demək daha doğrudur. Ən doğrusunu isə cənab İlham Əliyev anlatdı: "Münaqişənin sülh yolu ilə həllini tapa bilməməsinin əsas səbəbi o idi, Ermənistan bunu istəmirdi. Onlar, sadəcə, bu taktikadan istifadə edirlər, prosesi ləngidirlər, bir addım irəli, iki, üç və ya hətta beş addım geriyə atırlar. Onlar vəziyyətin olduğu kimi qalmasını və onu dondurmaq istəyirdilər. Onlar düşünürdülər ki, işğalı legitimləşdirə biləcəklər. Düşünürdülər ki, biz öz ərazi bütövlüyümüzlə bağlı bir kompromisə gedəcəyik. Hesab edirdilər ki, onların beynəlxalq sponsorları həmişə onların yanında olacaq və onlar üçün mübarizə aparacaqlar. Lakin bu, səhv hesablanmış bir addım idi. Onlar yanlış idilər".

Bəli, keçmişin xatırlanması həm də ona görə zəruridir ki, Ermənistanın hazırkı rəhbərliyi özündən əvvəlki iqtidarın yolu ilə getməyə üstünlük verir. Prezident İlham Əliyev bununla bağlı konkret məqamlara toxunaraq, söhbəti ATƏT-in artıq keçmiş olan Minsk qrupu üzərinə gətirdi. Dövlətimizin başçısı, faktiki olaraq bildirdi ki, uzun müddət bu təsisat İrəvanın manipulyativ gedişlərinin aləti rolunda çıxış edib. Cənab İlham Əliyev belə söyləyərkən, Ermənistanın baş naziri Nikol Paşinyanın və onun administrasiyasının eyni yolla getmək cəhdlərinin mövcudluğunu qabardır. Bir halda ki, ATƏT-in Minsk qrupu vaxt uzatmaq üçün manipulyasiya aləti olub, indi nə üçün onun "xidmətlərindən" yararlanılmasın? Hər halda, İrəvanın 44 günlük müharibədən sonrakı status-kvonu saxlamaq naminə belə bir niyyət güddüyü tam aydındır.

Təbii ki, Ermənistan hakimiyyəti hazırkı status-kvonun Azərbaycan tərəfindən yaradıldığını unudur. Yəni, ölkəmiz özünün yaratmadığı status-kvonu müharibə gedişində dəyişməyi bacarıbsa, heç şübhəsiz, öz yaratdığı durumun perspektivsiz nəticələrinə də müdaxilə imkanlarına malikdir. Dövlətimizin başçısının söylədiklərinə diqqət yetirək: "1992-ci ildən 2020-ci ilədək heç bir nəticə əldə etmədi. Nəticə faktiki olaraq neqativ idi. Çünki işğal dövründə qondarma danışıqların sonunda biz aydın başa düşdük ki, Minsk qrupunun həmsədrləri, sadəcə olaraq, vəziyyəti dəyişməz olaraq saxlamaq, başqa sözlə, status-kvonu saxlamaq istəyirdilər ki, bu da onlar və Ermənistan üçün rahat idi. Lakin bizim üçün rahat deyildi. Ona görə də biz status-kvonu dəyişdik. Onlar planlaşdırırdılar ki, səylərini birləşdirib Azərbaycanı inandırsınlar ki, Minsk qrupu müəyyən formada fəaliyyətini davam etdirməlidir. Bunun necə olacağını soruşanda mən dedim ki, biz adəti üzrə fəaliyyət göstərmək üçün heç bir imkan görmürük, bu, başa çatıb, keçmiş Minsk qrupunun həmsədr ölkələri kömək etmək istəyirlərsə, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına yardım edə bilərlər. Mən söylədim ki, Qarabağ münaqişəsi həll olunub, "Madrid prinsipləri" adlandırılan prinsiplərin böyük əksəriyyəti Azərbaycan tərəfindən həyata keçirilib. Ona görə də, əgər siz kömək etmək istəyirsinizsə, əsas diqqəti sülh razılaşması üzərində cəmləşdirin və Ermənistanı konstruktiv olmağa inandırın".

***

Bəs, Ermənistan konstruktiv olmağa cəhd göstərirmi? Əlbəttə, 44 günlük müharibədən sonra biz konstruktivliyin yalnız çox kiçik fraqmentlərini görmüşük ki, bunlar isə böyük məsələlərdən yayınmaq görüntüsü formalaşdırmaq məramına hesablanmışdı. Yəni, İrəvan beynəlxalq ictimaiyyətə göstərib ki, baxın, biz hansısa məsələ ilə razıyıq. Əslində isə geniş anlamda götürsək, heç bir razılıq olmayıb. Sualımız həm də hazırda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin ABŞ-da davam edən danışıqlarına nəzərəndir. Danışıqlar nəticə verəcəkmi?

Əlbəttə, beynəlxalq ictimaiyyət, maraqlı tərəflər bu danışıqlardan sülhün "yol xəritəsi"ni gözləyirlər. Mövcud istiqamətdə bəyanatlar, müəyyən pozitiv fikirlər də regional ictimai rəyə sızmaqdadır. Hərçənd, demək olmaz ki, Azərbaycan və Ermənistan cəmiyyətlərindən hansı daha çox nikbinliyə köklənib. Məsələn, biz qarşı tərəfdə pozitiv ab-hava görmürük. Üstəlik, rəsmi İrəvanın daxildəki dağıdıcı, şovinist və revanşist ictimai rəyin gerçək əsirinə çevrildiyinin şahidiyik. İnanmırıq ki, erməni iqtidarı xəstə təmayüllərə qarşı çıxacaq gücdədir. Hazırda Ermənistan cəmiyyətindəki vəziyyət sirkənin öz qabını çatlatması effekti kimi bir şeydir. Elə buna görə də Vaşinqton prosesinə yanaşmada bir o qədər gözləntimiz yoxdur.

Prezident İlham Əliyev isə çıxışında daha konkretdir və fikrini faktoloji şəkildə bildirir. Daha doğrusu, bizim nikbinliyimizə əsas verməyən amillərin İrəvan siyasətinə təsirinin doğurduğu hazırkı reallığı açıqlayır. Hərçənd, dövlətimizin başçısının nikbinliyə köklənməyən deyimində müəyyən müsbət ehtimallar da özünü göstərməkdədir. "Nikbinliyim, qeyd etdiyim kimi, bir neçə gün əvvəl aldığımız şərhlərə görə azdır. 40 gündən çox gözləyəndən sonra biz gördük ki, demək olar, şərhlərin 95 faizi əvvəlkilərin eynidir. Yenidən Azərbaycanın ərazi bütövlüyünü sual altına almaq cəhdləri, yenidən Ermənistanla Azərbaycan arasında sülh razılaşmasına hansısa yollarla qondarma "Dağlıq Qarabağ"ı daxil etmək cəhdləri, yenidən bizim terrorizm, ekstremizm, radikalizm və separatizmə qarşı birgə mübarizəyə dair təklifimizi rədd etmək cəhdləri, hamısı qaldı, yalnız separatizmin üstündən Ermənistan xətt çəkdi. Bu, o deməkdir ki, onlar yenidən Azərbaycanda separatizmə rəvac verəcəklər. Bu, bizim nikbinliyimizi azaltdı. Amma yenə də baxarıq, çünki danışıqların bu raundu əvvəlkindən fərqlidir. Artıq bir neçə gün davam edib və ola bilsin ki, daha bir neçə gün davam edəcək. Bizim fikrimiz ondan ibarət idi ki, onlar müəyyən nəticələrə gəlməlidirlər, əks halda bu, böyük məyusluq olar. Eyni zamanda, düşünürəm ki, razılığa gəlmək üçün ən yaxşı yol Azərbaycanla Ermənistan arasında, heç bir vasitəçi, köməkçi və ya pozucu olmadan birbaşa danışıqlardır".

Bəli, Azərbaycan Prezidentinin də bildirdiyi kimi, Vaşinqton danışıqlarında nəticələr əldə edilməməsi məyusluğa səbəb olacaq. Yuxarıda məyusluq ehtimalını aktuallaşdıran səbəblərdən söz açdıq. Əslində, dövlətimizin başçısı indiyədək baş vermiş uğursuzluqların səbəblərinə də aydınlıq gətirir. Nəzərə alaq ki, ölkəmizin lideri çıxışında erməni hakim siyasi isteblişment səhvlərindən də söz açır. Həmin səhvlərdən biri üzərində dayanmağı vacib sayırıq. Söhbət beynəlxalq sponsorlara arxalanmaqdan gedir.

***

Biz iki ildən artıqdır görürük ki, Ermənistan dövləti, necə deyərlər, köhnə şakərindədir. Nəinki ölkənin rəsmiləri, eləcə də siyasi dairələri kimlərinsə onları himayəyə götürəcəyinə ümid bəsləyirlər. Buna görə kompromisə gəlməkdən uzaqdırlar. İnanırlar ki, nə isə dəyişəcək və həmin dəyişikliyin fonunda itirilmişlərin bərpası şansı yaranacaqdır. Deməli, İrəvan özünün işğalçı mahiyyətindən uzaq durmur, revanşist və şovinist baxışlar isə bu mahiyyəti bir qədər də körükləyir.

Ancaq bunlar faydasızdır. Xamxəyallar isə yolverilməzdir. Yeri gəlmişkən, bu günlərdə erməni politoloqlardan biri Fransanın xarici işlər naziri Ketrin Kolonnanın İrəvanda səsləndirdiyi sərsəm fikirlərə münasibət bildirərkən, Parisin erməni təəssübkeşliyinin ziyanlı tərəflərinə toxunmuş və bildirmişdi ki, Fransanın bəyanatları Ermənistan hakimiyyətinin illüziyalara qapılmasını şərtləndirir. Bu isə çox təhlükəlidir.

Deməli, Paşinyan adiministrasiyasının geniş düşünməsinə ehtiyac var. Geniş düşünmək həm də qlobal əhəmiyyət daşıyan reallıqları nəzərə almaq bacarığıdır. Ermənistanın hakim siyasi dairələri, bütövlükdə, erməni xalqının mənafeyinə, onun gələcəyinə dair planlar qurursa, həmin reallıqlarla hesablaşmalıdırlar. Dövlətimizin başçısının təbirincə desək, geosiyasi dəyişikliklərin problem yox, imkanlar yaratmasını düşünməli, düzgün strategiya müəyyənləşdirməli, vəziyyəti dürüst təhlil etməli, prinsipial siyasət yürütməlidirlər: "Çünki əgər ölkələr manevr etməyə başlasalar, məsələn, bizim hazırda Ermənistanda şahidi olduqlarımız kimi, bu, manevr etmək cəhdidir, iki stulda deyil, düşünürəm ki, minimum 4 stulda oturmaq cəhdidir. Bu isə mümkün deyil. Azərbaycana gəlincə, istər regional inkişafla bağlı siyasətimiz olsun, istər beynəlxalq məsələlərlə bağlı, ölkələrin ərazi bütövlüyü ilə bağlı siyasətimiz olsun, tamamilə aydındır, hazırkı vəziyyətin maraqlarından tamamilə kənardır. Zənnimcə, Azərbaycan geosiyasi dəyişikliklər nəticəsində daha güclü olacaq".

***

Məlumdur ki, lap əvvəl Azərbaycan-Ermənistan normallaşmasının Rusiya xətti mövcud idi. 44 günlük müharibədən sonrakı, təxminən, bir ilə yaxın müddətdə bu xətt aktivliyini saxlayırdı. Lakin Rusiyanın Ermənistanı yenidən öz orbitinə qaytarmaq yönümlü tərəfkeşliyindən sonra vəziyyət mürəkkəbləşdi. Nəticədə kollektiv Qərb vasitəçiliyi formalaşdı ki, bunu öz üzərinə Avropa İttifaqı götürdü. Mövcud təmayül isə 2022-ci ilin sonlarına doğru Fransanın ermənipərəstliyi səbəbindən faydasız aqibət ilə üzləşdi. Belədə təşəbbüsə yiyələnən tərəf ABŞ oldu. Birləşmiş Ştatlar nizamlama prosesinə, özünü kollektiv Qərbdən ayıraraq, qoşuldu.

Azərbaycan Prezidenti İlham Əliyev indiyədək verdiyi müsahibələrdə, çıxışlarda nizamlama prosesinin qeyd etdiyimiz maraqlar kontekstindəki təhlilini kifayət qədər əhatəli verib. Dövlətimizin başçısı "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusundakı beynəlxalq konfransda sualları cavablandırarkən də vurğuladığımız məqama toxundu. Toxundu və eyni zamanda, indiyədək aparılmış danışıqların ayrı-ayrı seqmentinə müfəssəl aydınlıq gətirdi. Cənab İlham Əliyevin gəldiyi nəticə də var ki, bunu onun indi diqqətə çatdıracağımız fikirlərinin son üç cümləsində görmək mümkündür: "Əgər bu ölkələrin hansısa, mən sözsüz ki, ABŞ və Rusiyanı nəzərdə tuturam, çünki Fransa birtərəfli qaydada ermənipərəst mövqe tutandan sonra o, faktiki olaraq özünü istənilən növ vasitəçilikdən məhrum etdi. Bu, açıq-aşkardır.

Yeri gəlmişkən, söhbət təkcə Qarabağda separatizmin qondarma şəkildə tanınmasından getmir, həm də BMT-də, Frankofoniyada, digər formatlarda çox açıq anti-Azərbaycan bəyanatlar, davranışlar, siyasətçilərin açıq bəyanatları Fransanı vasitəçilikdən təcrid etdi, çünki vasitəçi olmaq, ən azı, özünü neytral kimi göstərməkdir. Əgər siz qəlbən neytral deyilsinizsə, ən azı özünüzü neytral kimi göstərməlisiniz. Onlar bunu belə etməyə çalışmalıdılar. Hazırda biz ABŞ, Rusiya tərəfindən bu səyləri görürük. Siz ola bilsin bilirsiniz ki, iki ölkə – Ermənistan və Azərbaycan nazirləri arasında danışıqların növbəti raundunun bu ay Rusiyada keçirilməsi nəzərdə tutulub. Avropa formatı var ki, Prezident Şarl Mişel ölkə liderləri səviyyəsində bir neçə dəfə görüş təşkil edib. Beləliklə, düşünürəm ki, bu, davam etdirilə bilər, lakin yenə də zənnimcə, iki ölkə arasında birbaşa danışıqlar daha səmərəli, faydalı olar. Düşünürəm ki, biz bu istiqamətdə getməliyik. Əlbəttə ki, əgər Ermənistan bunu etməyə hazır olsa".

***

Prezidentin məlum toplantıdakı fikirlərində iki bir-biri ilə əlaqəli məqam da var. Həmin məqamlarda Vaşinqton prosesinin səmərəli olmaması məntiqinə köklənməklə, regionun gələcək perspektivləri vurğulanır. Əlbəttə, burada təkcə ABŞ vasitəçiliyinin mümkün uğursuzluğu əsas götürülmür. Ümumən, Ermənistanın sülhdən yayınmağının doğuracağı regional durumun üzərinə gəlinir. Azərbaycan Prezidenti danışıqlardakı effektivsizliyin, yəni, İrəvanın konstruktiv mövqe tutmamasının ölkəmizin planlarına hansısa mənfi təsir göstərməyəcəyini vurğulayır. Ancaq məlumdur ki, Ermənistan tutacağı qeyri-düzgün yolun nəticəsində şanslardan məhrum olacaqdır. Bu isə yalnız İrəvanın düşəcəyi xoşagəlməz situasiya deyil.

Diqqət yetirək. 2018-ci il inqilabından sonra Ermənistanın Rusiya yönümü Qərb yönümü ilə əvəzləndi. Başqa sözlə desək, Qərb İrəvanı Moskvanın əlindən aldı. Təbiidir ki, həmin prosesdə başlıca rolu Ermənistan ictimai rəyinin anti-Rusiya köklənişi oynadı. Yəni, erməni xalqı, sıravi vətəndaşlar gördülər ki, ölkəni himayəyə götürdüyünü göstərən Moskva onların yaşayışları üçün heç nə etmir. Deməli, indi Qərb nə isə etməlidir. Bəs, hansı yolla? Xaricdən gələcək daimi qrantlarlamı?

Ermənistanın təbii sərvəti yoxdursa, prinsip etibarilə bir çıxış yolu qalır ki, o da tranzit ölkəsinə çevrilməkdir. Əlbəttə, o, indi də tranzit əhəmiyyəti daşımaqdadır. Ancaq illər ərzində də belə olub və bu status ermənilərə Rusiya asılılığından qurtarmağa, müstəqil şəkildə yüksək gəlir əldə etməyə imkan yaratmayıb. Nəzərə alaq ki, Ermənistanın turizm potensialını artırmaq üçün də təminatlı maliyyə lazımdır. Bunlar olmadıqda və sülhə gəlməməsi səbəbindən, ən əsası isə Azərbaycan tərəfindən təcrid durumunda qalacağı üçün ölkədə yenidən Rusiya təsirinin üstün mövqeyə yiyələnməsi mümkündür. Qərbdə bunu çox gözəl anlayırlar.

Xaricdə onu da yaxşı dərk edirlər ki, Qərbpərəst Paşinyan rejimini saxlamaq üçün, açıq desək, pul çatdırmaq mümkün olmayacaq, onun özünün pul qazanmasına şərait yaranmalıdır. Şərait isə Zəngəzur dəhlizi ideyasının reallaşması ilə yetişməlidir. O ideya ki, "Bir kəmər, bir yol" layihəsinin və ya Şimal-Cənub dəhlizinin tərkib hissəsi ola bilər. "Ermənistan ərazisindən keçən 40 kilometrdən bir az artıq olan dəmir yolu xətti inşa edilsə, bu, beynəlxalq layihə olacaq. Ermənistan bu layihə qarşısında süni maneələr yaradacaqsa, onlar bundan yalnız uduzacaqlar. Çünki bu gün bizim Gürcüstan, Türkiyə və Rusiya vasitəsilə Qara dəniz limanlarına çıxışımız var, digər tərəfdən İran ərazisindən də istifadə edilir. Ermənistanın isə belə fiziki bağlantıları yoxdur", – deyə dövlətimizin başçısı prinsiplərini, eyni zamanda, şərtlərini açıqlayır. Bu açıqlanma isə həm də İrəvanın təcrid durumunda saxlanılacağının daha konkret mesajıdır.

Yada salaq ki, Azərbaycan dövləti vaxtilə torpaqlarımızın işğalına görə Ermənistanı Bakı-Tbilisi-Ceyhan və digər nəhəng regional layihələrdən kənarda qoymuşdu. İrəvan sülhə gəlməsə, eyni kurs davam edəcək. Deməli, sıravi erməninin Qərbpərəst Paşinyan iqtidarını hakimiyyətə gətirərkən ona bəslədiyi gözlənti də sıradan çıxacaq. Nəticə etibarilə, proseslər Ermənistanı yenidən Rusiyanın qucağına atacaqdır.

***

Görünür, indiki məqamda vurğuladığımız məsələyə həssas yanaşan ancaq ABŞ-dır. Rəsmi Vaşinqton məhz buna görə özünün imkanlarını tam surətdə səfərbər edib ki, İrəvan danışıqlar masasına əyləşsin və masada konkret müsbət nəticələr əldə olunsun. Deməli, Prezident İlham Əliyev konfransdakı çıxışında əbəs yerə bildirmir ki, Paşinyan administrasiyası konstruktiv olmasa, Azərbaycan diplomatik tədbirlərdən başqa hər hansı digər tədbirlərə əl atmayacaq. Dövlətimizin başçısı bir qədər əvvəl haqqında söz açdığımız məqama, dəqiq ifadə etsək, İrəvanın təcridinin davamlılığına təfsilatı ilə aydınlıq gətirir.

Təxminən belə: Ermənistanın sahibi kimdirsə, onun gələcəyini də o düşünsün: "Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar. Çünki bütün geosiyasi vəziyyət, - söhbət təkcə regiondan deyil, qlobal vəziyyətdən gedir, - dəyişib. Bizim orada öz yerimiz var. Bu yer çox sabitdir və getdikcə daha da möhkəmlənir. Lakin onlar üçün bu, böyük çağırış olacaqdır. Ümid edirəm ki, Vaşinqton danışıqları hətta nəticə verməsə belə, biz tərəqqinin əlamətlərini görə biləcəyik".

Sonda onu da deyək ki, Azərbaycan Prezidenti İlham Əliyevin "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda Bakı-İrəvan münasibətləri və sülh prosesi ilə bağlı səsləndirdiyi fikirlər, əslində, Ermənistan üçün növbəti xəbərdarlıqdır. Bu fikirlər, həmçinin, tipik erməni xəstəliyinin və avantürisminin İrəvanı nələrdən məhrum duruma düşürəcəyinin ətraflı izahıdır. Artıq nəticə çıxarmaq növbəsi isə təkcə Ermənistanın deyil, bütövlükdə Qərbindir. Üstəlik, Qərb onu da nəzərə almalıdır ki, Paşinyan hakimiyyətinin bundan sonrakı qeyri-ordinar hərəkətləri və şıltaqlığı fonunda "dəmir yumruq" da yerində olacaqdır.

***Əvəz CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***



I söhbət

# Heydər Əliyev: Vilayət Quliyev düzgün hərəkət eləyib

## Amma ciddi xəbərdarlıq alır

**“Heydər Əliyev xatirələr işığında” layihəmizin növbəti qonağı 1999–2004-cü illərdə Azərbaycan Respublikasının Xarici işlər naziri vəzifəsində işləmiş və hazırda ölkəmizin Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri olan Vilayət Quliyevdir. Vilayət müəllimin də ulu öndərlə bağlı çox həssas və böyük maraq doğuracaq çoxlu xatirələri var.**

**–Vilayət müəllim, bilmək istərdik, Heydər Əliyev fenomeni ilə ilk tanışlığınız haradan və nə vaxtdan başlayıb?**

–Əfsanəvi insanı ilk dəfə 1970-ci ildə, birinci kurs tələbəsi olduğum zaman görmüşdüm. Hələ Azərbaycan Dövlət Universiteti adlanan ilk universitetimizin 50 illik yubileyinə gəlmişdi. Rəsmi hissə başa çatandan sonra mühafizəçilərin və rəhbərliyin narahatlığına baxmayaraq foyedə tələbələrin əhatəsində dayanıb onlarla söhbət etdiyi yadımdadır. İş elə gətirmişdi ki, lap yaxında dayanmışdım. Hətta mənə elə gəlir ki, arada bir çiyinlərinə də toxundum. Əgər, həqiqətən də, belə olmuşdusa, çox simvolik jest idi. Çünki aradan, təxminən, otuz il keçəndən sonra artıq müstəqil Azərbaycanın Prezidenti Heydər Əliyevin rəhbərliyi altında, onunla çiyin-çiyinə çalışmaq şərəfinə və məsuliyyətinə layiq görüldüm. 1981-ci ildə, Azərbaycan yazıçılarının VII qurultayında respublika rəhbərinin milli hisslər üzərində köklənmiş parlaq nitqini dinləyənlər arasında mən də vardım.

İlk şəxsi tanışlığımız isə 1992-ci il sentyabr ayının 27-də Naxçıvanda olub. O zaman Heydər Əliyevin yanına Bakıdan, Azərbaycanın digər yerlərindən gedənlər çox idi. Məqsəd ölkədə yaranmış təhlükəli vəziyyəti aradan qaldırmaq üçün təcrübəli dövlət xadimini Bakıya, siyasi hakimiyyətə dəvət etmək idi.

Təəssüf ki, üzərimə belə missiya qoyulmamışdı. Naxçıvandan keçib Ərzuruma, dəvət aldığım Atatürk universitetinə işləməyə gedirdim. Amma muxtar respublikaya çatandan sonra bir problemlə üzləşdim. Naxçıvanda görüşdüyüm keçmiş aspirant həmkarım, indi Azərbaycan MEA-nın prezidenti akademik İsa Həbibbəyli Heydər Əliyevin yanına getməyi təklif etdi. Kiçik məsələ ilə bağlı belə bir insanı narahat etmək mənə yersiz görünsə də Heydər Əliyevlə görüşüb danışmaq istəyi tərəddüdlərimə üstün gəldi. Ən yaxşı halda bir neçə dəqiqəlik qəbul gözlədiyim halda Naxçıvan Ali Məclisi sədrinin yanında iki saata qədər qaldıq. Biri-birindən maraqlı söhbətlərini dinlədik, Bakıdakı vəziyyətlə bağlı bəzi suallarına bacardığım qədər cavab verdim.

Yeri gəlmişkən, bu epizodik görüş, hətta yanına hansı xahişlə gəlməyimiz Naxçıvanda hər gün onlarla adamı qəbul edən Heydər Əliyevin yadında qalmışdı. Çünki aradan il yarım keçəndən sonra haqqında danışacağım Türkiyə səfərinə hazırlıq zamanı hər şeyi dəqiqliklə xatırladı. Düşünürəm ki, bəlkə də, taleyin töhfəsi olan bu görüş sonrakı həyat yolumun dəyişməsinə təsirini göstərdi...

**–Azərbaycana rəhbərlik etdiyi ilk dövrlərdə Heydər Əliyevlə birbaşa ünsiyyətdə olmuşdunuzmu?**

–Bəli. 1994-cü ilin fevral ayında Heydər Əliyevin Azərbaycan Prezidenti kimi Türkiyəyə ilk rəsmi səfəri hazırlanırdı. Həmin dövrdə qısamüddətli iqtidar dövründə müəyyən vəzifələr tutmuş bəzi cəbhəçilər “fəaliyyətlərini donduraraq” qardaş ölkədə sığınacaq tapmışdılar. Burada hər vasitə ilə ictimai fikirdə çaşqınlıq yaratmağa, türk insanında Heydər Əliyevin şəxsiyyəti və siyasi əqidəsi haqqında yanlış fikirlər formalaşdırmağa çalışırdılar. Cəmiyyətə onun, guya, “Moskvanın adamı” olması haqqında dezinformasiyalar ötürülürdü. Şayiə yayırdılar ki, guya, Elçibəyin istədiyi Azərbacan–Türkiyə qardaşlığına xələl gətirəcək, türk dünyasının birləşməsinə maneçilik törədəcək və s. və i.a.

Səfər ərəfəsində qərara alındı ki, əsassız uydurmalara cavab vermək üçün Ankara və İstanbula kiçik bir “intellektual desant” göndərilsin. Bu məqsədlə telejurnalist Etibar Babayev, siyasi icmalçı Mübariz Qurbanlı, Xalq şairi Zəlimxan Yaqub və başqa yoldaşlardan ibarət qrup yaradıldı. Qrupun tərkibində mən də vardım. Yola düşməzdən əvvəl Prezidentin qəbulunda olduq. Planlarımızla, işi necə quracağımızla maraqlandı. Bəzi məsləhətlər verdi.

Bir həftə ərzində qəzet və jurnal redaksiyalarında görüşlər keçirdik, mətbuata müsahibələr verdik, televiziya çıxışlarımız oldu. Türkiyə Böyük Millət Məclisinin bəzi üzvləri, siyasi partiya təmsilçiləri ilə görüşdük. Səfərin nə dərəcədə uğurlu olduğunu deyə bilmərəm. Amma onu deyə bilərəm ki, çağdaş türk cəmiyyətinin fikir və düşüncəsində ciddi təbəddülat yaratmaq baxımından ən böyük işi Heydər Əliyev özü gördü. İlk rəsmi səfəri zamanı çıxış etdiyi bütün auditoriyalarda çoxlu dostlar qazandı, hətta ən müxalif mövqeli siyasilərin də fikirlərini dəyişməyə nail oldu. İnsanlar onun simasında Azərbaycanın həqiqi vətənpərvərini və Türkiyənin böyük dostunu gördülər.

Söylədiklərimi hansısa şahid ifadələrinə deyil, şəxsi qənaətlərimə əsasən deyirəm. Çünki həmin səfərdə Prezidenti müşayiət edənlər arasında mən də var idim. Eyni ilin iyulunda isə Heydər Əliyevin İrana ilk rəsmi səfərinin iştirakçıları sırasında oldum. 1995-ci il mart qiyamından sonra Respublika (indiki Heydər Əliyev) sarayında keçirilən və iki gün davam edən müşavirə zamanı, təbii ki, Prezidentin razılığı ilə mənim adım da çıxışçılar siyahısına salınmışdı. Heç şübhəsiz, bunlar hamısı yüksək etimadın təzahürü idi.

**–Sizin ədəbi mühitdən, ədəbiyyatdan xarici siyasət idarəsinin rəhbərliynə təyinatınız (26 oktyabr 1999) ictimaiyyət üçün bir qədər gözlənilməz oldu. Heydər Əliyevin belə qərara gəlməsinə əsas nə idi və sizə təyinatınız zamanı tövsiyələri, tapşırıqları nə oldu?**

–Əslində, bu, ilk növbədə, özüm üçün gözlənilməz oldu. Həmin vaxt Birinci çağırış Milli Məclisin deputatı idim, MEA Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifəsində çalışırdım. İstərdim ki, səmimiliyimə inanasınız: cəmiyyətdəki yerim, mövqeyim mənə yetərli idi. Mənsəb axtarışında, vəzifə eşqində deyildim. Fəaliyyət sahəsi kimi elmə marağım böyük idi. Bir xeyli planlarım vardı. Yəqin ki, arzularımın zirvəsi günün birində Akademiyanın müxbir, daha yaxşısı isə həqiqi üzvü seçilmək, institut direktoru təyin edilmək ola bilərdi. Birdən-birə nazir kreslosunda oturmaq ən fantastik planlarıma da daxil deyildi. Nə vaxtsa belə bir perspektivin olacağı da qətiyyən ağlıma gəlmirdi.

Doğrudur, 1994-cü ildə diplomatik sahədə çalışmaqla bağlı təklif almışdım. Geri çağırılmış Abbas Abdullanın yerinə İstanbula baş konsul təyin olunmağım gündəlikdə dayanırdı. Hətta dövlət başçısının söhbət üçün məni qəbul edəcəyi gün də bəlli idi. Amma görünür, hansısa “xeyirxah”, yaxud “xeyirxahlar” işə qarışdılar və məsələ gündəlikdən çıxarıldı. İstəsəm də heç nə edə bilməzdim. Sadəcə, çox təəssüfləndim. Ənənəvi “Demək, qismət belə imiş!” düşüncəsi ilə özümə təsəlli verməkdən başqa yolum qalmadı.

Sən demə, tarix özünü təkrar edəcəkmiş. 1999-cu ilin oktyabrında həm Azərbaycanda, həm də işğalçı Ermənistanda ciddi hadisələr baş verdi. Ölkəmizdə xarici işlər naziri, xarici siyasət üzrə dövlət müşaviri və Prezidentin köməkçisi istefaya getdilər. Bunun ardınca isə Ermənistan parlamentində kütləvi terror aktı törədildi. Hər iki ölkədə baş verən hadisələri münaqişənin nizamlanması ilə bağlı hansısa köklü qərarların qəbul edilməsi ilə əlaqələndirirdilər. Proseslərin sonrakı gedişi göstərdi ki, cəmiyyət belə qərarlar üçün hazır deyil.

Özümə gəldikdə isə belə ciddi məsuliyyət yükü daşımağa hazır deyildim. Yəqin ki, yüksək vəzifə təklifi alan insanlar əksərən sevinirlər. Amma oktyabrın 26-da mən sevinməkdən çox, obrazlı desəm, özümü göy qübbəsinin ağırlığı altında əzilən Antey kimi hiss edirdim. Prezident, sanki, ürək-dirək verərək dedi ki, kiminlə işləyəcəyini unutma. Qərarları dövlət başçısı qəbul edir, məsuliyyəti də o daşıyır. Sənin borcun məsul olduğun sahədə tapşırıqların, qərarların vaxtında və dəqiq icrasını təmin etməkdir. Ölkəmizlə, dövlətçiliyimizlə bağlı ən kiçik, ikinci dərəcəli görünə bilən məsələlərdə də dönməzlik və prinsipiallıq göstərməkdir. Ürəksiz davrandığımı görüb dedi ki, rahatca bir kənarda dayanıb tənqid edən, məsləhət verən, yol göstərən kifayət qədərdir. Məsuliyyət payını bölüşmək, xalqa və dövlətə xidmət etmək, kömək göstərmək istəyən isə çox azdır. Əgər özünü ziyalı, vətənpərvər sayırsansa, ikincilərdən olmağa çalış!

Xüsusi təcrübəm, professional hazırlığım olmadan dövlətçilik həyatının və siyasi proseslərin mərkəzinə düşdüm. Təbii ki, belə şəraitdə Heydər Əliyevin məsləhətləri, gündəlik qayğısı və diqqəti, ən əsası isə xeyirxah, səbirli, təmkinli münasibəti olmasaydı, üzləşdiyim çətinliklər qat-qat artardı.

Mən mərhum Prezidentin xeyirxahlığını, diqqətli və həssas münasibətini xüsusi qeyd etmək istərdim. Dövlət işində təzə olmağımı, təcrübəsizliyimi yaddan çıxarmırdı. Bəlkə, elə buna görə də ilk vaxtlarda digər həmkarlarımla müqayisədə səhvlərimə, yanlışlıqlarıma daha təmkinlə, dözümlü yanaşırdı. Hətta adətinin xilafına çıxaraq bəzi qərarları barəsində izahat verirdi.

Hesab edirəm ki, Prezident Heydər Əliyevin rəhbərliyi altında çox mühüm bir dövlət vəzifəsində işlədiyim dörd il ərzində yalnız müəyyən idarəçilik deyil, həm də insanlıq, xalqa və dövlətə məhəbbət, ictimai borca sədaqət məktəbi keçdim. Çünki Heydər Əliyev, sadəcə, dövlət başçısı deyildi, həm də şəksiz lider, ağsaqqal, yolgöstərən idi. Ondan öyrənmək böyük bir şərəf işi idi...

**–Sizin bir çox yazılarınızı oxumuşam və bilirəm ki, güclü hafizəniz var. Nazir işlədiyiniz illərdə Heydər Əliyevin neçə xarici səfərində iştirak etmisiniz və daha çox yadda qalan hansı səfər olub?**

–Şəxsi xarakterli səfərlər nəzərə alınmazsa, vəzifə borcumla əlaqədar dövlət başçısının, demək olar ki, bütün rəsmi və işgüzar səfərlərində onu müşayiət etmişdim. İndi, üzərindən iyirmi ildən çox keçsə də, dövrün xronikasına nəzər salanda, hadisə və şəxsiyyətləri, müzakirə və danışıqları göz önünə gətirəndə görürəm ki, əslində, yadda qalmayan səfər olmayıb. Çünki rəsmi ziyarətlər turist gəzintiləri deyil. Heydər Əliyev hətta protokol xarakterli səfərlərdə də maksimum dərəcədə çox iş görməyə, siyasi və iqtisadi xarakterli görüşlər keçirməyə, predmetli söhbət etmək, konkret təkliflərlə müraciət edən hər bir dövlət adamına, tanınmış ekspertə, mətbuat nümayəndəsinə vaxt ayırmağa çalışırdı.

Eyni zamanda, biz hər dəfə Prezidentin prinsipiallığının, cəsarətinin, dəqiq siyasi qiymətləndirmələrinin, ölkəmizlə bağlı məsələlərdə güzəştsizliyinin, dərin təhlil və ümumiləşdirmə bacarığının şahidi olurduq. Rəsmi ziyafətlərdəki beş-on cümləlik tostları da kağızdan oxuyan bəzi dövlət və hökumət başçılarından fərqli olaraq Heydər Əliyev yüksək natiqlik istedadı, hazırcavablığı, yerinə düşən incə zarafat və yumoru ilə də diqqəti çəkirdi. Tərəddüdsüz demək olar ki, hər bir səfər həm də Prezidenti daha yaxından tanımaq üçün əlavə şans idi.

Əgər çoxsaylı səfərlərdən mütləq hansısa birini fərqləndirmək zərurəti yaransaydı, 2002-ci ilin aprelində Qarabağ münaqişəsinin həlli ilə bağlı həlledici danışıqların aparıldığı Ki-Vest səfəri üzərində dayanardım.

Olduğu bütün ölkələrdə dövlət və hökumət başçıları ilə ünsiyyət zamanı Heydər Əliyev üçün əsas meyar inandığı həqiqətlər, xalqımız və dövlətimiz üçün faydalı və zəruri saydığı məsələlər idi. Həmin cəhətlər Ki-Vest danışıqlarının da məzmun və mahiyyətini təşkil etmişdi. ABŞ Dövlət katibi Kolin Pauell və ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Kondoliza Raysın iştirakı ilə Ermənistan prezidenti Robert Koçaryan və Minsk qrupu həmsədrləri formatında keçirilən görüş dövlətçilik təfəkkürü, siyasi zəka, intellekt mübarizəsi idi. Əslində, Prezident Heydər Əliyev Ki-Vestdə təkbaşına altı nəfərə qarşı dayanmışdı. Ermənistanın mövqeyi bəlli idi. ABŞ rəsmiləri, Minsk qrupu həmsədrləri də erməni tərəfini işğalçı kimi tanımadan Azərbaycandan alacaqları güzəştlər hesabına Qarabağ münaqişəsinin dinc yolla həllinə nail olmağa çalışırdılar. Amma bütün səylərinə baxmayaraq ümidləri doğrulmadı.

Heydər Əliyev isə Ki-Vestdə yalnız işğalçı ölkənin lideri Köçəryana deyil, onun açıq və gizli havadarlarına müraciətlə münaqişənin illərlə həllini tapa bilməməsinin əsas səbəbi kimi işğalçı ilə işğala məruz qalanın bərabər tutulması olduğunu göstərmişdi: “Çətin danışıqlar gedişində Ermənistan tərəfi həmişə qeyri-konstruktiv mövqe tutmuşdur və bu gün də bu mövqedə qalır. Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal etdiyinə və danışıqlarda bu üstünlükdən istifadə etdiyinə görə, biz Ermənistanla razılığa gələ bilmirik. Ermənistan hər vasitə ilə Azərbaycanın ərazisinin bir hissəsini qoparmağa, özünə birləşdirməyə və ya Dağlıq Qarabağ üçün müstəqillik statusuna nail olmağa çalışır”.

Köçaryan bir neçə min kilometr yol keçib Ki-Vestə gəlməkdən məqsədinin siyasi bəyanatlar vermək olmadığını iddia eləsə də, əslində, Azərbaycan Prezidentinin sərt ittihamları qarşısında deməyə sözünün olmadığını göstərdi.

Vaşinqtonda davam edən rəsmi səfər zamanı kiçik Corc Buşla Ağ Evdə iştirakçısı olduğum görüşdə ABŞ-nın 43-cü Prezidenti sonralar etiraf etdiyi kimi “Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və natiqlik istedadına” heyran qaldığını gizlətməmişdi.

– **Vilayət müəllim Xarici İşlər naziri kimi Heydər Əliyevin rəhbərliyi altında işlədiyiniz 4 ilə yaxın müddət ərzində yaddaşınıza yazılan ən gərgin hadisə nə vaxt, harada, hansı şəraitdə baş verib?**

–Xarici İşlər Nazirliyi daimi gərginlik rejimində işləyən dövlət qurumudur. 2001-ci il ABŞ Dövlət Departamentinin hesabatında Azərbaycanın adı terroru qismən dəstəkləyən ölkələr sırasına daxil edilmişdi. Yəqin, ilk baxışdan inandırıcı görünmür. Erməni işğalının, daşnak terrorunun bir çox ağrı-acılarını yaşayan, Bakı metrosundakı partlayışda 300 nəfərdən çox dinc vətəndaşını itirən Azərbaycan terroru hətta qismən də olsa, necə dəstəkləyə bilərdi? Bu mümkün iş idimi? Yersiz ittihamın əsasında nə dayanırdı?

İzah edim. İkinci çeçen müharibəsindən sonra rus ordusunun təqiblərindən xilas olmağa çalışan yüzlərlə çeçen ölkəmizdə müvəqqəti sığınacaq tapmışdı. Əksəriyyəti qadınlar, uşaqlar, qocalar idi. Az sayda yaralılar vardı. Rusiya məsələnin nə yerdə olduğunu bilsə də beynəlxalq müstəvidə Azərbaycana qarşı fəal qaralama siyasəti yürüdürdü. Bakının çeçen döyüşçülərinə yaşamaq, güc toplamaq, qüvvələrini səfərbər etmək üçün şərait yaratdığı iddia olunurdu. Dövlət Departamenti də Rusiyanın həqiqətdən uzaq bəyanatlarına əsaslanaraq bizi terroru qismən dəstəkləyən ölkələrin siyahısına salmışdı.

Doğrusu, haqsızlıq məni hədsiz dərəcədə əsəbiləşdirdi. Düşündüm ki, kim tərəfindən ortaya atılmasından asılı olmayaraq ağ yalana, məqsədyönlü böhtana mütləq cavab verilməlidir. Özüm XİN-in bəyanatını hazırladım. Təbii ki, məsələni dövlət başçısı ilə razılaşdırmaq lazım idi. Amma istər həmin gün, istərsə də sonrakı iki gün ərzində əlaqə yaratmaq mümkün olmadı. Prezidentin telefonu susurdu. Düşündüm ki, vaxt itirmək etirazımızın gücünü və effektivliyini azaldar. Susmağımız, tərəddüd etməyimiz razılıq kimi qəbul oluna bilər. Odur ki, riskə yol verdiyimi bilsəm də bəyanat mətnini KİV-ə göndərdim.

Həmin axşam köməkçi məni axtarıb tapdı. Dövlət başçısının danışmaq istədiyini bildirdi. Prezident çox əsəbi idi. Mühüm yeniliyi Moskvanın “Vremya” xəbərlər proqramından eşitmişdi. İzahatımı dinləmək istəmədi. “Bu dərəcədə məsuliyyətsizlik olmaz, – dedi. – Sabah məsələyə Təhlükəsizlik Şurasının iclasında baxılacaq. Hərəkətinin motivlərini orada izah edərsən”.

Sübhə qədər gözümə yuxu getmədi. Çox narahat idim. Təbii ki, işdən çıxarılma qorxusuna görə yox! Əslində, bu yüngül cəza olardı. Prezidentin etimadını doğrulda bilməməyim, çox ciddi məsələdə hissə qapılaraq onu çətin vəziyyətə salmağım, məqsədin nəcibliyindən asılı olmayaraq dövlətçilik prinsipləri baxımından tələsik qərar verməyim mənə çox ağır gəlirdi.

Ertəsi gün Prezident izahatıma səbirlə qulaq asdı. İştirakçıların hər birinin fikri ilə maraqlandı. Təbii ki, həmkarlarım necə qərar veriləcəyini bilmədikləri üçün bacardıqları qədər neytral mövqe tutmağa çalışırdılar. Təcrübəsizliyimi önə sürür, düzgün hərəkət etmədiyimi, özbaşınalığa və səhvə yol verdiyimi deyirdilər. Prezident hamını dinləyəndən sonra üzünü mənə tutdu:

–Yaxşı, deyirsən ki, axtarmısan, tapa bilməmisən. Necə oldu, mən boyda adam ölkədən yoxa çıxdı, heç kimin xəbəri olmadı? Yəqin ki, bir-iki dəfə bura zəng vurmusan, sonra da öz bildiyini eləmisən. Məni tapa bilmirdin, köməkçiyə deyəydin ki, son dərəcə vacib məsələ ilə bağlı Prezidenti axtarıram. Tez ol, yerini de! Zəng vuraydın Vaqif Axundova, Bəylər Eyyubova, Yura Kamayevə. Nədən ötrü axtardığını desən, onlar sənə bir xəbər verərdilər. Götürüb zəng vuraydın komendaturaya. Amma sən bunların heç birini eləməmisən. Bu hərəkətinin adı məsuliyyətsizlikdir, özbaşınalıqdır. Səndən əvvəl də xarici işlər naziri vardı. Həsən Həsənov. Məni bu otaqda rahat oturmağa qoymurdu. Gündə azı otuz dəfə zəng vururdu. Ən xırda məsələləri də məsləhətləşirdi. Amma sən qərarı da özün verirsən, özün də yerinə yetirirsən. Mən də iş işdən keçəndən sonra xəbər tuturam. Belə olmaz! Belə işləmək olmaz! Sənə ciddi xəbərdarlıq edirəm...

Başımı qaldırıb ətrafa baxdım. Ortalıqda gərgin atmosfer vardı. Çoxları üzlərinə sərt, bir az da narazı ifadə vermişdilər. Təbii, narazılıq məndən idi.

Prezident bir anlıq sükuta getdi. Sonra uca səslə:

– Vilayət Quliyev, – dedi, – və uzun pauza verdi. Bilmirəm, bəlkə də, həmin anlarda otaqda olanların bəziləri “Bunun da kitabı belə bağlandı” –deyə düşünürdü. Və bir an sonra Heydər Əliyev, yəqin, heç kəsin gözləmədiyi qərarla sözünə yekun vurdu: – Düzgün hərəkət eləyib. Bəli, mütləq Dövlət Departamentinin ittiham xarakterli hesabatına etirazımızı bildirməli idik. Ermənistan 20 faiz ərazimizi işğal edib, indiyə qədər onlarla qanlı terror aktı törədib. Yüzlərlə vətəndaşımız qətlə yetirilib. Amma heç bir dövlət, heç bir beynəlxalq təşkilat onu terrorçuluqda, terroru dəstəkləməkdə ittiham etmir. Bizim humanist, insanpərvər hərəkətimizin adını isə tez-tələsik “terroru dəstəkləmək” qoyurlar. Belə prinsipial məsələlərdə mütləq mövqeyimizi bildirməliyik, sözümüzü deməliyik. Bəyanatın mətni də ümumən pis tərtib olunmayıb. Amma xarici işlər nazirinin ən ciddi səhvi odur ki, mənimlə məsləhətləşməyib. Əgər belə etmiş olsaydı, təşəkkür alardı. İndi isə ciddi xəbərdarlıqla kifayətlənirəm.

Salondan çıxanda xüsusi bir əsas olmasa da, hamı təbrik eləyirdi. Mən isə həyatım boyu unutmayacağım bir dərs almışdım. Bir daha inanmışdım ki, Heydər Əliyevin ən sərt irad və tənbehinin də arxasında ədalət hissi dayanır.

Bu şəxsi xarakterli gərginlikdir. Bir millət, dövlət olaraq ən böyük gərginlik və sarsıntını isə 2003-cü il aprelin 21-də keçmiş Respublika (indiki Heydər Əliyev) sarayında yaşadıq. Həmin gün burada Cəmşid Naxçıvanski adına hərbi liseyin təsis olunmasının 30 illiyi ilə bağlı təntənəli tədbir keçirilirdi. Prezident gənc kursantlar qarşısında çıxış edirdi. Yüzlərlə hərbi uniformalı yeniyetmənin oturduğu salonda xoş və təntənəli bir aura vardı. Heç nə fəlakətdən xəbər vermirdi. Amma birdən-birə gözlərimiz önündə sonu qələbə ilə başa çatan möhtəşəm bir insan dramı yaşandı. Heydər Əliyev səhhətində son dərəcə ciddi problem yaranmasına baxmayaraq böyük iradi qüvvə hesabına ikinci dəfə səhnəyə qayıtdı. Nitqini bitirib sarayı alqışlar altında, qalib sərkərdə kimi tərk etdi. Əslində, başqa sonluq təsəvvürə gətirmək də mümkün deyildi.

**Söhbəti qələmə aldı:
İlqar RÜSTƏMOV,
“Xalq qəzeti”**

# İdeyaların zəfəri

### Şəxsiyyətin ucalığı

Ulu öndərin 100 illik ömür tarixinə müxtəlif səmtlərdən nəzər salmaq olar. Heydər Əliyev, ilk növbədə ömrünü xalqının şərəf tarixinə çevirmiş uca şəxsiyyətdir. Əsl şəxsiyyətlər bütün dövrlərdə ali ideyaları reallaşdırmaq qüdrəti, toplumun mənəvi enerjisini bir araya gətirmək qabiliyyəti ilə xalqların, dövlətlərin inkişafı tarixində çox mühüm rol oynayırlar. Zəmanəsinin və əslində, bütün zamanların ən parlaq liderlərindən biri olan Heydər Əliyev də Azərbaycanın böyük bir inkişaf tarixinin müəllifidir.

Çox mürəkkəb tarixi şəraitlərdə, çətin şərtlər altında Heydər Əliyev xalqımızı milli dövlətçilik ideyaları ətrafında birləşdirərək addım-addım Azərbaycan kimi müstəqil dövləti qurub yaratmışdır. Bu baxımdan bir çox böyük şəxsiyyətlərimizin əsrlər boyu xidmət etdikləri missiya, arzusunda olduqları ideya Heydər Əliyev şəxsiyyətində yeni bir dəyər qazanır. Bu ideya müstəqil Azərbaycan dövlətinə və dövlətimizin gələcək uğur yoluna çevrilir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində, müstəqilliyimizin ilk illərindəki xaos, anarxiya, sosial-iqtisadi böhran mühitində parçalanaraq dünya xəritəsindən silinmək təhlükəsi ilə üzləşən, kövrək əsaslara malik zəif bir ölkəni qısa zaman ərzində Cənubi Qafqaz regionunun ən qüdrətli ölkəsinə çevirmək o qədər də asan başa gəlməmişdir. Ümummilli lider buna illərin gərgin zəhməti, bütün çətinliklər, dörd bir yandan üzərinə yönələn təzyiq və təhdidlər qarşısında yenə də sarsılmayan qətiyyəti sayəsində nail olmuşdur.

Heydər Əliyev təkcə müstəqil dövləti qurub-yaratmamışdır, eyni zamanda, Azərbaycan insanında milli dövlətçilik təfəkkürü, vətəndaşlıq məsuliyyəti formalaşdırmışdır. Bununla Azərbaycanın gələcəyini də yaratmış, müəyyənləşdirdiyi strateji inkişaf kursu ilə ölkəmizin aydın, rəvan gələcəyinə yol açmışdır.

### İntibah dövrü

Tale elə gətirib ki, ümummilli lider Heydər Əliyev mahiyyətcə bir-birinə az bənzəyən iki tarixi dövrdə Azərbaycana rəhbərlik edib. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul tarixli plenumunun qərarı ilə 46 yaşlı Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçildiyi dövr tamam başqa dövr idi. Bütün keçmiş İttifaq respublikaları üçün vahid mərkəzdən idarə olunan ümumi qaydalar vardı və respublikanın inkişafı ilə bağlı istənilən addımı mərkəzlə razılaşdırmaq, saysız-hesabsız bürokratik maneələrdən keçmək lazım gəlirdi. Bununla belə, Heydər Əliyev özünəməxsus səbir və təmkinlə bu maneələri adlayırdı. Azərbaycanın inkişafı üçün addımları ardıcıl şəkildə davam etdirir, niyyətlərindən vaz keçmirdi. Milli ideyalarla birgə bu səbri, təmkini, ardıcıllığı, dayanıqlılığı, məqsədyönlülüyü Heydər Əliyev hələ yaşının erkən çağlarından mənimsəmiş, sonralar isə xüsusi xidmət orqanlarından gələn peşə vərdişləri ilə bu məziyyətləri daha da mükəmməlləşdirmişdi.

Əslində, Heydər Əliyevi bu vəzifəyə də elə zəkasının gücünü, peşəkarlığını, enerjisini, prinsipiallığını və insan kimi yüksək mənəvi-əxlaqi keyfiyyətlərini nəzərə alaraq təyin etmişdilər. O dövrdə Azərbaycanda vəziyyət o qədər də ürəkaçan deyildi. Ölkə sosial-iqtisadi inkişaf göstəricilərinə görə digər müttəfiq respublikalardan xeyli geridə qalırdı. Bütün sahələrdə tənəzzül meyilləri özünü hiss etdirirdi. Bu baxımdan, ulu öndərin Azərbaycan rəhbərliyinə gəldiyi dövr ölkə həyatının yetərincə çətin və mürəkkəb dövrü sayıla bilərdi. Ölkəni bu vəziyyətdən çıxarmaq, inkişaf proseslərinin önünə doğru yönəltmək üçün zamanın sürətinə uyğun məqsədyönlü tədbirlər həyata keçirilməli idi.

Sovet rejiminin bütün xüsusiyyətlərinə, iş prinsiplərinə dərindən bələd olan, zəngin idarəçilik təcrübəsinə malik Heydər Əliyev mövcud vəziyyəti dəyişmək üçün elə ilk günlərdən qəti addımlara başladı. Özünəməxsus dahiyanə uzaqgörənliklə Azərbaycanın uzunmüddətli, dinamik və hərtərəfli tərəqqisini təmin edəcək kompleks inkişaf proqramlarının hazırlanmasına, bu proqramların qəbul edilməsinə və icrasına nail oldu. Görülən işlərin müsbət nəticəsi kimi bütün önəmli sahələrdə vəziyyət yaxşılığa doğru dəyişdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri baş verdi. İstehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi Azərbaycanın bütün SSRİ-də qabaqcıl mövqelərə çıxmasına, respublikanın sosial-iqtisadi həyatında yüksəlişə rəvac verdi.



**2023 xalqımızın və dövlətimizin həyatında xüsusi əlamətdarlıq daşıyan ildir. Bu ilin 10 mayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamamlanır. Bu tarix Heydər Əliyev irsinin öyrənilməsi və həmin zəngin irsdən faydalanmaq baxımından çox önəmlidir.**

### Ədaləti qoruyan şəxsiyyət

1980-ci illərin əvvəllərində ali məktəbə, uşaqlıqdan arzusunda olduğum hüquqşünas ixtisasına qəbul oluna bildiyimə görə məni böyüdüb boya-başa çatdırmış valideynlərimə, əziz müəllimlərimə, qarşıma çıxmış bütün xeyirxah insanlara və ulu öndər Heydər Əliyevə borcluyam. Heydər Əliyev o illərdə bilikdən başqa güvənc yeri olmayan sadə, imkansız ailələrin övladlarına dəstək verdi. Ali məktəblərin ən nüfuzlu ixtisaslarının qapılarını onların üzünə açdı. Biliyi, istedadı inkişaf üçün əsas meyara çevirdi. O dövrə qədər ali məktəblərdə konkret ixtisaslar vardı ki, onların ancaq imkanlı adamların, məqam sahiblərinin övladları üçün olduğu, cəmiyyətdə sanki norma kimi qəbul edilirdi. Hər kəs bu vəziyyətlə barışmışdı. Konstitusiyada, qanunlarda, guya, hamı bərabər hüquqlara malik idi.

Sovet ideologiyası bərabərlikdən gecə-gündüz dəm vursa da, reallığa gələndə bir çox imkanlar məhdud qruplar üçün əlçatan idi. Heydər Əliyev bu reallığı kökündən dəyişdi. Bu millətin bütün istedadlı övladlarına sahib çıxdı. Yaşının erkən çağlarından valideynləri ilə birgə tarlada çalışıb alın təri tökən, bununla yanaşı, dərs kitablarını da əlindən yerə qoymayan kolxozçu, fəhlə balaları da yüksək bilik hesabına öz ideallarına qovuşmaq üçün imkan qazandılar. Savadsız varlıların övladlarının tələbə adı qazanmaq imkanları məhdudlaşdı. Cəmiyyətdə haqq-ədalət öz yerini tutmağa başladı. Prinsiplərindən uzaq düşmüş sovet sisteminin ədalətsizliklərinə adət etmiş Azərbaycan insanı üçün sanki nağıllar gerçəyə çevrilirdi.

Xatirimdədir ki, ümummilli liderin ötən əsrin 70-ci illərində "Literaturnaya qazeta"ya verdiyi məşhur "Qoy ədalət zəfər çalsın!" sərlövhəli müsahibəsi, əsl partlayış effekti yaratmışdı. Heydər Əliyevin cəmiyyətdəki ədalətsizliklərə, hüquq-mühafizə orqanlarındakı nöqsanlara, ən başlıcası, vətəndaşların hüquq və azadlıqlarının təminatı sahəsində mövcud olan problemlərə diqqət yönəldən, onların həll yollarını göstərən bu müsahibəsi geniş müzakirə edilirdi. İnsanlar onları çoxdan narahat edən problemlərin bu qədər yüksək səviyyədə cəsarətlə, qətiyyətlə, çəkinmədən dilə gətirilməsindən məmnunluq duyurdular. Ümid edirdilər ki, qaldırılan məsələlər tezliklə həllini tapacaq. Bu problemlərin yaranmasında iştirak payı olanların, ulu öndərin qaldırdığı nöqsanlara görə məsuliyyət daşıyanların isə təşviş dolu günləri başlamışdı. Müsahibədə qaldırılan məsələlər o qədər geniş miqyaslı idi ki, hətta xarici mətbuat da bu məzmuna böyük yer ayırmışdı.

İllər sonra Heydər Əliyev "Literaturnaya qazeta"ya məşhur müsahibəsinə reaksiyaları belə xatırlayırdı: "Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmağıma baxmayaraq, mən həmin müsahibədə sovet hakimiyyətinin, cəmiyyətinin işində olan mənfi halların hamısını açıq göstərmişdim. Xatirimdədir, o vaxt Andropov SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, həm də Siyasi Büronun üzvü idi. O, bir neçə gündən sonra mənə telefon etdi. Dedi ki, sənin bu müsahibən böyük bir sensasiya yaradıbdır. Soruşdum ki, nə mənada? Cavab verdi ki, müsbət də var, mənfi də var. Soruşuram ki, nəyi müsbətdir, nəyi mənfi? Deyir, müsbət odur ki, insanlar bizim cəmiyyətdəki bu yaraları görürlər və sevinirlər ki, kimsə cəsarət edib bunları açıq deyir. Özü də bunu aşağıda yox, ən yüksək vəzifədə çalışan bir adam deyir. Amma bunun əleyhinə olanlar da var. Soruşuram ki, niyə? Bildirir ki, çünki onlar bunun açılmağını istəmirlər. O vaxt bir çox belə yazılar olub".

### İnsan kapitalı

Heydər Əliyev yüksək iradəsi, qətiyyəti, hamıya örnək olan yorulmaz fəaliyyəti, ən mühümü isə Vətənə sevgisi ilə Azərbaycanı keçmiş İttifaqın geridə qalmış aqrar respublikasından qabaqcıl sənaye ölkəsinə çevirdi. O dövrdə bütün dünyada sənayeləşmə prosesləri geniş vüsət almışdı. Elmi-texniki inqilab, demək olar ki, möcüzələr yaradırdı. Ölkələr, cəmiyyətlər bunun nailiyyətlərindən bəhrələnmək üçün ardıcıl addımlar atırdılar. Bu addımların ən mühümü isə təbii ki, yenilikləri ölkəyə gətirib, həyatın müxtəlif sahələrində tətbiq etməyə qabil kadrların yetişdirilməsi idi. Azərbaycanda o dövr üçün nadir sayılan ixtisaslar üzrə kadrların azlığını nəzərə alaraq, Heydər Əliyev özünün aktiv təhsil və kadr konsepsiyasını irəli sürdü.

Həmin dövrdə minlərlə gənc respublika üçün xüsusilə gərəkli, nadir ixtisaslar üzrə təhsil almaqdan ötrü keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərinə – Moskvaya, Leninqrada, Kiyevə, Xarkova, Minskə, Voronejə göndərildi. Bu, xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən vacib ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması, iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsinin genişləndirilməsi, hərbi təhsilin inkişafına diqqət bunun təzahürü idi. Azərbaycana birinci rəhbərliyi dövründə ulu öndərin şəxsi təşəbbüskarlığı, qətiyyəti və iradəsi sayəsində ölkə üzrə 700-dən artıq məktəb binası tikilərək istifadəyə verildi. Bu illərdə respublikada ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə, bu təhsil ocaqlarında oxuyan tələbələrin sayı isə 70 mindən 100 minə çatdı.

O dövrdə SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından ciddi narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüş, Bakıda milli hərbi kadrlar hazırlayan Cəmşid Naxçıvanski adına məktəb fəaliyyətə başlamışdı. Bütün bunlar Heydər Əliyevin müstəqil Azərbaycan dövləti üçün möhkəm təməllər formalaşdıran müdrik addımları idi.

Məhz o illərdə Azərbaycanı başdan-başa əhatə edən zəngin sosial infrastruktur formalaşdırıldı. Böyük sənaye müəssisələri tikilərək istifadəyə verildi, əhalinin mənzillərlə təmin olunduğu üçün böyük yaşayış massivləri inşa olundu. Sənayedə, kənd təsərrüfatında mütərəqqi texnologiyaların tətbiqi sayəsində Azərbaycan böyük sosial-iqtisadi nailiyyətlər qazandı və bu nailiyyətlər əhalinin güzəranında da hiss olunmağa başladı.

### Vətənə dönüş

Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi illərdə elmimiz, mədəniyyətimiz də böyük bir intibah mərhələsindən keçdi, ana dilimizin qorunması və inkişafı yönündə tarixi addımlar atıldı. O, doğma xalqına, millətinə yüksək diqqət və qayğısını keçmiş SSRİ-nin ali rəhbərlərindən biri kimi Moskvada çalışdığı illərdə də davam etdirirdi. Həmin illərdə Mərkəzdən Azərbaycana ayrılan vəsaitlərin həcmi dəfələrlə artırılmış, respublikada aparılan quruculuq işlərinə daha münbit zəmin yaradılmışdı. O, bu vəzifədə təkcə Azərbaycan xalqının himayədarı deyildi. Heydər Əliyev keçmiş SSRİ məkanında bu pilləyə yüksəlmiş yeganə türk-müsəlman lideri idi. Onun varlığı Azərbaycan və ümumən türk-müsəlman xalqlarının mövqelərini yüksəldirdi. Bu xalqlara qarşı yönələn təhdidlərin qarşısını alır, onların inkişafına yol açırdı.

Təsadüfi deyil ki, ötən əsrin sonlarına doğru Azərbaycan xalqının ən böyük bəlaları da Heydər Əliyev şəxsiyyətinin üstünlüyünü, zəkasının gücünü, insanların lider kimi ona sevgi və rəğbətini sinirə bilməyən M.S.Qorbaçov və ətrafının məkrli münasibəti nəticəsində ümummilli lider istefaya göndərildikdən sonra başlandı. 1987-ci ildə Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini və Sov.İKP MK Siyasi Bürosunun üzvü vəzifəsindən istefaya göndərildi. Bundan cəmi 15 gün sonra ermənilər Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı açıq hərəkətə keçdilər. Azərbaycanın ovaxtkı rəhbərliyinin isə Mərkəzə yarınmaq üçün yürütdüyü antimilli siyasət, göstərdiyi qətiyyətsizlik respublikadaxili ictimai-siyasi sabitliyi son dərəcə kəskinləşdirirdi.

Bu siyasətin məntiqi nəticəsi olan 1990-cı ilin 20 Yanvar hadisəsi bütün dünyaya sübut etdi ki, sovet rəhbərliyi və onun yerlərdəki əlaltıları Azərbaycan xalqına, dövlətinə qarşı ən ağır cinayətlər törətməkdən belə çəkinmirlər. Bu faciənin ertəsi günü Heydər Əliyev bütün təhdidlərə, hətta həyatına qarşı sui-qəsd təhlükəsinə baxmayaraq ailə üzvləri ilə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlib burada təşkil olunmuş mitinqə qatıldı. Faciənin miqyasından nə edəcəyini bilməyən toplumun önünə düşdü. Keçirdiyi mətbuat konfransı ilə bu qanlı hadisənin əsl səbəbkarlarını bütün dünyanın gözləri önündə ifşa etdi.

Xalqın o ağır günlərində Heydər Əliyev Vətənə qayıtdı və onun Azərbaycana dönüşü hadisələrin gözlənilməzliyindən çarəsiz durumda qalmış insanlara xilas kimi göründü. Ulu öndər blokada şəraitində qalan, respublikanın ovaxtkı rəhbərliyinin də soyuq münasibəti üzündən çox çətin vəziyyətlə üzləşmiş Naxçıvanda məskunlaşaraq orada yaşamağa başladı. Qısa müddətdən sonra insanların istəyi və yekdil qərarı ilə Naxçıvan Ali Məclisinin Sədri seçilən Heydər Əliyevin bu məkanda apardığı islahatlar böyük nəticələr verdi. Azərbaycanın gerçək müstəqilliyinə doğru ilk real addımlar da elə Naxçıvan Muxtar Respublikasında atıldı.

### Xilaskar

Onda müstəqilliyini yenicə qazanmış Azərbaycan tarixinin, demək olar ki, ən ağır günlərini yaşayırdı. Tez-tez dəyişən səriştəsiz hakimiyyət respublika həyatının bütün sahələrində dözülməz şərait yaratmışdı. Quduzlaşan ermənilər Azərbaycana qarşı ərazi iddialarını artıq bir neçə il idi ki, silah gücünə həyata keçirirdilər. Rayon və kəndlərimiz bir-birinin ardınca işğal olunurdu. Ölkə ağır sosial-iqtisadi böhranla üzləşmiş, cəmiyyət, demək olar ki, başını itirmişdi. İnsanlar bir parça çörəyin dərdində idilər.

Azərbaycanın müxtəlif bölgələrində xarici qüvvələrin təhriki ilə separatizm meyilləri baş qaldırırdı. Vəziyyət bu şəkildə davam edəcəyi təqdirdə respublikanın parçalanması labüd görünürdü. İnsanlar müstəqilliyə, ölkənin suveren dövlət kimi gələcəyinə ümidlərini itirmişdilər. Kiçicik bir təsadüf kifayət edərdi ki, Azərbaycan dünyanın siyasi xəritəsindən tamamilə silinsin. Belə bir vaxtda Heydər Əliyevin xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışı, təcrübəli strateq kimi, dövlətçilik sükanı arxasına keçməsi Azərbaycanı bu bəlalardan hifz etdi.

Heydər Əliyev ölkədə vətəndaş qarşıdurmasına son qoydu, xaosun, anarxiyanın qarşısını aldı. Cəmiyyətdə milli birliyi təmin etdi. Azərbaycanın müstəqilliyini gözü götürməyən xarici qüvvələrin əli ilə ölkənin müxtəlif bölgələrində alovlandırılan separatizm ocaqlarını söndürdü. Azərbaycan insanının istiqlal, milli dövlətçilik ümidlərini özünə qaytardı və həmin insanlarla birgə arzuladıqları o dövləti qurub yaratmağa başladı. 1994-cü ildə dünyanın əsas transmilli neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" ilə ölkənin iqtisadi inkişafı üçün mühüm təməl formalaşdırdı. Bununla ümumən regionun mənzərəsini dəyişdi, Azərbaycana qlobal proseslərin əsas iştirakçılarından biri statusunu qazandırdı.

Heydər Əliyev 1995-ci ildə özünün rəhbərliyi ilə layihəsi hazırlanaraq qəbul olunan müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ilə demokratik, hüquqi dövlət quruculuğu proseslərinin, ölkəmizin gələcək inkişafının əsas istiqamətlərini müəyyənləşdirdi. Liberal iqtisadiyyat və sivil cəmiyyət quruculuğu yolunda ardıcıl addımlar atdı.

Ölkədə azad bazar iqtisadiyyatı prinsipləri öz yerini tutdu, vətəndaş cəmiyyəti formalaşdı, ifadə azadlığı təmin edildi. Azərbaycan dünyanın aparıcı təşkilatlarına üzv qəbul olundu. İllər keçdikcə ölkəmizin beynəlxalq nüfuzu yüksəlməyə başladı. Ulu öndər Azərbaycanda elə bir siyasi kursun əsasını qoydu ki, bu kurs Azərbaycan durduqca ölkəmizin dövlətçilik konsepsiyası kimi daim yaşayacaq. Heydər Əliyev ideyalarının davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirərək müstəqil dövlətimiz tarixinin ən qüdrətli mərhələsinə gətirib çıxardığı inkişaf kursunun uğurları bunun təsdiqidir.

### Regionun inkişaf nəbzi Azərbaycanda döyünür

Vətən müharibəsindəki qələbəmizdən sonra bu gün regionda yeni reallıqlar yaradan Azərbaycanın qlobal miqyasdakı yeri və rolu, ölkəmizin beynəlxalq proseslərə təsir imkanları, sosial-iqtisadi nailiyyətlərimiz, şəhər və kəndlərimizin yenilənən siması, insanlarımızın getdikcə daha da yaxşılaşan güzəranı, cəmiyyətdə baş verən müsbət dəyişikliklər ulu öndər Heydər Əliyevin gerçəkləşən arzularıdır. Bu gün Azərbaycan Qoşulmama Hərəkatının sədri, Türk Dövlətləri Təşkilatının ən fəal təmsilçilərindən, bir sıra beynəlxalq təşkilatların nüfuzlu üzvlərindən biri kimi qlobal təşəbbüsləri ilə beynəlxalq proseslərə əhəmiyyətli şəkildə təsir göstərir.

Azərbaycan bu gün Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarındandır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin gələcəyə strateji baxışı, məqsədyönlü qərarları, qətiyyətli addımları sayəsində bu gün ölkəmiz qlobal enerji-kommunikasiya mərkəzinə çevrilib. Böyük bir regionun inkişaf nəbzi Azərbaycanda döyünür. Etibarlı tərəfdaş kimi Azərbaycan beynəlxalq nüfuzu getdikcə daha da güclənir. Prezident İlham Əliyev Şərqlə Qərb arasındakı münasibətlər sistemində ölkəmizin özünəməxsus yerini daha da möhkəmləndirir. Dövlət rəhbərimizin yürütdüyü siyasət və bu siyasətə dəstək olaraq Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən humanitar layihələr Azərbaycanı bütün dünyada mədəniyyətlərarası dialoq, tolerantlıq, multikulturalizm məkanı kimi tanıdır.

Bütün bunlar Heydər Əliyev ideyalarının tarixdəki qalibiyyətidir və nə qədər ki, Azərbaycan var, bu ideyalar da yaşayacaqdır.

***Alış QASIMOV,***
***Bakı Dövlət Universitetinin hüquq fakültəsinin əmək və ekologiya hüququ kafedrasının müdiri, hüquq elmləri doktoru, professor***

# 20 ildə iqtisadiyyata investisiya qoyuluşu 4 dəfə artıb



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov "Böyük Avrasiyanın geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda keçirilən beynəlxaq konfransda son 20 il ərzində Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların 4 dəfə artdığını bildirib. Dövlət rəsmisi daha sonra Dövlət Neft Fondunun 270 milyon dollardan 50 milyard dollara çatan vəsait əldə etməsini böyük uğur adlandıraraq, respublikada ÜDM-in son 20 il ərzində 3,6 dəfə artdığını, bu müddətdə iqtisadiyyata investisiya qoyuluşunun dörd dəfə yüksəldiyini vurğulayıb. Ş.Mövsümov Azərbaycanın enerji sektoruna xarici investisiyaların cəlbinin ulu öndər Heydər Əliyevin milli neft strategiyasının bir hissəsi olduğunu qeyd edib.**

O deyib ki, milli neft strategiyası üç əsas prinsipə əsaslanıb. "Ümummilli lider Heydər Əliyev Azərbaycan rəhbərliyinə qayıtdıqda ölkədə çox mürəkkəb iqtisadi və siyasi vəziyyət mövcud idi və çıxış yolu isə milli neft strategiyasının yaradılması oldu", – o deyib.

Şahmar Mövsümovun sözlərinə görə, birincisi, bu strategiyaya əsasən, Azərbaycanda neft sənayesinin inkişafına xarici investisiyalar cəlb etmək zəruri vəzifə idi. Daha sonra isə ölkədə hasil olunan neft və qazı xarici bazara çıxarmağa, nəqli üçün isə boru kəmərlərinin yaradılmasını ciddi ehtiyac yaranmışdı. Üçüncüsü, Dövlət Neft Fondunun yaradılması məqsədilə digər ölkələrin təcrübəsindən yararlanmağa ehtiyac duyulurdu. Belə ölkələrdən biri də Norveç oldu. Fond ölkə hələ neftdən gəlirlər əldə etməyə başlamazdan əvvəl yaradıldı. Göründüyü kimi, bütün bu proseslər respublikada investisiya qoyuluşuna əlverişli şərait yaradılması ilə paralel həyata keçirilirdi.

Ümumiyyətlə, Azərbaycana investisiya qoyuluşuna marağın getdikcə artması, həm də ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə bağlıdır. Bununla bərabər, respublika hökuməti tərəfindən həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində ölkədə güclü iqtisadi potensial mövcuddur. Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. Eyni zamanda, Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirir. Ölkəmizin təşəbbüskarı olduğu transmilli layihələr bu gün Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Beləliklə, hökumət ölkədə investisiya fəaliyyətinin genişləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, sənaye istehsalının artırılmasına, qeyri-neft sektorunun inkişaf etdirilməsinə ciddi önəm verir. Bu istiqamətdə qarşıya qoyulan əsas hədəflər sərmayə qoyuluşlarının artırılması, sahibkarların ixrac potensialının gücləndirilməsi, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsidir.

Azərbaycanın dünya miqyasında sabit iqtisadiyyata malik dövlət kimi tanınması, beynəlxalq birliyin etibarlı tərəfdaşı olması ölkəmizə investisiya axınını şərtləndirib. Bu məsələdə hökumət tərəfindən "açıq qapı" siyasətinin reallaşdırılması da stimullaşdırıcı rol oynayıb. Bu, öz ifadəsini investorların hüquq və mənafelərinin qorunmasında, mülkiyyətin toxunulmazlığında, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılmasında daha qabarıq büruzə verib.

Xatırladaq ki, Azərbaycana xarici investisiya qoyuluşunu sürətləndirmək üçün bir sıra tədbirlər həyata keçirilib. Belə ki, son illərdə investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi və gömrük islahatları davam etdirilib, onlayn vahid ixrac ərizəsi, "Yaşıl dəhliz", elektron məhkəmə, elektron satınalma, tikintidə "bir pəncərə", biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm tədbirlər həyata keçirilib.

Xatırladaq ki, ötən il iyulun 27-də dövlət başçısı "İnvestisiya fəaliyyəti haqqında" qanunun tətbiqi barədə fərman imzalayıb. Qeyd edək ki, bu qanun Prezident İlham Əliyevin "İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamında "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyanın qorunması haqqında" qanunların əsasında yeni "İnvestisiya fəaliyyəti haqqında" qanun layihəsinin yaradılması barədə göstərişinə uyğun hazırlanıb.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*

### *Ekspert rəyi*

**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**



Sərmayənin cəlb edilməsi hər bir ölkə üçün çox önəmli məsələdir. Hazırda bütün dünyada investisiyalar uğrunda ciddi mübarizə gedir. Ayrı-ayrı ölkələr milli iqtisadiyyatlarının inkişafı, infrastruktur quruculuğu, hətta sosial məsələlərin həlli üçün nəzərdə tutulan layihələrin icrasına maliyyə vəsaitləri cəlb etməkdən ötrü Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Beynəlxalq Valyuta Fonduna və digər qurumlara çoxsaylı müraciətlər edirlər. Azərbaycanın nümunəsində isə biz tamam fərqli mənzərənin şahidi oluruq.

Son 20 ildə ölkəmiz, milli iqtisadiyyatımız investisiya cəlbediciliyi baxımından hər hansı bir çətinliklə üzləşməyib və müxtəlif layihələrin maliyyə təminatı yüksək səviyyədə öz həllini tapıb. Azərbaycanda çox gözəl sərmayə iqlimi yaradılıb. Bu, həm neft-qaz, həm də qeyri-neft-qaz layihələrinin icrasında öz ifadəsini tapıb. , Təsadüfi deyil ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerə layiq görülüb. Bu, dünya miqyasında çox böyük nailiyyətdir. Biz bir çox inkişaf etmiş ölkələri bu parametrlər üzrə qabaqlamışıq. Yəni, gözəl investisiya iqlimi investorları cəlb etmək üçün əlbəttə ki, əsas şərtlərdən biridir.

Hazırda dünyada yaşanan narahatlıqlar fonunda Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik olması ölkəmizin müsbət reallıqları ilə bağlıdır. Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev respublikamızın investisiya cəlbediciliyinin davamlı şəkildə artmasına qətiyyətli siyasi iradə nümayiş etdirir.

Son 20 ildə respublikamızın investisiya cəlbediciliyinin artmasına hesablanan güclü hüquqi bazanın yaradılması və praktiki müstəvidə ardıcıl tədbirlərin görülməsi deyilənləri əyani şəkildə təsdiqləyir. Ölkəmizdə yeni şəraitdə reallaşdırılan islahat tədbirləri sırasında investisiyaların səmərəli təşviqi mexanizminin işə salınması böyük əhəmiyyət daşıyır.

**Türkiyənin cənub-şərqində kəşf edilən yeni neft yatağının potensialı 1 milyard barel səviyyəsində qiymətləndirilir.**

## Türkiyədə yeni neft yatağının ehtiyatları 1 milyard bareldir



Bu barədə "CNN Türk" telekanalının efirində Türkiyənin mill neft şirkətinin (TPAO) rəhbəri Melih Xan Bilgin bildirib. Onun sözlərinə görə, kəşf olunan yatağın ehtiyatlarının dəyəri 0-80 milyard dollar civarında qiymətləndirilir, bu da Türkiyə iqtisadiyyatına ildə 3-3,5 milyard dollar töhfə deməkdir.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ötən çərşənbə axşamı Şirnak vilayətinin Qabar dağ silsiləsi bölgəsində neft yatağının aşkar edildiyini açıqlayıb. Onun sözlərinə görə, yüksək keyfiyyətli neft 2,6 km dərinlikdə aşkar edilib, yatağın gündəlik hasilat gücü 100 min bareldir.

*"Xalq qəzeti"*

## Azərbaycanın AÇG və "Şahdəniz" yataqları üzrə gəlirləri açıqlanıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) 2023-cü ilin ilk 4 ayı ərzində "Azəri-Çıraq-Günəşli" yataqlar bloku və "Şahdəniz" yatağı üzrə gəlirlərini açıqlayıb.**

ARDNF-dən verilən məlumata görə, AÇG yatağından cari ilin əvvəlindən mayın 1-dək "Azəri-Çıraq-Günəşli" layihəsindən 2 milyard 468 milyon ABŞ dolları gəlir əldə olunub. Hesabat dövründə ARDNF-nin "Şahdəniz" layihəsindən (qaz və kondensat) əldə etdiyi gəlir isə 935 milyon 754 min ABŞ dolları təşkil edib. Bunun da 197 milyon 763 min dolları "Şahdəniz" yatağından çıxarılan kondensatın satışından əldə olunub.

*"Xalq qəzeti"*

**Mərkəzi Bankın məlumatına görə, mart ayında illik inflyasiya 13,6 faiz təşkil edib. Bu, ötən ilin sentyabr ayında qeydə alınmış pik səviyyə ilə müqayisədə 2 faiz aşağıdır.**

## Mart ayında inflyasiya azalıb

Məlumatda bildirilir ki, qlobal iqtisadi aktivliyin azalmasının, əksər ölkələrdə pul siyasətinin sərtləşdirilməsinin və dünya əmtəə qiymətlərində aşağı düşmə meyilinin təsiri ilə əsas ticarət tərəfdaşlarında faktiki inflyasiya nisbətən səngiyib.

Stimullaşdırıcı fiskal siyasət və ölkənin xarici valyuta daxilolmalarının artması şəraitində məcmu tələb genişlənir və qeyri-neft sektorunda iqtisadi artım yüksək olaraq qalır. Cari ilin əvvəlindən reallaşdırılan 4-cü sosial islahat paketi və kredit



aktivliyinin davam etməsi məcmu tələbin əsas komponenti olan istehlakı dəstəkləyir. Banklar və qeyri-bank kredit təşkilatları üzrə kredit portfelinin illik artımı bir qədər səngisə də, yüksək olaraq qalır və cari ilin fevralında 15,7 faiz təşkil edib. İlin əvvəlindən bəri qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən bəzi xidmətlərin (məhsulların) qiymətlərinin dəyişdirilməsi ilə bağlı qəbul edilmiş qərar inflyasiya gözləntilərinə təsir edə bilər. Qeyd olunanlar proqnozlaşdırılan inflyasiyanın qəbul edilmiş hədəfi hələ də üstələməsinə təsir edir. Baza ssenari üzrə ehtimala əsasən, 2023-cü ildə illik inflyasiyanın 8 faiz ətrafında olacağı proqnozu dəyişməz qalır.

*"Xalq qəzeti"*

# Qarabağda sahibkarlara maliyyə yardımı

**44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərin minalardan və hərbi sursatlardan təmizlənməsi, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işləri, yeni infrastrukturun yaradılması istiqamətində görülən işlər burada sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar yaradıb.**



Düşmənin 30 il ərzində xarabazara çevirdiyi, daşı daş üstdə qoymadığı torpaqlarımızda həyat yenidən canlanır, insanların qurub-yaratmaq həvəsi artır. Prezidenti İlham Əliyev aprelin 18-də Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibəsində deyib: "Hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi məsələsi bizim üçün əsas prioritetdir… Otuz il ərzində Ermənistan bu torpaqları viran qoyub, daş-daş üstə qoymayıb, talançılıq və soyğunçuluqla məşğul olub, barbarlıqla məşğul olub. Biz, bu torpaqların sahibləri isə gəlmişik qurmaq üçün, yaratmaq üçün".

Dövlət başçısının "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən istifadəyə görə maliyyə yardımı göstərilməsi haqqında" Fərmanı isə özəl bölmənin təşviqi baxımından mühüm əhəmiyyət daşıyır. Fərmana əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərində istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara 2023-cü il yanvarın 1-dən 10 il müddətində hər ay istehlak olunan kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20 faizi qədər dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı ödəniləcək.

Nazirlər Kabineti işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydasını on beş gün müddətində dövlət başçısı ilə razılaşdırmaqla təsdiq etməli, maliyyə yardımının ödənilməsi ilə bağlı tələb olunan vəsaitin müvafiq illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin etməli, fərmanın icrası barədə ildə bir dəfə – hər il aprelin 1-nə qədər dövlət başçısına məlumat verməlidir.

Adıçəkilən sənədə əsasən İqtisadiyyat Nazirliyi Maliyyə və Energetika nazirlikləri ilə razılaşdırmaqla fərmanın icrası ilə bağlı 2023-cü ildə tələb olunan vəsait barədə təkliflərini on beş gün, fərmanın icrası ilə bağlı illik icmal hesabatını isə növbəti il fevralın 1-nə qədər Nazirlər Kabinetinə təqdim etməlidir.

Qarabağ və Şərqi Zəngəzurun bərpasında, sosial-iqtisadi həyatın canlanmasında sahibkarlar mühüm rol oynayırlar. Bu da təsadüfi deyil. Azərbaycan dövləti burada iş görmək istəyən bütün yerli və xarici biznes nümayəndələri üçün hərtərəfli şərait yaradıb. Elə bunun nəticəsidir ki, 2022-ci ildə işğaldan azad edilmiş rayonlarımızda 2157 yeni fərdi sahibkarlıq subyekti yaradılıb. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məlumatına əsasən, bu il yanvarın 1-dək işğaldan azad edilmiş ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq üçün agentliyə 1339 müraciət daxil olub. Müraciətlərin 873-ü yerli, 466-sı isə 37 ölkəni əhatə edən xarici sahibkarların payına düşür.

Ölkə Prezidenti İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın da əsas hədəflərindən biri məhz işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın bərpası üçün yeni investisiyaların cəlb olunması ilə sahibkarlıq mühitinin formalaşdırılmasıdır.

### *Ekspert rəyi*

**Mahir ZEYNALOV,**
**ETN İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent**



Prezident İlham Əliyevin "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən istifadəyə görə maliyyə yardımı göstərilməsi haqqında" Fərmanı Qarabağ və Şərqi Zəngəzurda sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraitin yaradılması məqsədi daşıyır. Fərmandan irəli gələn məsələlərin həlli işğaldan azad olunmuş ərazilərdə iqtisadi fəallığın gücləndirilməsinə, investisiya cəlbediciliyinin artırılmasına, eləcə də düşməndən təmizlənmiş torpaqlarımızın iqtisadi potensialının reallaşdırılmasına imkan yaradacaq.

İşğaldan azad olunmuş ərazilərin bərpası, bu torpaqlarda həyatın əvvəlki məcrasına qaytarılması Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələdir. Təsadüfi deyil ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda əsas investor Azərbaycan dövlətidir. Ötən müddətdə bütün mənbələr hesabına Qarabağda bərpa işlərinə 6,4 milyard manat vəsait xərclənib. 2023-cü ilin dövlət büdcəsindən isə daha 3 milyard manat ayrılıb. Bununla belə, dövlətin yaratdığı əlverişli biznes mühiti, bir sıra vergi güzəştləri, eləcə də infrastrukturun bərpası istiqamətində görülən işlər özəl sektoru da bu ərazilərdə iş görməyə sövq edir.

Yeri gəlmişkən, 2022-ci ildə ən çox yeni iş yerləri və fərdi sahibkarlıq subyektləri Ağdam rayonunda yaradılıb. Belə ki, ötən il bu rayonda 775 fərdi sahibkarlıq subyekti qeydiyyata alınıb, 184 yeni iş yeri açılıb. Bərpa prosesindən sonra isə Ağdam, həm də sənaye şəhəri olacaq. Ağdam şəhəri elə işğaldan əvvəl də Qarabağın əsas sənaye mərkəzi olub. Bu ənənə davam etdiriləcək və rayonda yeni sənaye müəssisələri yaradılacaq, minlərlə yeni iş yerləri açılacaq. Bu, həm də işğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata sürətli inteqrasiyasının təmini, dayanıqlı inkişafı, eləcə də layiqli yaşayış şəraitinə nail olunması baxımından vacibdir.

Ağdam Sənaye Parkının uğurlu fəaliyyətini bu sahədə atılan ilk addım hesab etmək olar. Sahibkarlar burada fəaliyyət göstərməyə böyük maraq göstərirlər. Bu yaxınlarda İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkında "Ağdam Süd" MMC-yə rezidentlik statusu verilib, bununla da Sənaye Parkının rezidentlərinin sayı 16-ya çatıb. Ağdam Sənaye Parkının yeni rezidenti tərəfindən Sənaye Parkına 2,2 milyon manat investisiya yatırılacaq, 40 nəfər işlə təmin ediləcək. "Ağdam Süd" MMC tərəfindən Sənaye Parkının ərazisində investisiya dəyəri 2,2 milyon manat olan süd məhsullarının istehsalı müəssisəsi inşa ediləcək. 40 nəfərin işlə təmin ediləcəyi müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. Ağdam Sənaye Parkında ümumi investisiya həcmi 27 milyon manata yaxın olan təkcə 4 müəssisədə 250-dən çox daimi iş yeri yaradılacaq.

# Beynəlxalq aləmdə bütün dövlətlərə münasibətdə vahid yanaşma olmalıdır

## Yoxsa, ümumi inkişaf və inteqrasiya ləngiyəcək

**Son bir neçə ildə, xüsusən, İkinci Qarabağ müharibəsindən sonra bir çox mütəxəssislər dünyada gedən ictimai-siyasi proseslərə Azərbaycan Prezidenti İlham Əliyevin necə münasibət bildirəcəyinə maraq göstərirlər. Sevindirici haldır ki, ADA Universitetinin təşkil etdiyi beynəlxalq tədbirlərdə bu tendensiyadan irəli gələn xüsusiyyətlər kifayət qədər əhatəli şəkildə nəzərə alınır. Bir sözlə, dövlət başçımızın müasir siyasətin təhlili və proqnozlaşdırılması ilə məşğul olan mütəxəssislərlə görüşü ənənəsinə çevrilmiş toplantılar müstəsna əhəmiyyət daşıyan qlobal platformaya çevrilir.**



*Biz hər zaman ABŞ prezidentlərinin rəsmi bəyanatlarında, Gürcüstan, Moldova və Ukrayna liderlərinə məktublarında ərazi bütövlüyünə dəstəklə bağlı çox açıq sözlər eşitmişik. Azərbaycana gəldikdə isə onlar sanki bunu söyləyirlər, lakin, eyni zamanda, sülh yolu ilə nizamlanma. İşğal dövründə bu, daha ədalətsiz və haqsız idi...*

**Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransdakı çıxışından**
**Şuşa, 3 may 2023-cü il**

Şuşada keçirilən növbəti konfrans bu baxımdan daha maraqlı və əhatəli oldu. Çünki ötənilki konfransdan sonra beynəlxalq aləmdə kifayət qədər yeniliklər olmuş, həm mənfi, həm də müsbət istiqamətdə çoxsaylı addımlar atılmışdır. Həmin tədbirdə dövlət başçımıza verilən sualların və cənab Prezidentin cavablarının hər biri xüsusi önəm kəsb etsə də, bu yazıda cəmi bir neçə məqama toxunmaq istəyirik.

Məsələn, ABŞ-ın Prinston Universitetinin Yaxın Şərq Araşdırmaları üzrə professoru Maykl Reynolds dövlət başçımızdan soruşdu ki, Ermənistan Azərbaycanla razılaşmaqdan imtina edərsə, Azərbaycanın masa üzərində hansı imkanları var və müzakirə predmeti olmayan hansısa imkanlar varmı?

Dövlət başçımızın cavabı həm bizim üçün, həm də o sualı verən şəxs üçün aydın olsa da, ermənilərin bu məntiqdən nəticə çıxaracaqları inandırıcı deyil. Çünki Azərbaycan Prezidenti iki il yarımdır ki, həmin arqumenti təkrar-təkrar səsləndirir. İşğalçı ölkədə isə tarixdən dərs almağa tələsmirlər. Buna görə də cənab İlham Əliyev bildirdi ki, əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq... Bu, nə Ermənistan üçün yaxşı olacaq, nə də region üçün. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq: "Buna görə də biz hələ də ümid edirik ki, onlar məntiqli davranacaqlar, sabiq Minsk qrupu fəaliyyətdə olanda işğal zamanı istifadə etdikləri taktikadan istifadə etməyəcəklər".

Yəni son otuz ildə ancaq vaxtı uzatmaqla məşğul oldular və nəticədə burunları əzildi. Prezident xəbərdarlıq etdi ki, eyni hadisə baş verə bilər. Nə idi həmin hadisə? Onlar münaqişənin həllini ləngitdilər, biz isə onlara layiq olduqları yeri göstərdik.

Biz bu konfransda başqa ölkələrdən gəlmiş mütəxəssislərdən də ədalətli mövqe və səmimi etiraflar eşitdik. Məsələn, ABŞ-ın Hərbi Dəniz Donanması Ali Məktəbinin professoru Brenda Şafer etiraf etdi ki, onun ölkəsinin bu yaxınlarda açıqlanmış Təhlükəsizlik Strategiyasında deyilir ki, Vaşinqton Ukrayna və Gürcüstanın ərazi bütövlüyünü təşviq etməlidir və Ermənistanla Azərbaycan arasında sülhü təşviq etməlidir. Okeanın o tayından gəlmiş mütəxəssis Azərbaycan Prezidentindən soruşdu ki, niyə bu prinsip müəyyən ölkələrə şamil edilir, digər ölkələrə isə yox?

Dövlət başçımız amerikalı tərəfdaşlarımıza bu sualı dəfələrlə verdiyini xatırlatdı. Ancaq heç vaxt heç bir cavab almamışam. Çünki Azərbaycana qarşı açıq-aşkar böyük ədalətsizlik var və müəyyən mənada keçmiş sovet ölkələrinin ərazi bütövlüyü məsələlərinə metodoloji yanaşmada yenidən ayırıcı xətt çəkmək cəhdi var: "Əlbəttə ki, biz buna daha çox həssas yanaşırdıq. İndi biz daha az həssasıq, çünki biz beynəlxalq ictimaiyyətin, BMT Təhlükəsizlik Şurası daimi üzvlərinin görməli olduğu işi görmüşük, Təhlükəsizlik Şurasının qətnamələrini icra etmişik. Biz bunu özümüz etmişik. Ona görə də, qeyd etdiyim kimi, buna çox diqqət yetirmirik. Lakin, əlbəttə, biz düşünürük ki, ədalətsizlik aradan qaldırılmalıdır və təkcə keçmiş Sovet İttifaqı ölkələrinə münasibətdə deyil, bütün digər ölkələrə münasibətdə də vahid standart yanaşma şamil edilməlidir".

Dövlət başçımız BMT Baş Assambleyasının tribunası da daxil olmaqla, bütün beynəlxalq tədbirlərdə istinad etdiyi ədalət prinsiplərini Şuşada növbəti dəfə daha gur səslə bəyan etdi: "Siyasətdə üstün münasibətə heç bir haqq qazandırıla bilməz, hansısa ölkələr daha yaxındırsa, hansısa ölkələr o qədər də yaxın deyilsə. Baxmayaraq ki, de-fakto kimin yaxın olduğu da sual altındadır. Həmçinin düşünürəm ki, erməni lobbisinə bütün istinadlar, müəyyən mənada haqq qazandırmalar və ya üzrxahlıqlar da həddən artıq şişirdilib. Bu, mövqeyini açıq şəkildə ifadə etmək istəməyənlər üçün çox yaxşı bəhanədir".

Azərbaycan Prezidentinin fikrincə, bu baxımdan Fransada vəziyyət daha pisdir. Dünyada heç bir ölkənin, o cümlədən, Ermənistanın tanımadığı qondarma "Dağlıq Qarabağ"ı Fransa parlamentinin iki palatası tanıyıb. Niyə? Fransızlar Qarabağda yaşayan Azərbaycan vətəndaşlarının – ermənilərin taleyinə İrəvandan çox acıyırlar? Əlbəttə, yox. Onlar, sadəcə, uzun illərdən bəri mövcud olmuş erməni mifinin təsirindən çıxa bilmirlər. Prezident haqlı olaraq tələb edir ki, bizim cavaba ehtiyacımız var.

Bu məqamda xüsusilə qabardılmalı məqamlardan biri Azərbaycan Prezidentinin regionda yaradılmış yeni reallıqlara istinad etməsidir. Dövlət başçımız bədxahlarımıza eşitdirdi ki, indi artıq həmin cavab bizim üçün o qədər də mühüm əhəmiyyət kəsb etmir. Çünki kimin necə danışmasından, hansı bəyanatları verməsindən asılı olmayaraq, biz öz işimizi görmüşük. İndi fransızlar nə danışırlarsa, qoy danışsınlar.

Yeri gəlmişkən, müstəqilliyin ilk illərində də bizə qarşı ağlagəlməz haqsızlıq edilmişdi. Biz həmin haqsızlığın aradan qaldırılması üçün çox çalışdıq və zaman elə yeniliklər etdi ki, həmin ədalətsizliyi unutduq. Niyə? Çünki həmin sənəd artıq bizim üçün elə bir əhəmiyyət kəsb etmir. Söhbət Azadlığa Dəstək Aktına 907-ci düzəlişdən gedir. Dövlət başçımız xatırlatdı ki, mən Prezident olmayanda, bundan əvvəlki vəzifədə azı ildə iki dəfə Vaşinqtona səfər edirdim. Biz bu düzəlişin aradan qaldırılması xahişi ilə Ağ evdə, Milli Təhlükəsizlik Şurasında, Senatda, Konqresdə neçə qapını döymüşük. Bu, baş vermədi.

İndi isə zaman və Azərbaycan elə dəyişib ki, ölkəmizdə heç kim 907-ci düzəlişi xatırlamır: "Çünki birincisi, bizim artıq bu yardıma ehtiyacımız yoxdur. İkincisi, bu, Prezident Klinton tərəfindən müvəqqəti olaraq ləğv edilmişdi və ondan sonra gələn prezidentlər bunu davam etdirirlər. Bu, faktiki olaraq onu göstərir ki, məsələ həll olunub. Qərb ölkələri tərəfindən Azərbaycanın ərazi bütövlüyünə dəstəyin açıq şəkildə ifadə olunmasına gəlincə, düşünürəm ki, bunun vaxtı gələcək, faktiki olaraq artıq gəlir. Vacib olan isə odur ki, Ermənistan özü indi İrəvanın Qərbdəki bəzi dostlarından daha açıq şəkildə deyir ki, onlar bunu de-fakto tanıyırlar, çünki ötən ilin oktyabrında onlar Praqa Bəyannaməsini, yenə də ötən ilin oktyabrında Soçi Bəyannaməsini imzalayıblar. Orada razılaşıblar ki, 1991-ci il Almatı Bəyannaməsi normallaşma üçün əsas kimi götürülməlidir".

Azərbaycan Prezidentinin bu məsələyə münasibəti olduqca aydın, konkretdir və əminliklə söylənilir: "Onlar mənim söylədiyimi söyləməlidirlər – Qarabağ Azərbaycandır! Mən bunu gözləyirəm. Ümidvaram ki, o gün gələcək".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

---

# Paşinyanın iki stulda oturmaq şakəri

**Ermənistanın baş naziri Nikol Paşinyanın parlamentdəki son çıxışı yenidən erməni separatçı və revanşistlərini qəzəbləndirib. O, yenidən kəskin siyasi hücumlara məruz qalıb, hətta "satqın" adlandırılıb.**



Buna cavab olaraq, baş nazir bildirib ki, ölkədə onu o qədər satqın adlandırıblar ki, daha bu ifadə ilə qarşılaşmaqdan qorxmur. "Mən müxalifətlə bütün mövzuları müzakirə etməyə hazıram. Sizi heç qorxmamağa, düşünməyə və bəzən gözlənilməz fikirlər söyləməyə çağırıram. Məni o qədər satqın adlandırıblar ki, artıq satqın adlanmaqdan qorxmuram", – deyə o, çıxışında bildirib.

Paşinyan Azərbaycanla münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması ilə bağlı bəyanatlarla yanaşı, Rusiya və Qərblə münasibətlər məsələsinə də toxunub. O bəyan edib ki, Ermənistan Qərblə müttəfiqdir, bununla yanaşı, Rusiya ilə münasibətləri kəsmək haqqında da fikirləşmir.

Paşinyan, ilk növbədə, ölkənin təhlükəsizliyi haqqında düşündüyünü bildirib. Onun sözlərinə görə, Ermənistanın strateji təhlükəsizliyi yalnız hərtərəfli sülhlə təmin oluna bilər. Amma beynəlxalq vəziyyət də regiona birbaşa təsir edir: "Regionumuzda təhlükəsizlik və sabitlik sistemləri deformasiyaya uğrayıb. Bu, o deməkdir ki, biz əlavə çağırışlarla üzləşmişik".

Ermənistan hökumətinin başçısı deyib ki, ölkənin qarşısında duran əsas vəzifə həmin deformasiyalar nəticəsində yaranmış riskləri idarə etməkdir. Bunun üçünsə hərtərəfli sülhə nail olmaq lazımdır. Bu gün sülhə nail olmaq mümkündür. Amma buna görə siyasi iradə və məqsədə çatmaq üçün aydın parametrlər lazımdır. Onun fikrincə, hazırda hakimiyyətin sülhə nail olmaq üçün siyasi iradəsi var.

Ölkədə sülhün təmin olunması isə həm Qərblə, həm də Rusiya ilə münasibətləri normal qaydada davam etdirməyi tələb edir. Amma bu, Paşinyanın bəyanatından başqa bir şey deyil. O, son vaxtlar əslində Rusiya ilə müttəfiqlikdən uzaqlaşaraq, Qərbə daha çox inteqrasiya yolunu tutub. Rusiyanın İkinci Qarabağ müharibəsində Ermənistanın əvəzinə döyüşməməsini bu ölkədə nə Paşinyan bağışlayır, nə də ictimaiyyət. Əslində, Rusiyadan üz döndərmək istəyənlərin sayı artıb. Mütəmadi olaraq keçirilən mitinq və nümayişlərdə Rusiya əleyhinə şüarlar bildirilir, hətta Ermənistan ərazisindəki Rusiya hərbi bazasının çıxarılması tələbləri səsləndirilir. Bu cür çağırışların nəzarətsiz şəkildə artması isə ölkə rəhbərliyinin də eyni mövqedə olduğunu ortaya qoyur.

Bununla yanaşı, qeyd etməliyik ki, bu gün Ermənistan özünə yeni dostlar, müttəfiqlər seçib, Fransa və İranla yaxınlaşmaqda, Hindistandan silahlar almaqda davam edir. Bu isə başı Ukrayna bataqlığına qarışmış Rusiyanın ürəyincə deyil. Bu minvalla Ermənistanın Rusiyadan üzülüşməsi real görünmür. Görünür, Paşinyanın bəyanatı da bu çətinliklər kontekstində səslənir və bayanatdan uzağa getmir.

Amma Qərb də İrəvanı birmənalı şəkildə dəstəkləmək niyyətində deyil. Bu gün Ermənistan qarşısında Rusiya ilə əməkdaşlığı dayandırmaq təklifi qoyulur. Ümumiyyətlə, Qərb ikili yanaşmanı qəbul etmir və yeni müttəfiq ölkələrə qarşı ya Rusiya, ya Qərb tələbini irəli sürür. Bu isə Paşinyanın iki stulda oturmaq şanslarını heçə endirir.

Son günlərdə Ermənistanda keçirilmiş rəy sorğuları da məsələnin asanlıqla həll olunmayacağını göstərir. Sorğunun nəticələrinə görə, erməni cəmiyyəti getdikcə daha çox Rusiyadan üz döndərərək Qərbə (Avropa İttifaqı və ABŞ), eləcə də İrana üstünlük verir. Erməni jurnalist Robert Ananyan yazıb ki, uzun illər ölkədə əsas siyasi qüvvələrin aparmış olduğu Rusiya təbliğatı erməniləri aldadaraq, onu Ermənistanın yeganə müttəfiqi kimi təqdim edib. Bununla yanaşı, ABŞ, Fransa, NATO və Aİ-yə qarşı qarayaxma kampaniyası həyata keçirilib: "Lakin İkinci Qarabağ müharibəsi göstərib ki, Rusiya Ermənistanın qeyd-şərtsiz dəstəkçisi deyil. Bu gün ermənilər Rusiyadan çox Qərbə arxalanmağa üstünlük verirlər".

Onun sözlərinə görə, Beynəlxalq Respublikaçılar İnstitutunun sorğusunda iştirak edən ermənilərin yalnız 10 faizi Rusiya ilə münasibətlərin hazırkı vəziyyətini "çox yaxşı", 40 faizi isə "bir qədər yaxşı" kimi qiymətləndirib: "Bu, əvvəllər Ermənistanda danılmaz "xilaskar" obrazına malik olan Rusiya Federasiyası üçün fəlakətli dərəcədə aşağı rəqəmdir. Ermənilərin 15 faizi Rusiya ilə Ermənistan arasında münasibətlərin hazırkı vəziyyətini "çox pis", 34 faizi "bir qədər pis" kimi qiymətləndirib. Başqa sözlə, ermənilərin təxminən 50 faizi Ermənistan-Rusiya münasibətlərinin hazırkı vəziyyətini mənfi qiymətləndirir", – R.Ananyan yazıb.

Amma sorğuda iştirak etmiş ermənilərin 63 faizi Fransa ilə münasibətlərin hazırkı vəziyyətini "çox yaxşı", 33 faizi isə "bir qədər yaxşı" kimi qiymətləndirib: "ABŞ isə İrandan sonra üçüncü yerdədir. Ermənilərin 21 faizi Ermənistan-ABŞ münasibətlərini "çox yaxşı", 67 faizi isə "bir qədər yaxşı" kimi dəyərləndirib. Avropa İttifaqı isə Ermənistanda dördüncü müsbət göstəriciyə malikdir: onunla münasibətlər ermənilərin 18 faizi tərəfindən "çox yaxşı", 68 faizi tərəfindən isə "bir qədər yaxşı" kimi qiymətləndirilib".

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi



**Tural İSMAYILOV,**
**politoloq**

Nikol Paşinyan, ümumiyyətlə, qeyri-ciddi siyasətçidir və ona görə də həm Rusiyanın siyasi dairələri, həm də Qərbin siyasi mərkəzləri tərəfindən Paşinyanın sözlərinə, açıqlamalarına və siyasi fəaliyyətinə heç bir formada etimad yoxdur. Mən hesab edirəm ki, Paşinyan özü də bunun çox yaxşı fərqindədir. Sadəcə olaraq, Qərb Paşinyanın üzərindən müəyyən məsələləri manipulyasiya etməklə məşğuldur.

Eyni zamanda, Qərb belə hesab edir ki, sorosçular vasitəsilə hakimiyyətə gətirilmiş Paşinyan və onun komandası istənilən bir anda lazım olduqda Rusiya tərəfindən manipulyasiya edilə bilər.

Rusiya da Paşinyanı sevmir və istəmir. Moskvada yaxşı anlayırlar ki, hətta Rusiya və Ermənistan arasında hansısa bir anlaşma və razılıq əldə edilsə belə, Paşinyan hakimiyyəti hər zaman Rusiyaya xəyanət etmək iqtidarındadır.

Ona görə də hesab edirəm ki, Paşinyanın bu manevrləri, eləcə də oyuncaq kimi o tərəf-bu tərəfə yovuşması hər iki qütb tərəfindən əsla qəbul edilmir. Bu gün nə Qərb, nə də Rusiya tam olaraq Paşinyana güvənmir və etibar etmir. Sadəcə olaraq, həm Qərbin, həm də Rusiyanın Ermənistan üzərindən həyata keçirmək istədikləri tarixi-siyasi məqsədləri var. Bu məqsədlərin də ən böyüyü ondan ibarətdir ki, Ermənistandan Azərbaycan, Türkiyə və bütövlükdə, türk dünyasına qarşı forpost kimi istifadə etməyə çalışırlar.

Bu məsələdə Ermənistan bir növ oyuncaq istilaçıdır, Nikol Paşinyan isə hansısa bir siyasi fiqur kimi nə Qərb, nə də Rusiya üçün böyük bir əhəmiyyətə malik deyil. Ona görə də hesab edirəm ki, Paşinyanın hər bir açıqlaması onun xanasına yeni mənfi xalların yazılması ilə nəticələnir. Elə sonuncu bəyanatı da istisna təşkil etmir.

# Zəngəzur dəhlizi qlobal önəm daşıyır

**ADA Universitetinin təşkilatçılığı ilə Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda Pakistanın Cənubi Asiya və Beynəlxalq Araşdırmalar Mərkəzinin nümayəndəsi Mahmud Həsən xanın Zəngəzur dəhlizi ilə bağlı fikirlərinə münasibət bildirən dövlətimizin başçısı bu layihənin böyük potensiala malik olduğunu vurğulayıb. Azərbaycan lideri bu yolun Çin, Qırğızıstan və Özbəkistan arasında yaradılan dəmiryolu marşrutunun davamı kimi mühüm önəm daşıdığını, “Bir kəmər, bir yol” layihəsinin və ya Şimal-Cənub dəhlizinin tərkib hissəsi ola biləcəyini qeyd edib. Prezident İlham Əliyev daha sonra deyib: “Naxçıvan ərazisindən İranın dəmir yolu ilə bağlantısı var və bu marşrutla Fars körfəzi istiqamətində yüklər daşına bilər. Zəngəzur dəhlizi, sadəcə, Azərbaycan və Ermənistan üçün deyil, hesab edirəm ki, bu layihənin qlobal səviyyədə əhəmiyyəti var. Çünki biz daha böyük həcmdə yüklərin olmasını gözləyirik və marşrutlar nə qədər çox olsa, bir o qədər yaxşıdır”.**



Ölkə rəhbəri həmin suala cavabında, həmçinin işğal dövründə ermənilər tərəfindən sökülüb daha sonra satılan, Füzulidən Zəngilana və demək olar ki, Ermənistanla sərhədə qədər uzanan Azərbaycan dəmir yolunun inşasının gələn il tamamlanacağını da diqqətə çatdırıb. Dövlətimizin başçısı, eyni zamanda, Ermənistan ərazisindən keçən 40 kilometrdən bir az artıq olan dəmir yolu xəttinin inşasının reallaşacağı təqdirdə bunun beynəlxalq layihə olacağını deyib.

Prezident İlham Əliyevin sözləri ilə desək, əgər Ermənistan bu layihə qarşısında süni maneələr yaradacaqsa, o zaman bundan yalnız uduzacaq. Çünki hazırda ölkəmizin Gürcüstan, Türkiyə və Rusiya vasitəsilə Qara dəniz limanlarına çıxışı var, digər tərəfdən İran ərazisindən də istifadə edilir. Ermənistanın isə belə bir fiziki bağlantısı yoxdur.

Yeri gəlmişkən, bir daha xatırladaq ki, ikinci Qarabağ savaşında qazanılan ədalətli tarixi qələbədən sonra imzalanan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyannamədə Azərbaycanın Qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyinin reallaşdırılmasını nəzərdə tutan Zəngəzur dəhlizinin açılması öz ifadəsini tapıb. Başqa sözlə, həmin sənəd respublikamızın Qərb hissəsi ilə Ermənistanın ərazisindən keçərək nəqliyyat əlaqəsi yaradacaq bu dəhlizin Mərkəzi Asiya və Cənubi Qafqaz, Avropa və Asiya arasında olan iqtisadi əməkdaşlığın yaranmasında və inkişaf etdirilməsində həlledici rolunu şərtləndirib.

Zəngəzur dəhlizinin Orta Dəhlizə inteqrasiya ediləcəyi də nəzərdə tutulub. Belə halda Azərbaycan ərazisindən illik təxminən 35 milyon ton yükün daşınmasına imkan yaranıb. Prezident İlham Əliyev bununla bağlı Şuşa konfransında deyib: “Orta Dəhliz layihəsi tərəfimizdən tam dəstəklənir və onun nəhəng potensialı var. Burada anlamaq lazımdır ki, biz yalnız yük daşımaları üçün tranzit marşrutu olmamalıyıq. Biz bu imkandan istifadə edərək, marşrutboyu biznes fəaliyyətini stimullaşdırmalıyıq. Orta Dəhlizin tərkib hissəsi olan ölkələr yalnız tranzitdən gəlirin əldə olunması ilə kifayətlənməməlidirlər. Bu fürsətdən yerli istehsalın stimullaşdırılmasında istifadə edilməlidir”.

Sözügedən infrastrukturun digər bir iqtisadi əhəmiyyəti isə Mərkəzi Asiya ölkələrinin bu yeni nəqliyyat dəhlizindən gələcəkdə istifadəsi ilə bağlıdır. Başqa sözlə, Zəngəzur dəhlizi “Aşqabad müqaviləsi” adı ilə tanınan anlaşmaya qoşulan ölkələrinin Avropaya reinteqrasiyası üçün əlverişli şərait yaradır. Adıçəkilən müqavilə də Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafını gerçəkləşdirmək məqsədi daşıyır.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan Mərkəzi Asiya ölkəsi deyil. Amma tarixi və mədəni əlaqələrlə, indi isə daha çox siyasi əlaqələrlə Mərkəzi Asiya ilə sıx bağlıdır. Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında fəal dialoqun mövcudluğu da bunun bariz ifadəsidir. Bu, çox müsbət dinamikadır. Belə bir şəraitin isə Mərkəzi Asiya və Azərbaycanın gələcəkdə, ilk növbədə, nəqliyyat, təhlükəsizlik məsələləri baxımından daha çox inteqrasiyalaşmasına önəmli təsir göstərər. “Çünki Mərkəzi Asiya ölkələri üçün nəqliyyat, təhlükəsizlik məsələləri və ixrac bazarlarına çıxış bu gün bir müddət əvvəl olduğundan daha çox əhəmiyyət kəsb edir. Bunun niyə belə olduğu başa düşüləndir. Burada artıq müasir nəqliyyat infrastrukturuna–dəmir yolu, dəniz limanları, Xəzərdə ən böyük donanma, eləcə də yeri gəlmişkən, Qara dənizdə gəmilərin sayının artması kimi imkanlara malik dost ölkə – Türkiyə var.

Hazırda Azərbaycan rəhbərliyi Mərkəzi Asiya ilə respublikamız arasında regional əməkdaşlığa töhfə vermək üçün ciddi səy göstərir. Azərbaycanın Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan kimi Mərkəzi Asiya ölkələri ilə, Türkiyə ilə birlikdə Türk Dövlətləri Təşkilatında olması da bunun bariz ifadəsidir.

Zəngəzur dəhlizindən söz düşmüşkən, dövlətimizin başçısı konfransda “Bir kəmər, bir yol” təşəbbüsü haqqında da fikirlərini bildirib. Ölkə rəhbəri Azərbaycan tərəfindən bu təşəbbüsünün hər zaman dəstəkləndiyini vurğulayıb. Qeyd edib ki, hazırda bu layihənin mühüm hissəsi hesab olunan Azərbaycan indiyədək öz üzərinə düşən işi yüksək səviyyədə yerinə yetirib, nəqliyyat infrastrukturu müasirləşdirilib. Eyni zamanda, Mərkəzi Asiya tərəfindən ölkəmizin infrastrukturundan istifadə etməyə böyük maraq yaranıb var və ötən ilin sonunda Çin, Qırğızıstan, Özbəkistan və Xəzər arasında yeni dəmir yolu əlaqəsinin qurulmasına başlanılıb.

“Bir kəmər, bir yol” layihəsi Qərb və Şərq arasında yaradılacaq ticarət nəqliyyat xəttinin diversifikasiyalaşmasında mühüm bir addımdır. Avropa İttifaqının (Aİ) Çin ilə olan ticarət əlaqələrinə nəzər yetirsək, bu aydın nəzərə çarpır. Son illərdə Qərb və Şərq arasındakı ticarət əlaqələri mənfi xarici təsirlərə baxmayaraq inkişaf edir. Buna uyğun olaraq, Zəngəzur dəhlizinin bu ticarət xətti üzərində yerləşməsi və səmərəli nəqliyyat koridoru olması Azərbaycanın, o cümlədən digər region ölkələrinin 600 milyard avroya çatan ticarət əlaqələrində pay sahibi olmağa imkan yaradır. Bundan əlavə, Aİ və Mərkəzi Asiya ölkələri arasında ticarət əlaqələri 20-30 milyard avro ətrafında dəyişir. Təkcə bu göstərici Zəngəzur dəhlizinin region ölkələrinin ticarət əlaqələrində alternativ nəqliyyat dəhlizi olması ilə iqtisadi əhəmiyyət daşımasını deməyə əsas verir.

***Vaqif BİNYƏTOĞLU,***
***“Xalq qəzeti”***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 142** **Bakı şəhəri, 3 may 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı”nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 1056; 2022, № 3, maddə 268, № 5, maddə 542; 2023, № 1, maddə 140) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – “Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı”na aşağıdakı məzmunda 13-3-cü hissə əlavə edilsin:

“13-3. Laçın dövlət sərhədindən buraxılış məntəqəsi – Laçın rayonu (Malxələf kəndinin yaxınlığı), Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Müdafiə naziri Rusiya sülhməramlılarının yeni komandanı ilə görüşüb



**Mayın 4-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-polkovnik Aleksandr Lentsovla görüşüb.**

Nazirliyin mətbuat xidmətindən redaksiyamıza bildirilib ki, görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti müzakirə olunub.

***“Xalq qəzeti”***



# “Anadolu Qartalı – 2023” taktiki-uçuş təlimi başlayıb

**Türkiyə Respublikasının Konya şəhərində keçirilən “Anadolu Qartalı - 2023” beynəlxalq taktiki-uçuş təliminin əsas mərhələsi başlayıb.**

Təlimin ilkin mərhələsində təyin olunmuş plana uyğun olaraq uçuşlar zamanı təhlükəsizlik qaydaları və qarşıya qoyulan tapşırıqlar çatdırılıb.

Ssenariyə əsasən əvvəlcə şərti düşmənin hava hücumundan müdafiə vasitələri susdurulub.

Hava üstünlüyü əldə edildikdən sonra təyyarələrimiz müxtəlif döyüş təyyarələri ilə birgə şərti düşmənin hava məkanına daxil olaraq yuxarı hündürlükdə döyüş manevrləri etməklə qarşı tərəfin yerüstü hədəflərinin məhv edilməsi üzrə tapşırıqları icra ediblər.

*Heydər Əliyev – 100*

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM), Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti (DDPU) və “Özbəkistan-Azərbaycan” Dostluq Cəmiyyətinin birgə təşkilatçılığı ilə bu ali təhsil ocağında Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan “Heydər Əliyev – Azərbaycan və Özbəkistan arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərinin banisi” adlı beynəlxalq konfrans keçirilib.**

# Ulu öndər özbək xalqının unudulmaz dostudur



Konfrans iştirakçıları əvvəl ulu öndərin Mədəniyyət Mərkəzinin qarşısındakı abidəsinin önünə gül qoyublar. Sonra Heydər Əliyevə həsr olunan foto və nəşr sərgisi ilə tanış olublar.

Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru, professor Abduqaffor Qırğızbayev Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən söz açıb. Onun təkcə Azərbaycanda deyil, Özbəkistanda da çox böyük və dəyərli şəxsiyyət olduğunu bildirib.

AMM-nin direktoru Samir Abbasov ulu öndərin rəhbərliyi dövründə xalqımızın maraqlarını və gələcəyini düşünməsini, Türk dünyası ilə bağlı fikirlərini, Özbəkistanla əlaqələrin və əməkdaşlığın qurulmasında və inkişafında xidmətlərini qeyd edib.

Özbəkistan Millətlərarası Münasibətlər və Xarici Ölkələrlə Dostluq Əlaqələri Komitəsi sədrinin müavini Zafarbek Axmedov, Mirzə Uluqbek adına Özbəkistan Milli Universitetinin professoru, fəlsəfə elmləri doktoru Cəmilə Şermuhamedova Azərbaycanla münasibətlərin daim Özbəkistan üçün prioritet olduğunu, Heydər Əliyev tərəfindən möhkəm təməli qoyulan münasibətlərimizin bu gün onun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıblar.

Azərbaycan Milli Məclisinin deputatı, akademik Nizami Cəfərov, Özbəkistan Ali Məclisinin deputatı Gülbahor Səidqəniyeva Heydər Əliyevin ictimai-siyasi fəaliyyətindən, iki qardaş respublika arasında həm sovet dövründə, həm də müstəqillik illərində münasibətlərin qurulması və inkişafındakı rolundan söz açıblar.

Bakı Dövlət Universitetinin Arxeologiya və Etnoqrafiya kafedrasının müdiri, dosent Kərəm Məmmədov, Nizami adına DDPU-nun professoru, tarix elmləri doktoru Abrar Həzrətqulov və tərcüməçi alim Babaxan Şərif Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində, ictimai-siyasi həyatında, daxili-xarici siyasətində, mədəniyyətində, elmində, dövlətlərimiz arasındakı münasibətlərdə müstəsna xidmətlərinə dair məruzələr ediblər.

Konfransın aktiv təşkilatçıları və iştirakçılarına Özbəkistan Millətlərarası Münasibətlər və Xarici Ölkələrlə Dostluq Əlaqələri Komitəsinin və “Özbəkistan-Azərbaycan” Dostluq Cəmiyyətinin Fəxri diplomları təqdim edilib.

Tədbirdə universitetin “Altın miras” ansamblının üzvləri özbək və Azərbaycan musiqilərini ifa ediblər.

Azərbaycanın və Özbəkistanın xalq artisti Gülyanaq Məmmədova Azərbaycan və özbək mahnılarını səsləndirib.

***Qulu KƏNGƏRLİ***

**Daşkənd**

# Gürcü dilində “Heydər Əliyev – 100” kitabı Tbilisidə hədiyyə edilib

**Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları Gürcüstana səfər çərçivəsində Tbilisidə Türkiyənin Yunus Əmrə İnstitutunun qonağı olublar. İnstitut 2012-ci ildən bəri Tbilisidə təhsil və mədəniyyətlə bağlı geniş fəaliyyət göstərir. Bu qurum hər il konfranslar, simpoziumlar, xalq oyunları, seminarlar, müsabiqələr, sənət kursları təşkil edir, filmlər, konsertlər nümayiş etdirir, sərgilər, xüsusi günlərlərlə bağlı tədbirlər, türk mətbəxinin təbliğini həyata keçirir.**



Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları qurum adından Yunus Əmrə İnstitutunun kitabxanasına gürcü dilində işıq üzü görmüş “Heydər Əliyev – 100” kitabını hədiyyə ediblər. Kitab “Heydər Əliyev ili” çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Tbilisidəki “Alyans” Gənclər Birliyinin layihəsi əsasında hazırlanıb.

Görüşdə institutun direktoru Can Güray Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli siyasət və dövlət xadimi, ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinə böyük dəyər verdiyini, onunla bütün türk dünyasının qürur duyduğunu bildirib. Onun sözlərinə görə, gürcü xalqı da türk xalqları kimi, Azərbaycanın böyük oğlu, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xatirəsini əziz tutur, onu Gürcüstanın böyük dostu, qayğıkeşi hesab edirlər. Bu ölkənin istər yuxarı hakimiyyət orqanlarında təmsil olunanlar, istərsə də sadə xalqın nümayəndələri ulu öndərin bir sıra enerji layihələrinə Gürcüstanı da cəlb etməsini daim minnətdarlıq hissi ilə xatırlayırlar.

Direktor Heydər Əliyevin diaspor quruculuğu, türk dövlətlərinin bir araya gəlməsi istiqamətində göstərdiyi misilsiz xidmətlərə diqqət çəkib. Görüşdə eyni zamanda, Azərbaycan dövlətinin diaspor siyasəti, komitənin fəaliyyət istiqamətləri, Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları ilə sıx əməkdaşlıq, komitə sədri Fuad Muradovun Budapeştdəki Yunus Əmrə İnstitutunda çalışan türk və macar müəllimləri ilə görüşü, “bir millət, iki dövlət” prinsipi əsasında birgə fəaliyyət barədə məlumat verilib.

Cənab Güray əlavə edib ki, rəhbərlik etdiyi Yunus Əmrə İnstitutu Gürcüstanda, xüsusən paytaxt Tbilisidə çoxşaxəli fəaliyyət göstərməklə kifayətlənmir, Azərbaycanla da daim sıx əlaqə saxlayır, təşkil etdiyi tədbirlərə Azərbaycan nümayəndələri də mütəmadi olaraq dəvət olunurlar. Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi isə həmişə institutun yanındadır. Komitə institutun kitabxanasına müəyyən qədər kitab hədiyyə edib. Ancaq bunlar azdır. İnstitut Azərbaycanın ayrı-ayrı qurum və təşkilatlarının bu məsələdə daha çox yardım göstərəcəyinə ümid edir.

Sonda institutla Tbilisidəki “Alyans” Gənclər Birliyi arasında sıx əməkdaşlıq yaradılması barədə razılıq əldə olunub.

***P.ƏMİRCANOV,***
***“Xalq qəzeti”***

# Vaşinqton görüşündə ilk nəticə: heç bir status olmayacaq!

**Azərbaycan tərəfinin təkidi ilə ABŞ-da Ermənistanla müzakirə olunan sülh müqaviləsinin mətnindən "Dağlıq Qarabağ erməniləri", "Dağlıq Qarabağda yaşayanlar" kimi ifadələr çıxarılıb. Sənədə yalnız "etnik azlıq" sözü salınıb. Bu, Azərbaycan diplomatiyasının danışıqlarda əldə etdiyi ən böyük uğurlardan biridir. Sənəddə Qarabağ ermənilərinin Azərbaycanda yaşayan etnik azlıqlardan biri kimi insan hüquq və azadlıqlarının, təhlükəsizliyinin təmin olunması nəzərdə tutulub.**



***

Ermənilər hələ sovet dövründə Azərbaycanın bərabərhüquqlu vətəndaşları olublar. Onlar Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü ilin 7 iyul tarixli qərarı ilə yaradılan Dağlıq Qarabağ Muxtar Vilayətində kompakt halda yaşayıblar. Bundan başqa, ölkəmizin digər şəhər və rayonlarında da ermənilər şad-xürrəm ömür sürüblər. Bu məqamı Prezident İlham Əliyev Ağdam rayonunun işğaldan azad olunması münasibətilə 2020-ci ilin noyabrın 20-də xalqa müraciəti zamanı da vurğulayıb: "Onlar Bakıda, Gəncədə, bizim başqa şəhər, rayonlarımızda yaşayırdılar. Onlara söz deyən var idi? Yox. Onlar bundan məhrum oldular. Bizim xalqımızı oradan qovaraq, etnik təmizləmə siyasəti apararaq buradan da getməli oldular. Nə qazandılar? Heç nə. İndi isə bax, bu rəzil durumda bir-birini didirlər, olan-qalan dövlətçiliyi də məhv edirlər".

İrəvanla Bakı arasında 1994-cü ildən 2020-ci ilə, 44 günlük Vətən müharibəsinədək aparılan danışıqlarda Qarabağ ermənilərinə Azərbaycanın ərazi bütövlüyü daxilində status verilməsi müzakirə mövzusu olmuşdu. Rəsmi Bakı həmin dövrdə Qarabağ ermənilərinə ən yüksək status verilməsinə hazır olduğunu dəfələrlə bildirmişdi. Bu da ölkəmizin sülhpərvərliyinin, müharibə istəmədiyinin göstəricisi idi. Ancaq torpaqlarımızı üç mindən artıq şəhidimizin canı-qanı bahasına azad etdikdən sonra status məsələsi də tarixin arxivinə gömüldü. Azərbaycanın bu məsələdə mövqeyi qətiləşdi. Prezident İlham Əliyevin 2021-ci ilin iyulun 7-də imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanı əsasında Qarabağ iqtisadi rayonunun yaradılması ilə status məsələsi birdəfəlik aradan götürüldü. Fərmanla tərkibinə Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocavənd, Şuşa, Tərtər inzibati rayonları və Xankəndi şəhərinin daxil edildiyi Qarabağ iqtisadi rayonu hazırda Azərbaycanın 14 iqtisadi rayonundan biridir. Yeri gəlmişkən, Prezident fərmanının məhz iyulun 7-də imzalanması təsadüfi deyildi. Bir vaxtlar siyasi xəritədə mövcud olmuş DQMV 98 il öncə məhz həmin gün yaradılmışdı.

İndi Vaşinqton danışıqlarında iştirak edən nümayəndə heyətimizin müzakirə olunan sülh sazişinin mətnindən "Dağlıq Qarabağ erməniləri", "Dağlıq Qarabağda yaşayanlar" sözlərini çıxarması bu siyasətin ruhuna uyğundur. Zənnimizcə, bu məqamda Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin martın 12-də "Report" agentliyinə verdiyi müsahibədən iqtibas gətirmək yerinə düşər: "Ermənistan lap əvvəldən Qarabağ məsələsinin sülh sazişində yer almasına çalışırdı, lakin bu yanaşma Azərbaycan üçün qəbuledilməzdir. Qarabağda yaşayan erməni sakinlərin fərdi hüquq və təhlükəsizliyi məsələsi sırf Azərbaycanın daxili işidir və Azərbaycan özünün suverenliyinə aid olan məsələləri digər üçüncü tərəflə, o cümlədən Hayastan Respublikası ilə müzakirə etməyəcək. Qarabağ münaqişəsi həll olunub. Qarabağ Azərbaycan ərazisidir. Azərbaycan üçün Qarabağ məsələsi beynəlxalq gündəlikdən çıxıb. Təsadüfi deyil ki, Brüssel, Moskva, Praqa, Soçi görüşlərində qəbul edilən sənədlərdə Qarabağa istinad yer almır. Qarabağda yaşayan erməni sakinlərin fərdi hüquq və təhlükəsizliyi Azərbaycan Konstitusiyasına və qanunlarına uyğun həll olunacaq. Erməni sakinlərə heç bir xüsusi imtiyazın verilməsi nəzərdə tutulmur. Dediyim kimi, bu məsələnin Ermənistana və digərlərinə heç bir aidiyyəti yoxdur".

***

Məsələnin digər tərəfi isə bundan ibarətdir ki, Azərbaycan unitar dövlətdir. Bu məqam Konstitusiyamızda da öz əksini tapıb. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada müxtəlif xalqların nümayəndləri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Eyni zamanda, burada bütün xalqların hüquqları eynidir. Azərbaycandakı xalqlar arasında indiyədək etnik zəmində bir dəfə də münaqişə qeydə alınmayıb. Yeganə istisna hal ermənilərlə azərbaycanlılar arasında yaşanan münaqişə olub ki, bunun da təqsirkarı separatçı ermənilər, onların Ermənistandakı və xaricdəki havadarlarıdır.

O da məlumdur ki, ermənilər hazırda Qarabağda – Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyəti altında olan ərazidə 120 min nəfərin yaşadığı iddia edirlər. Real statistika isə Xankəndidə yaşayan ermənilərin sayının 11-12 mindən çox olmadığını sübuta yetirib. Seçici siyahıları üzrə hesablamalar apararaq, müharibədən sonra qayıdan ermənilərin sayını tutuşduraraq, Qarabağda yaşayan ermənilərin sayının 24-26 min aralığında olduğunu iddia etmək olar. 24-26 min nəfərlik, lap tutaq ki, 120 min nəfərlik etnik qrup üçün status tələb etmək hansı məntiqə, hansı beynəlxalq sənədə uyğundur? Azərbaycan daxilində çoxlu sayda milli azlıqların nümayəndələri yaşayırlar. Say etibarilə ölkəmizdə Qarabağdakı ermənilərdən qat-qat çox olan milli azlıqların nümayəndələri var. Ermənilər onlardan heç nə ilə artıq deyillər. 1993-cü ildə etnik separatizmin alovlandığı Azərbaycanda bu məsələlərin qarşısını ulu öndər Heydər Əliyevin müdrik siyasəti almışdı. Onun layiqli davamçısı olan cənab İlham Əliyevin rəhbərliyi sayəsində ölkəmiz bir daha o cür xoşagəlməz günlər yaşamayacaq.

***

Milli Məclisin deputatı Asim Mollazadə də "Xalq qəzeti"nə açıqlamasında ölkəmizdə yaşayan etnik qrupların hüquqlarının dövlət tərəfindən tam şəkildə müdafiə olunduğunu bildirib. Qeyd edib ki, ermənilərə hansısa müstəsna hüquq verilməsi tələbi Azərbaycanın daxili işlərinə qarışmaq və beynəlxalq hüquq normalarını kobud surətdə pozmaq demək olardı: "Ermənistan ölkəmizin ərazi bütövlüyünü



tanımalıdır, Azərbaycan da onun ərazisində yaşayan digər xalqlar kimi ermənilərə hüquqlar verməlidir. Onların etnik və dini hüquqları müdafiə olunmalıdır. Azərbaycan dövləti bunu təmin edə bilər. Qarabağ ermənilərinə etnik azlıqlara beynəlxalq hüquq normalarında mövcud olan yanaşmadan başqa digər yanaşma şamil oluna bilməz. Bu problemin həllinə məhz etnik qrupun hüquqları nöqteyi-nəzərindən baxılmalıdır".

***

Güclü, qüdrətli, regionun söz sahibi olan Azərbaycan Respublikası böyüklük göstərərək ərazisində yaşayan etnik ermənilərə barışıq əli uzadır. Milli Məclisin deputatı Ramin Məmmədov Qarabağda yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs kimi müəyyən olunub. Bakı Qarabağ ermənilərini separatizmdən əl çəkməyə, tarixi saxtakarlıq üzərində qurulmuş çox ziyanlı ideologiyadan uzaqlaşmağa, ölkənin iqtisadi imkanlarından bəhrələnməyə dəvət edir. Bu saxtalaşdırılmış keçmiş ermənilərin gələcəyini əlindən alır. Dünyada nə qədər müharibələr olub. Elə son 100 ili, 200 ili götürək. Bu müharibələrdə nə qədər insan həlak olub. Bu ədavəti, kini-küdurəti illərlə heç bir xalq qəlbində yaşatmayıb, uşaqlarını nifrət hissi ilə böyütməyib. Yeri gəlmişkən, ermənilər bunu ediblər və onların yanaşmaları özləri haqqında dedikləri "qədim, əzabkeş və sivil xalq" iddialarının da mif olduğunu sübuta yetirir. Azərbaycan Cənubi Qafqazda ədavətə nəhayət, son qoyulmasında, normal, işgüzar münasibətlər qurulmasında maraqlıdır. Bundan ən çox faydalananlardan biri də elə erməni xalqı, o cümlədən, Qarabağ erməniləri olacaq. Onlar bunu nə qədər tez başa düşsələr, bir o qədər yaxşıdır.

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

*Buna görə biz onların konstruktivliyinə ümid edirik. Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar. Çünki bütün geosiyasi vəziyyət, – söhbət təkcə regiondan deyil, qlobal vəziyyətdən gedir, – dəyişib. Bizim orada öz yerimiz var. Bu yer çox sabitdir və getdikcə daha da möhkəmlənir. Lakin onlar üçün bu, böyük çağırış olacaqdır. Ümid edirəm ki, Vaşinqton danışıqları hətta nəticə verməsə belə, biz tərəqqinin əlamətlərini görə biləcəyik.*

**Prezident İlham Əliyevin mayın 3-də "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfransdakı çıxışından**

# Paşinyanın xəbərdarlığı: Bir dövlət kimi mövcudluğumuz sual altına düşəcək

**Ermənistan baş naziri Nikol Paşinyan parlamentdə keçirilən "Hökumət saatı"nda tarixi etirafını edib. Deyib ki, Ermənistan rəhbərliyi ölkənin heç bir dövlətə ərazi iddiasının olmadığını və gələcəkdə də olmayacağını bəyan etməlidir: "Əgər biz bunu bəyan etməsək, bizi hər tərəfdən sıxışdıracaqlar və bir dövlət kimi mövcudluğumuz sual altına düşəcək".**

Okeanın o tayında – ABŞ-da iki ölkənin xarici işlər nazirləri arasında bir neçə gündür davam edən danışıqlar fonunda bu, olduqca maraqlı və cəlbedici bəyanatdır. Hətta, bunu geriçəkilmə və rəsmi İrəvanın danışıqlar prosesinə mesajı kimi də qiymətləndirmək olar.

Görünür, N.Paşinyan uzun illər ərzində yürüdülən "miatsum" ("birləşmək") siyasətinin və etnik təmizləmənin Ermənistanı hansı vəziyyətə gətirib çıxardığını aydın dərk edib. Eyni zamanda, Azərbaycanın 2020-ci ildə apardığı 44 günlük Vətən müharibəsi haylara yaxşı dərs olub. Ermənistan bu müharibədə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, onun əsas ölkəsi – ən yaxın hərbi-siyasi müttəfiqi olduğu Rusiyaya bel bağlayırdı. Rusiya isə vaxtilə özünün də lehinə səs verdiyi BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsinin Azərbaycan tərəfindən icrasına müdaxilə edə bilməzdi. Çünki Azərbaycanın mövqeyi digər çoxsaylı beynəlxalq sənədlərlə də dəstəklənirdi. Üstəlik, ölkəmiz bu müharibəni beynəlxalq humanitar hüquqa tam uyğun apardı. Ermənistandan fərqli olaraq dinc şəhərləri artilleriya atəşinə tutmadı, mülki insanlara atəş açmadı, kritik infrastruktur obyektlərini sıradan çıxarmadı. Nəticədə müharibədən sonra Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmləndi. Aparılan danışıqlarda Bakı hər cəhətdən üstün tərəf kimi çıxış etməyə başladı. İrəvan müharibədən sonra itirilmiş siyasi möqelərini qaytarmaq üçün çox cəhd etdi, ancaq bütün bunlar uğursuzluğa düçar oldu. Bu baxımdan bütün ümidlərini itirmiş N.Paşinyanın hazırda realist mövqedən çıxış etməyə başladığını demək olar. Necə deyərlər, ilan ulduz görməsə ölməz. Onun bugünkü mövqeyi "dəmir yumruq"un yerində olmasının aydın dərk edilməsindən də xəbər verir.



***

Onu da qeyd edək ki, bu, Paşinyanın oxşar məzmunda ilk açıqlaması deyil. Bundan öncə – aprelin 18-də parlamentdə çıxışı zamanı da, o, Ermənistanın Azərbaycan Respublikasının ərazi bütövlüyünü tam olaraq tanıdığını demişdi: "Biz bütün beynəlxalq münasibətlərdə aydın şəkildə qeyd etsək, sülh mümkündür. Ermənistan 29 800 kvadrat kilometr ərazidə tanınır və heç bir başqa ölkəyə ərazi iddiamız yoxdur. Ermənistan və Azərbaycan arasında sülh sazişi o zaman reallaşacaq ki, iki ölkə birmənalı şəkildə, qeyri-müəyyənliklər və tələlər olmadan bir-birinin ərazi bütövlüyünü tanıyacaq və bir-birinə heç vaxt ərazi iddiası irəli sürməyəcək. Mən bir daha təsdiq edirəm ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə tanıyır və gözləyir ki, Azərbaycan da Ermənistan SSR-in bütün ərazisini Ermənistan Respublikası kimi tanıyacaq".

***

Dünən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının yaradılmasının 30-cu ildönümünə həsr olunmuş üzv dövlətlərin parlament rəhbərlərinin Ankarada keçirilmiş Sammitində və Parlament Assambleyasının plenar iclasında çıxış edən Ermənistan parlamentinin spikeri Alen Simonyan İrəvanın xarici siyasətində qonşuluq münasibətləri və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini bir daha təsdiqlədiyini bildirib: "Bizim qonşularımıza heç bir ərazi iddiamız yoxdur və qonşularımızın da bu prinsipi rəhbər tutacağını gözləyirik".

Ermənistanın daha bir yüksək vəzifəli şəxsinin dilindən səslənən bu bəyanat yürüdülən siyasətin hayları uçuruma aparmasının daha bir etirafıdır. Onlar cənab İlham Əliyevin yazımıza epiqraf kimi seçdiyimiz fikirlərini diqqətlə dinləməli, bu çağırışlara cavab verməli və Ermənistanı iqtisadi imkanları zəif, yarımmüstəqil, təcrid olunmuş ölkədən normal ölkəyə çevirməyə çalışmalıdırlar. Əks-təqdirdə Ermənistan müxtəlif geosiyasi güclərin məngənəsində sıxılmaqda davam edəcək.

***S.NAZİMOĞLU, "Xalq qəzeti"***

# Ermənistanda əsirlərimizə münasibət bu ölkənin sülhə hazır olmadığını göstərir

**Ermənistanın baş prokuroru Anna Vardapetyan əsir götürülmüş Azərbaycan hərbçiləri – 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu haqqında açıqlama verib. O, açıqlamasında əsirlərin ekstradisiyasının nəzərdə tutulmadığını bildirib. Azərbaycanlı əsirlərin gələcəkdə də ekstradisiya oluna biləcəyi ilə bağlı suala da konkret cavab verməyib və qeyd edib ki, bu onun səlahiyyətinə aid deyil. Göründüyü kimi, Ermənistan bu dəfə baş prokurorun dili ilə əsirlərimizi geri qaytarmaq niyyətində olmadığını bildirib.**



Şübhəsiz, Ermənistanın əsirlərimizlə bağlı ortaya qoyduğu belə mövqe, hər şeydən öncə, rəsmi İrəvanın sülhə hazır olmadığını göstərir. Bu fakt bir daha onu göstərir ki, Ermənistan ölkəmizə qarşı təxribatlarına son qoymaqda, bölgədə sülhün və təhlükəsizliyin bərqərar olmasında maraqlı deyil. Ona görə əlinə düşən hər fürsətdən istifadə edərək ölkəmizin maraqlarına zərbə vurmağa, sülh və təhlükəsizlik üçün əngəllər yaratmağa çalışır.

## Növbəti absurd: əsir hərbçimiz "qatil" obrazında

İrəvanın dumanlı havada yolu azaraq, Ermənistan ərazisinə keçən hərbçilərimizə münasibətinin qərəzli olmasını isbat edən çoxsaylı faktlardan biri də, Paşinyan rejiminin əsir hərbçimizdən qatil düzəltmək istəyi ilə bağlıdır. Belə ki, Ermənistanın baş prokurorluğu əsir hərbçimiz Hüseyn Axundova qondarma cinayət işi açaraq, onu "Zəngəzur mis-molibden kombinatının gözətçisini qətlə yetirməkdə" ittiham edib. Bu fakt bir daha onu göstərir ki, İrəvan beynəlxalq qanun və konvensiyaları pozaraq, əsirlərimizi Azərbaycana təhvil vermək istəmir. Elə bu səbəbdən də qanunsuz davranışına hüquqi don geyindirmək üçün əsas yaratmağa çalışan İrəvan, hərbçimizi erməni gözətçisini öldürməkdə təqsirləndirir. Ermənistan əsir hərbçimizdən qatil düzəltməklə, göstərmək istəyir ki, guya, onun Azərbaycana qaytarılmamasına səbəb törətdiyi konkret cinayət hadisəsidir. Halbuki, Ermənistanın bu ittihamının, tamamilə, əsassız olduğu, heç bir fakta söykənmədiyi və siyasi amillərdən irəli gəldiyi göz önündədir.

## Ermənistanın Cenevrə Konvensiyasına tutduğu "divan"

Ermənistanın azərbaycanlı əsirlərə münasibətdə yol verdiyi qərəz və vəhşilik rəsmi İrəvanın əsirlərlə bağlı bütün beynəlxalq konvensiyaları, o cümlədən, 1949-cu ilin Cenevrə Konvensiyasını kobud şəkildə pozduğunu göstərir. İrəvanın Cenevrə Konvensiyasını necə, hansı maddə və bəndlər üzrə pozduğunu daha yaxşı anlamaq üçün sadəcə aşağıdakı faktlara nəzər salmaq yetərlidir:

Cenevrə Konvensiyasının 3-cü maddəsinin c bəndində qeyd olunur ki, əsirlə münasibətdə təhqiredici, insan ləyaqətini alçaldan rəftara yol vermək olmaz. Halbuki, azərbaycanlı əsirlərin əsir düşməsi ilə bağlı erməni tərəfinin yaydığı foto-video materialda onların işgəncə və şiddətə məruz qaldığı açıq şəkildə özünü göstərir. Fotolardan da görünür ki, əsirlərimiz elə ilk andan ağır işgəncə və fiziki zorakılığa məruz qalıblar.

Cenevrə Konvensiyasının 12-ci maddəsində qeyd olunur ki, əsirə "cinsinə, irqinə, milli mənsubiyyətinə və ya vətəndaşlığına, dini etiqadına, siyasi əqidəsinə və ya digər oxşar meyarlara görə heç bir ayrı-seçkilik qoymadan onlara humanist rəftar və qayğı göstərilməlidir". Azərbaycanlı əsirlərin məhz milli mənsubiyyətinə görə işgəncəyə məruz qaldığı mediadakı və sosial mediadakı fotofaktlardan açıq-aydın görünür.

Cenevrə Konvensiyasının 50-ci maddəsində qeyd olunur ki, əsirlərə işgəncə verilməsi və onların qeyri-insani rəftara məruz qalmaları ciddi pozuntudur. Konvensiyanın bu maddəsi göstərir ki, ermənilər əsir hərbçilərimizə münasibətdə beynəlxalq öhdəliyi kobud şəkildə pozublar.

Qeyd edək ki, Ermənistanın əsir hərbçilərimizə münasibətdə yol verdiyi vəhşilik, sadəcə, Cenevrə Konvensiyası ilə deyil, digər beynəlxalq konvensiyalarla da açıq-aşkar ziddiyyət təşkil edir. Bu isə o deməkdir ki, Ermənistan qoşulduğu beynəlxalq konvensiyaların tələblərinə əməl etmir.

Xatırladaq ki, Ermənistan bundan öncə də həmin sənədlərin tələblərini dəfələrlə kobud şəkildə pozub. Görünən odur ki, beynəlxalq təşkilatlar, dünya birliyi ölkəni cəzalandırmayana qədər, bu mənfur əməlindən əl çəkməyəcək.

***Seymur ƏLİYEV***

# Ankara iqtisadi gücünü dünyaya nümayiş etdirir

**Türkiyə bu gün ÜDM (nominal) sıralamasında 17-ci sırada yer alır. "OECD" və "G-20" kimi əsas iqtisadi təşkilatların təsisçilərindən biridir. 1995-ci ildə fəaliyyətə başlayan və ölkənin xarici ticarət siyasətində önəmli yer tutan təşkilatlardan biri olan Avropa İttifaqı–Türkiyə Gömrük İttifaqı idxal və ixracın yüksək dərəcədə artmasına əhəmiyyətli təsir göstərir. Bunun sayəsində Türkiyə ixracatının həcmi ildən-ilə artır. Ən çox məhsul ixrac olunan ölkələr Almaniya, İraq, İngiltərə, İtaliya və Fransadır.**




Qardaş ölkə gəmi inşaatında son 20 ildir ki, davamlı olaraq böyük uğurlar əldə edir. Bu sahədə ən böyük bazarlar Malta, Norveç, İngiltərə və Marşall adalarındadır. Hazırda Türkiyədə 100-ə yaxın türk gəmiqayırma zavodu fəaliyyət göstərir. Tuzla, Yalova və İzmit gəmiqayırma sənayesinin əsas mərkəzləridir.

Türkiyə iqtisadiyyatının digər vacib sahələri arasında bankçılıq, tikinti, məişət texnikası, elektronika, tekstil, neft emalı, neft-kimya məhsulları, qida, dağ-mədən, dəmir-polad və maşınqayırma sektorları da yer alır.

Türkiyə ÜDM-nin 8,9 faizi kənd təsərrüfatı, 27,3 faizi sənaye və 63,8 faizi xidmət sahələridir. Bu göstəricilərə baxmayaraq, hələ də əhalinin dörddə biri kənd təsərrüfatında çalışır.

Türkiyə toxuculuq sənayesi üzrə dünya bazarında önəmli yer tutur. Bununla bağlı qardaş ölkə daxili istehsalı üçün tədarük etdiyi pambığın müəyyən bir qismini Özbəkistan və ya Türkmənistandan alır. Bu ticarətin gerçəkləşməsi üçün əlverişli nəqliyyat infrastrukturu da mövcuddur. Bu yolda Azərbaycan və Türkmənistan arasında olan mövcud marşrutlardan istifadə daşınma sürətini önəmli dərəcədə artırır.

Türkiyə iqtisadi dirçəlişin ilk illərində xarici ticarət üzərində dövlət nəzarətini azaldaraq tədricən iqtisadi tənzimləmə yolu ilə müxtəlif bazarlar açıb və xalqa məxsus müxtəlif qurumları özəlləşdirməyə başlayıb. Dövlət borcunun ÜDM-ə nisbəti 2010-cu ilin üçüncü yarısında 46 faizə yüksəlib. Həmin ərəfədə illik ÜDM artım tempi orta hesabla 6,8 faiz müəyyənləşib. Bu rəqəm Türkiyəni ən sürətli böyüyən iqtisadiyyatlardan birinə çevirib.

Onu da qeyd edək ki, 2000-ci illərin əvvəllərində ölkədə yüksək inflyasiya nəzarət altına alınıb və bu yeni valyutanın meydana çıxmasına səbəb olub. Beləliklə, yeni türk lirəsi (YTL) 2005-ci il yanvarın 1-də qüvvəyə minib. Bundan 4 il sonra isə yeni bir əskinas və sikkələrin tətbiqi ilə Yeni Türk Lirəsi Türk Lirəsi ilə əvəz edilib.

Türkiyədə turizm sektoru hər il daha da inkişaf edir və iqtisadiyyatın vacib hissələrindən biridir. Türkiyə Mədəniyyət və Turizm Nazirliyi hazırda "Evim Türkiyə" adı altında türk turizmini təbliğ edir.

Qardaş ölkə son illərdə ən çox xarici qonağı Almaniya və Rusiyadan qəbul edib. Azərbaycan isə bu siyahıda 901,723 turist ilə 10-cu sırada yer alıb. Türkiyə 2018-ci ildə beynəlxalq turist ziyarətlərinin sayına görə 45,8 milyon



xarici turist ilə dünyada 6-cı yerdə qərarlaşıb.

Türkiyə, "İstanbulun tarixi əraziləri", "Kapadokiya qayalıqları", "Çatalhöyük", "Xattusa: Hetin paytaxtı", "Troya" kimi 17 UNESCO ümumdünya irsinə sahibdir. Qardaş ölkədə dünyanın yeddi möcüzəsindən ikisi, dünyanın ən qədim dini məskunlaşma mərkəzi Göbəklitəpə və bir çox digər irslərə rast gəlmək mümkündür.

Son 20 il ərzində Türkiyə iqtisadiyyatında nəzərə çarpan volatilliyə, məzənnə enişlərinə və inflyasiyaya baxmayaraq, qardaş ölkə iqtisadiyyatı real ifadədə 3 dəfə böyüyüb. Belə ki, 2003-cü ildə 314 milyard dollar ÜDM-ə malik olan Türkiyə iqtisadiyyatı hazırda 900 milyard dollara keçib. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu il Türkiyədə ÜDM-in 1 trilyon 29 milyard dollara çatması proqnozlaşdırılıb.

Onu da qeyd edək ki, 20 il əvvələ qədər daha çox aqrar və xidmət sektorları üzrə ixtisaslaşmışdırsa, indi ölkə müasir sənaye dövlətinə çevrilməkdədir. Türkiyə hazırda hərbi, avtomobil sənayesində xüsusi üstünlüyə malik olan ölkə kimi diqqət çəkir. Məsələn, təhsil sahəsində 10,3 milyard türk lirəsi olan illik büdcə 304 milyard türk lirəsindən çox artırılıb. Ümumi daxili məhsul 238 milyard ABŞ dollarından 1 trilyon ABŞ dollarına, satınalma gücü nisbətinə görə isə Türkiyə dünyanın ən böyük 11-ci, Avropanın 4-cü iqtisadiyyatı səviyyəsinə yüksəlib, ixracat 36 milyard dollardan 250 milyard dollara qədər artırılıb, dünyanın 228 ölkə və bölgəsinə ixracat həyata keçirilməyə başlanılıb.

Bu dövrdə Türkiyənin ÜDM-i 238 milyard ABŞ dollarından 1 trilyon ABŞ dollarına qədər artıb. Satınalma gücü nisbətinə görə Türkiyə dünyanın ən böyük 11-ci, Avropanın 4-cü iqtisadiyyatı səviyyəsinə yüksəlib.

Qardaş ölkənin xarici ticarət potensialı 500 milyard dollara çatdırılıb. Müdafiə sənayesi üzrə Türkiyə öz tələbatını qarşılamaqdan başqa, İHA, SİHA, Akıncı, quru vasitələri, dəniz platformaları başda olmaqla, 170 ölkəyə müdafiə sənayesi məhsulları ixrac edən bir ölkə səviyyəsinə yüksəlib, sənaye və texnologiya istiqamətində qurulan 152 yeni mütəşəkkil sənaye zonası, 29 sənaye zonası və 94 texnoparkla ölkənin istehsal gücü artırılıb, yerli avtomobil TOGG-un istehsalı başa çatdırılıb.

Son 20 il ərzində Azərbaycanın Türkiyə ilə ticarət əməkdaşlığında da yüksək göstəricilər nəzərə çarpır. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-fevral aylarında ölkəmizin xarici ticarət dövriyyəsinin 12,5 faizi Türkiyə ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb. İxracın 12,3 faizini Türkiyəyə göndərilmiş məhsulların dəyəri təşkil edib.

Onu da xatırladaq ki, cari ilin yanvar-fevral ayları ərzində Azərbaycanın Türkiyəyə qeyri-neft ixracı 78,7 faiz artaraq 273,9 milyon ABŞ dolları təşkil edib. Yalnız fevral ayında qardaş ölkəyə ixracın dəyəri 2 dəfə artaraq 167,2 milyon ABŞ dolları səviyyəsinə çatıb. Adıçəkilən ixrac dəyərinin əhəmiyyətli artımının əsas səbəbi elektrik enerjisi ilə əlaqədardır.

*V.BAYRAMOV,*
*"Xalq qəzeti"*

## 14 may seçkiləri

**Sivil ölkələrdə seçkilərin dürüst və şəffaf keçirilməsi cəmiyyətin siyasi mədəniyyətinin səviyyəsini əks etdirir. Türkiyə də bu sahədə yüksək nailiyyətlər əldə edən dövlətlərdəndir. Çünki burada ənənəvi yüksək seçki mədəniyyəti mövcuddur.**

# Türkiyədə seçki mədəniyyəti yüksəkdir

Qardaş ölkə bu istiqamətdə, hətta ondan daha çox təcrübəsi olan dövlətləri belə qabaqlayıb. Ankaradakı nüfuzlu Bilkənd Universitetinin professoru, tanınmış politoloq Əmirulla Məmmədov hesab edir ki, seçkilər hüquqi və siyasi kampaniya olmaqla bərabər, həm də demokratik mənəviyyat məsələsidir.

Ümumiyyətlə, Türkiyə təkcə müsəlman dünyasında deyil, bütövlükdə, Qərbdə bu sahədə öndə gedən dövlətlərdəndir. Burada səslərin oğurlanması və başqa seçki saxtakarlığı hallarına dəmək olar ki, rast gəlinmir. Qardaş ölkənin vətəndaşı bunu özünə həqarət sayır.

Professor Ə.Məmmədov vurğulayır ki, Türkiyə cəmiyyətinin siyasi əxlaqı seçki saxtakarlığı hallarına heç vaxt yol verməyib və verə də bilməz. Qərb ictimaiyyəti də Türkiyədə seçki mədəniyyətinin yüksək səviyyədə olduğunun fərqindədir və ölkənin ən kəskin tənqidçiləri belə burada seçkilərin şəffaf və ədalətli olacağına şübhə etmir.

Yeri gəlmişkən, Türkiyədə səsvermə günü səslərin elektron qaydada, necə deyərlər, bir göz qırpımında şəffaf surətdə sayılması və nəticələrin ən qısa zamanda elan edilməsi bir çox "sinələrinə döyən" ölkələri heyrətə gətirir. Yadımdadır, 2018-ci ildə Türkiyədə



prezident seçkilərində səsvermə başa çatandan cəmi bir saat sonra səsvermənin ilkin nəticələri elan olunmuşdu.

Lakin Qərbin bir sıra siyasi institutları, vətəndaş cəmiyyəti qurumları, xüsusilə media orqanları Türkiyədə seçkilər barədə hazırladıqları hesabat və şərhlərdə məqsədli şəkildə qeyri-dəqiqliyə, hətta qərəzçiliyə yol verir. Səbəb bəllidir. Ankaranın qlobal səviyyədə artan iqtisadi-hərbi gücü və nüfuzu onları narahat edir.

Son günlər Avropa KİV-nin Türkiyədə qarşıdan gələn seçkilərin işıqlandırılması ilə bağlı bir çox yazıları diqqətlə oxumuşam. Demək olar ki, əksər qəzet və jurnallar, informasiya agentlikləri və telekanallar bu məsələdə birtərəfli yanaşma sərgiləyir. Halbuki, məhz həmin "demokratik toplumlar" bu dəyərləri digər ölkələrdən tələb edirlər, amma özləri, təəssüf ki, bu qaydalara əməl etmək istəmirlər.

Qərb jurnalistləri çalışdıqları mətbu nəşrlərdə Türkiyədə prezidentliyə namizədliyi qeydə alınan siyasətçilər barədə fikir və mülahizələrini səsləndirərkən bir qayda olaraq qərəzli mövqe sərgiləyir, bir çox hallarda isə hətta, kobud səhvlərə yol verirlər.

Son günlər ABŞ, Fransa, Belçika, Danimarka, Almaniya və s. ölkələrin mətbuatında dərc olunan yazılarda, televerilişlərdə Türkiyədə seçkilər mövzusu işıqlandırılarkən balans aşkar şəkildə pozulur. Məsələn, iki gün əvvəl nüfuzlu "The Associated Press" informasiya agentliyi qardaş ölkədə namizədlərin seçkiqabağı kampaniyaları barədə oxucularına geniş məqalə təqdim edib.

Yazıda budəfəki seçkilərin iki əsas favoriti –CHP lideri, "Millət İttifaqı"nın vahid namizədi Kamal Kılıçdaroğlu ilə hazırkı dövlət başçısı, AKP-nin qurucusu və lideri, "Cümhur İttifaqı"nın namizədi Rəcəb Tayyib Ərdoğanın seçki proqramları, siyasi baxışlarındakı fərqlər, cəmiyyətdəki mövqeləri, səsvermənin mümkün nəticələri və s. məsələlər təhlil olunub.

Qeyd olunub ki, ana müxalifətin təmsilçisi Kamal Kılıçdaroğlu Qərbyönlü siyasət həyata keçirir və ölkəsinin ABŞ, eləcə də Avropa İttifaqı ilə "sərin" münasibətlərini yaxşılaşdırmağa çalışır. Müəllif, eyni zamanda, təəssüf ki, etik qaydaları pozaraq Türkiyə iqtidarının son iyirmi ildəki uğurlarına kölgə salmağa cəhd edir, xüsusilə hazırkı iqtidarı əsassız olaraq avtoritarlıqda günahlandırır. Belə çıxır ki, Türkiyənin dövlət başçısının ölkəsinin regionda və qlobal səviyyədə nüfuz dairəsini genişləndirməyə çalışması bir siyasətçi kimi guya onun iddialı olmasından xəbər verir.

Belə qeyri-obyektiv, mübahisəli fikirlər Qərb mətbuatında yer alan digər yazılar üçün də səciyyəvidir. Bu hallar, əlbəttə, qlobal mediaya heç də hörmət gətirmir, ona etimadı azaldır.

Şübhəsiz, türk insanı müdrik, ədalətli, siyasi cəhətdən kifayət qədər yüksək hazırlıqlı və yetkindir. Kimin lehinə, kimin əleyhinə səs verməsi istisnasız olaraq hər bir vətəndaşın özəl haqqıdır.

*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi

**Rüfət RÜSTƏMOV,**
**BDU-nun Türk filologiyası kafedrasının müdiri, filologiya elmləri doktoru, professor**



– Mən 1972-1973-cü illərdə Türkiyədə işləmişəm. O zaman Ankara kimi böyük bir şəhərdə daş kömürdən istifadə edirdilər. Səhərlər pəncərədən baxanda küçəni görmək belə olmurdu. Daş kömürün hisi hər tərəfi bürüyürdü. İndi çox şükür, ölkənin hər bir yaşayış məntəqəsi qazlaşdırılıb.

Son illər Ankara, İstanbul, İzmir kimi böyük şəhərlər, demək olar ki, bütün ölkə gül-çiçək içindədir. Bu ölkənin avtomobil yolları rahat və gözəldir. Türkiyədə bu gün də iri infrastruktur layihələri uğurla icra olunur. Bunları müşahidə edəndə adamın ürəyi dağa dönür.

Türkiyənin hərbi sənaye sahəsindəki uğurları xüsusilə möhtəşəmdir. Belə bir yazılmamış qanun var: yurdu qorumağa gərək hər zaman hazır olasan. "Bayraktar"ın şöhrəti dünyanın hər yerinə yayılıb. Bütün bunlar son illərin böyük uğurudur. Bunlar qardaş ölkənin məsul şəxslərinin yuxusuz gecələrinin məhsuludur. Bu görkəmli siyasətçilərin doğma xalqı və milləti qarşısındakı böyük xidmətlərini danmaq olmaz.

Dahi sərkərdə və dövlət adamı Napoleon deyib ki, türklər başqa millətlərdən bir çox cəhətdən fərqlənirlər, onlar Vətənə hədsiz dərəcədə bağlıdırlar, türkləri öldürmək olar, amma onlar heç vaxt mənən məğlub olmurlar. Əlahəzrət Zaman dəfələrlə sübut edib ki, qəhrəman türk xalqı, həqiqətən, dərin hörmət və ehtirama layiqdir.

Azərbaycanda hər kəs yaxşı bilir ki, 2020-ci ilin payızında 44 gün davam edən şanlı savaşda qardaş Türkiyə Cümhuriyyəti xalqımıza hər cür mənəvi, siyasi dəstək verib. Azərbaycan xalqı xoşbəxtdir ki, onun Türkiyə dövləti və xalqı kimi güclü arxası, etibarlı dostu var. Qədirbilən Azərbaycan xalqı bu yaxşılığı heç vaxt unutmayacaq.

Bir təsirli məqamı yada salmaq istəyirəm. Azərbaycan və Türkiyə dövlətlərinin prezidentləri görüşdükləri zaman bir-birlərinə "qardaşım" deyə müraciət edirlər. Bu, ecazkar ifadədə böyük səmimiyyət və qüdrət var.

Türkiyədə seçki mədəniyyəti barədə ürəyimin üzərinə qoyub tam səmimiyyətlə deyə bilərəm ki, dünyanın çox az ölkəsində qardaş ölkədəki qədər yüksək seçki mədəniyyəti var.

# Kremlə PUA hücumu olub

**Rusiya paytaxtında Kremlə PUA zərbələri endirilməsinə cəhd edilib. Birinci zərbədən 16 dəqiqə sonra ikinci zərbə olub. Birinci PUA gecə saat 02:27-də Kremldəki Senat Sarayının üzərində vurularaq partlayıb və bundan sonra binanın damında yanğın başlayıb. İkinci PUA-nın hücumu isə saat 02:43-də qeydə alınıb. Onun qalıqları Kreml ərazisinə düşüb. Məlumatı "İnterfaks.ru" verib.**



Rusiya Prezidentinin mətbuat xidmətinin məlumatına görə, Rusiya hərbçiləri və xüsusi xidmət orqanları hər iki PUA-nı sıradan çıxarıb, itki yoxdur: "Terror hücumu zamanı prezident xəsarət almayıb. Onun iş qrafiki dəyişməyib, adi rejimdə davam edir". Kremldən bildirilib ki, Rusiya lazım bildiyi yerdə və vaxtda cavab tədbirləri görmək hüququnu özündə saxlayır.

Qeyd edək ki, Rusiya hücumda Ukraynanı günahlandırır. Ukrayna prezidentinin mətbuat katibi Sergey Nikiforov isə bildirib ki, Kremlə gecə hücumları ilə bağlı onlarda heç bir məlumat yoxdur: "Prezident Zelenskinin dəfələrlə qeyd etdiyi kimi, Ukrayna bütün mövcud qüvvə və vasitələrini öz ərazilərini azad etməyə yönəldir, başqalarına hücuma yox".

İnsidentə ABŞ-dan da münasibət bildirilib. Senatın Kəşfiyyat Komitəsinin sədri Mark Uorner deyib ki, ötən gün Kremlə PUA hücumunun arxasında Ukraynanın ola biləcəyinə dair hazırda heç bir əlamət yoxdur. "Bizim hələ də az məlumatımız var. Ən azı hazırda onun mənbəyinin ukraynalı olması barədə heç bir işarə yoxdur", - deyə Uorner qeyd edib.

ABŞ Dövlət Departamentinin sözçüsü Vedant Patel isə bəyan edib ki, Kremlə dron hücumu ABŞ-ın Ukraynaya hərbi yardım göstərməsinə heç bir formada təsir göstərməyəcək: "ABŞ ukraynalı tərəfdaşlarını tələb olunduğu qədər dəstəkləyəcək", - deyə Patel bildirib.

Ukraynanın isə dünən bir neçə istiqamətdə əks-hücuma başladığı barədə məlumatlar yayılıb. Bu barədə "Vaqner" hərbi şirkətinin rəhbəri Yevgeni Priqojin bəyan edib. Onun sözlərinə görə, Rusiya Baxmutda hücumu dayandırıb, ancaq Ukrayna ordusu şəhər istiqamətində böyük əks-hücuma başlayıb. Ukrayna hərbçilərinin Zaporojye vilayətinin Orexovski şəhəri istiqamətində də hücuma keçdiyi bildirilib. Bu və digər istiqamətlərdə gün ərzində qızğın döyüşlər gedib.

*"Xalq qəzeti"*

# SESRIC DOST-la dost olmaq istəyir



**DOST Agentliyində ölkəmizdə səfərdə olan İslam Əmək Təşkilatının (İƏT) İslam Ölkələrinin Statistik, İqtisadi və Sosial Araşdırmalar və Təlim Mərkəzinin (SESRIC) baş direktoru xanım Zehra Zümrüd Selçukun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş olub. Qonaqlar əvvəlcə 1 saylı Bakı DOST mərkəzində vətəndaşlara göstərilən xidmətlərlə tanış olublar.**

Görüşdə Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ölkəmizdə əmək və sosial müdafiə sahəsində aparılan islahatlar və əldə olunmuş nailiyyətlər, DOST konsepsiyası, sosial sahədə innovativ həllərin geniş tətbiqi işləri barədə məlumat verib.

İƏT-ə üzv ölkələr üzrə statistika, iqtisadi və sosial sahələrdə araşdırmaların aparılması, təcrübələrin və texniki məlumatların mübadiləsində SESRIC-in fəaliyyətinin əhəmiyyəti vurğulanıb. Nazirliyin SESRIC ilə əməkdaşlığa xüsusi önəm verdiyi, həmçinin qurumun müxtəlif mövzularda keçirdiyi konfrans, seminar və təlimlərdə nazirlik əməkdaşlarının iştirak etdikləri bildirilib. Qeyd edilib ki, İƏT-in mərkəzi qərargahı Bakı şəhərində olacaq. Yaradılan Əmək Mərkəzinin təşkilata üzv ölkələr arasında əmək, məşğulluq, sosial müdafiə sahəsində əlaqələrin inkişafına töhfə verəcəyi diqqətə çatdırılıb.

SESRIC-in baş direktoru Zehra Zümrüd Selçuk ölkəmizdə sosial sahələrdə aparılan islahatlarla, habelə DOST modeli ilə bağlı müsbət fikirlərini ifadə edib. O, rəhbəri olduğu qurumun fəaliyyət sahələri, icra etdiyi proqramlar barədə məlumat verib, SESRIC-in İƏT-in Bakıda yaradılacaq Əmək Mərkəzi ilə fəal əməkdaşlıq edəcəyini bildirib.

Görüşdə əmək, məşğulluq, sosial müdafiə sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Nazirliyin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın fəaliyyətindən bəhs olunub. Milli observatoriya ilə SESRIC arasında gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Sonra nümayəndə heyəti üçün DOST konsepsiyası və əmək, məşğulluq, sosial müdafiə sahəsində yaradılmış elektron sistemlərə, rəqəmsal xidmətlərə dair təqdimatlar edilib.

Nümayəndə heyəti, eyni zamanda, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinə baş çəkib, burada həssas qrupların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün aparılan işlərlə tanış olub, benefisiarların əl işlərini yüksək dəyərləndirib.

**Z.BƏŞİRQIZI,**
**"Xalq qəzeti"**

# Qazi ziyarət edilib

**Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev, Mingəçevir Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Sahib Əliyev, baş məsləhətçi Seymur Hidayətov, həmçinin mətbuat işçiləri birinci Qarabağ müharibəsi veteranı, qazi, ikinci qrup əlil Ayaz Salahbanovu evində ziyarət ediblər.**



Səhhətində yaranmış problemlə əlaqədar Ayaz Salahbanov Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasına müraciət etdikdən sonra ürəyindən əməliyyat olunmasının vacibliyi bildirilib. O, İcbari Tibbi Sığortanın xətti ilə Gəncə şəhərində ürəyindən açıq əməliyyat olunduqdan sonra evinə qayıdıb. Qazinin səhhəti, ehtiyacları, problem və qayğıları ilə maraqlanan Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov bildirib ki, dövlətimizin başçısı İlham Əliyevin tapşırığına əsasən Qarabağ müharibəsi şəhidlərinə, qazilərə, veteranlara daim diqqət və qayğı göstərilir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə aparılan uğurlu döyüş əməliyyatları məhz birinci Qarabağ müharibəsində şücaət göstərən Vətən övladlarının başladıqları mübarizənin davamı oldu. Bu fədakarlıq dövlətimizi qalib etdi. Döyüşlərdə şücaət göstərən, ölümdən qorxmayan, torpaqlarımızın qorunmasında, azad olunmasında xidmətləri olan hər bir vətən övladı xalqımızın sevgisini qazanıb.

Qazi Ayaz Salahbanova cansağlığı arzulayan şəhər rəhbəri ona bundan sonra da yardım və qayğı göstəriləcəyini diqqətə çatdırıb.

Söhbət əsnasında Qazi Ayaz Salahbanov dövlətimizin başçısı tərəfindən göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirərək deyib ki, yaşadığı bu mənzil ona məhz Prezidentimiz tərəfindən verilib. "Hər zaman diqqət və qayğı ilə əhatə olunuruq. Səhhətimdə yaranan problemlə əlaqədar həkimlərimizin şəfalı əlləri sayəsində aparılan uğurlu əməliyyat, tibb işçilərinin xüsusi qayğısı, o cümlədən göstərilən digər diqqət üçün çox razıyam. Xalqımıza, dövlətimizə əmin-amanlıq, inkişaf və tərəqqi arzulayıram. Allah yurdumuzu qorusun, xalqımızın birliyini daimi etsin ki, biz də Prezidentimizin ətrafında sıx birləşərək xoşbəxt ömür sürək".

**İlqar HƏSƏNOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

**İstedadlı, yaradıcı gənclərimiz öz uğurları ilə bizi sevindirməkdə davam edirlər. Bu günlərdə M.Maqomayev adına 26 nömrəli onbirillik musiqi məktəbinin qanun sinfinin şagirdi Mehinbanu Bayramlı Türkiyədə onlayn keçirilən Beynəlxalq Virtual Rəqs, Musiqi və İncəsənət yarışmasında Azərbaycanı uğurla təmsil edib.**

## Milli musiqimizi xaricdə tanıdanlar

Boğaziçi Folklor Birliyi Gənclik və İdman Klubunun təşkilatçılığı ilə keçirilən yarışda münsiflər heyətinin yekun qərarı ilə M.Bayramlı 1-ci dərəcəli diploma layiq görülüb.

Gənc qanun ifaçısının müəllimi İradə Kamilova Mehinbanu Bayramlının son illər ərzində respublukadaxili, eləcə də, xarici ölkələrdə keçirilən müsabiqələr,



yarışlarda uğurlar əldə etdiyini dedi: "Mehinbanu istedadlı qızdır. Bundan əvvəl İtaliyada kecirilmis "Liberta Creativa" müsabiqəsində Qran-Pri mukafatına layiq görülüb. Ötən il Türkiyənin Antalya şəhərinin „Akdeniz Sounds" universitetində keçirilmiş canlı musabiqədə birinci yeri tutub. Mehinbanu ilə yanaşı, digər şagirdlərim də müxtəlif mötəbər yarışlar, müsabiqələrdə uğurla çıxış edirlər. Türkiyə, Qazaxıstan, Balarus, İngiltərədə yaradıcılıq festivallarında, müsabiqələrdə Xədicə Qənbərli, Ləman Hacıyeva, Əli Kərimli, Dəniz Fərəcli birinci yeri tutublar".

Müsahibim Mehinbanu Bayramlının və digər yetirmələrinin yeni müsabiqələrə hazırlaşdığını da qeyd etdi: "Məktəbimizin yetirmələri yaradıcı və istedadlı gənclərdir. Onların potensialını artırmaq üçün maksimum səylər göstəririk. Əsas hədəfimiz isə gələcəkdə daha nüfuzlu tədbirlərdə, müsabiqələr və yarışmalarda ölkəmizi layiqincə təmsil etməkdir".

**Leyla QURBANOVA,**
**"Xalq qəzeti"**

# Naxçıvan xəbərləri

## ABİS texnologiya şirkəti ilə əməkdaşlıq

***Azərbaycan ali təhsil məkanında ilk dəfə Naxçıvan Dövlət Universiteti ilə ABİS Texnologiya şirkəti arasında beynəlxalq əməkdaşlıq müqaviləsi imzalanıb.***



Universitetin rektoru, dosent Elbrus İsayev ikitərəfli görüşdə ABİS Texnologiya şirkətinin rəhbəri, Türkiyənin Orta Doğu Texniki Universitetinin professoru Adəm Kalınlını salamlayıb, bugünkü görüşün universitetin professor-müəllim heyəti üçün əhəmiyyətli olduğunu vurğulayıb. Professor Adəm Kalınlı isə qeyd edib ki, Türkiyə və Azərbaycan arasında elm sahəsində birgə əməkdaşlıq Naxçıvan Dövlət Universitetindən başlamaqla, bütün Azərbaycan ali təhsil müəssisələrini də əhatə edəcək.

Görüşdə vurğulanıb ki, bu gün əsası qoyulan birlik bütün Türk dünyası elm adamlarının müştərək fəaliyyətinə şərait yaradacaq. Sonra ABİS texnologiya şirkəti ilə Naxçıvan Dövlət Universiteti arasında beynəlxalq əməkdaşlığa dair protokol imzalanıb.

Ali təhsil müəssisələri üçün tədqiqatları və sistemləri ilə tanınan, Türkiyənin bir çox aparıcı universitetlərinə xidmət göstərən şirkət ilə ali təhsil müəssisəsi arasında əməkdaşlıq prinsiplərini əhatə edən protokolda elmi nəşrlərin daim diqqətdə saxlanması, nüfuzlu elmi bazalarda məqalə nəşr edən alimlərin elmi platformaya birgə çıxışının təmin edilməsi, professor-müəllim heyətinin dünya elminə inteqrasiya olunacaq məqalələrinin vahid platformada birləşdirilməsi məsələləri qeyd olunub.

## Tələbələrin "Robotex" qələbəsi

***Naxçıvan Dövlət Universitetinin "NSUTECH" komandası "Robotex Türkiyə - 2023" Festivalının qalibi olub.***

NDU-dan aldığımız xəbərdə bildirilir ki, dünyanın ən böyük robototexnika festivalı olan "Robotex" turnirləri bu il Türkiyənin Antalya şəhərində keçirilib. Türkiyə, Estoniya, İran və digər ölkələrin komandalarının iştirak etdikləri turnirlərdə Azərbaycanı təmsil edən Naxçıvan Dövlət Universitetinin 5 nəfərlik heyəti birinci yerə çıxıb.



Estoniyada keçiriləcək Dünya Robot Festivalında da ölkəmizi Naxçıvan Dövlət Universitetinin komandası təmsil edəcək.

## "Batumoba" şənliyində

***Acarıstan Muxtar Respublikasının paytaxtı Batumi şəhərinin 135-ci ildönümünə həsr olunmuş "Batumoba" bayramı keçirilib. Şənlikdə ölkəmizi Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Azərbaycanın Batumi şəhərindəki Baş konsulu Pərviz İsmayılzadə və digər rəsmi şəxslər təmsil ediblər.***

Təntənəli mərasimdə Acarıstan Muxtar Respublikasının hökumət başçısı Tornike Rijvadze və Batumi meri Arçil Çikovani Batumi ilə qardaşlaşmış şəhərlərin stendləri ilə tanış olublar. Bildirilib ki, Batumi şəhəri dünyanın 8 ölkəsindən 42 şəhərlə, o cümlədən Azərbaycanın Naxçıvan şəhəri ilə qardaşlaşma haqqında memorandum imzalayıb. Tədbirdə bu şəhərlərdən 54 nəfər nümayəndə iştirak edib.



Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı muxtar respublikanın hökumət başçısını və şəhər rəhbərliyini bayram münasibətilə təbrik edib. O bildirib ki, 2012-ci ildə Naxçıvan və Batumi şəhərləri arasında qardaşlıq və əməkdaşlığa dair memorandum imzalanıb. Bu gün Naxçıvanla Batumi şəhəri arasında mövcud olan sıx dostluq və qardaşlıq əlaqələri daha da möhkəmlənir və inkişaf edir.

Mirsənani Seyidov Azərbaycanın qədim Naxçıvan şəhərinin milli ornamentlərini özündə əks etdirən xalçanı xatirə olaraq Batumi şəhərinin meri Arçil Çikovaniyə təqdim edib.

## Oğuzxanın ABŞ-da qızıl medalı



***ABŞ-in Kaliforniya ştatında (Azusa şəhəri) cüdo üzrə 31-ci "Golden State Open" turniri keçirilib. Yarışda kiçiklər, yeni başlayanlar, böyüklər və veteranlar iştirak ediblər. Amerikada yaşayan naxçıvanlı cüdoçu yarışda uğur qazanıb.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, həmyerlimiz Oğuzxan Quliyev turnirdə 42 kiloqramdan aşağı çəki dərəcəsində Azərbaycanı təmsil edib. İdmançımız ilk iki görüşündə erməni rəqibləri Tiqran Sukiasyan və Davit Deqoyanı məğlub edərək finala adlayıb.

Həlledici mərhələdə rəqib erməni klubunu təmsil edən monqol idmançısı Tengis Batbaatar olub. Reqlamentə əsasən, qalib iki görüşün nəticəsinə görə bəlli olub. Təmsilçimiz hər iki cəhddə rəqibini "ippon"la məğlub edərək qızıl medala layiq görülüb.

**Səbuhi HƏSƏNOV,**
**"Xalq qəzeti"**

# Türkiyəli rektor xalqımıza təşəkkür edib

**"Zəlzələdən sonra biz indiyədək görmədiyimiz ağır günləri yaşadıq. On minlərlə insan evsiz-eşiksiz qaldı, günlərlə acılıq keçirdi. Amma bu fəlakətdə ən çətini əzizlərimizi itirməyimiz idi". Bu sözləri Türkiyənin Malatya şəhərində yerləşən İnönü Universitetinin rektoru, professor Sezai Yılmaz Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, professor Gəray Gəraybəyli ilə görüşündə deyib.**



ATU-nun mətbuat xidmətindən bildiriblər ki, "Təbabətin aktual problemləri – 2023" beynəlxalq elmi-praktik konqresin fəxri qonağı olan professor Sezai Yılmaz həmin ağır günlərdə Türkiyənin yanında olan, ilk köməyə gələn Azərbaycan xalqına və rəhbərliyinə təşəkkürünü çatdırıb. Qonaq, həmçinin universitetdə keçirilən beynəlxalq elmi-praktik konqresin əhəmiyyətini vurğulayaraq, tədbirin işinə uğurlar arzulayıb.

Professor Gəray Gəraybəyli qardaş Türkiyənin bu ağır günləri tezliklə geridə qoyacağına, türk xalqının gücünü yenidən toplayıb ayağa qalxacağına inandığını bildirib. O, ATU üçün əlamətdar olan günü paylaşdığına və tədbirdə iştirakına görə həmkarına təşəkkürünü bildirib.

Görüşdə ATU-nun elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, mətbuat xidmətinin rəhbəri Günel Aslanova iştirak ediblər.

Qeyd edək ki, professor Sezai Yılmaz Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və ATU-nun təşkilatçılığı ilə Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Təbabətin aktual problemləri – 2023" konqresi çərçivəsində Bakıda səfərdədir.

**"Xalq qəzeti"**


"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

öz gəmiləri üçün radionaviqasiya avadanlıqlarının satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 11 may 2023-cü il saat 17.00-dəkdir.

Ünvan– AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

Əlaqə telefonu– (012) 404-37-00, daxili: 1016.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

öz gəmiləri üçün kompressorların satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 11 may 2023-cü il saat 17.00-dəkdir.

Ünvan– AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

Əlaqə telefonu– (012) 404-37-00, daxili: 1016.

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

## *boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

**1. Biznes və menecment fakültəsi üzrə**
Dekan – 1 ştat.
**2. “Maliyyə və audit” kafedrası üzrə**
Kafedra müdiri – 1 ştat.
**3. “İqtisadiyyat” kafedrası üzrə**
Kafedra müdiri – 1 ştat.
**4. “Biznes və logistika” kafedrası üzrə**
Kafedra müdiri – 1 ştat.
**5. “İqtisadi və texnoloji elmlər” kafedrası üzrə**
Kafedra müdiri – 1 ştat.
**6. “Mühəndislik və tətbiqi elmlər” kafedrası üzrə**
Kafedra müdiri – 1 ştat.
**7. “Azərbaycan dili” kafedrası üzrə**
Kafedra müdiri – 1 ştat.
**8. “Humanitar fənlər” kafedrası üzrə**
Kafedra müdiri – 1 ştat.
**9. “Karyera planlaşdırılması və inkişafı” kafedrası üzrə**
Kafedra müdiri – 1 ştat.
**10. “Riyaziyyat və statistika” kafedrası üzrə**
Kafedra müdiri – 1 ştat.
**11. “Dizayn kafedrası” üzrə**
Kafedra müdiri – 1 ştat.

Qeyd edilən vəzifələri tutmaq üçün müsabiqədə yalnız mövcud əsasnamənin tələblərinə uyğun olan namizədlər iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:
1. Ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Ali təhsil (baza təhsili), elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
5. Elmi və elmi-metodiki işlərin siyahısı.
6. Kafedra müdiri və fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Sənədlərin qəbulu müddəti elan dərc edildikdən 1 ay keçənədəkdir.

Müsabiqədə iştirak etmək üçün sənədlər ərizə ilə birlikdə unec@unec.edu.az ünvana təqdim olunmalıdır.
**Telefon – 492-73-72.**
**Ünvan** – AZ1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, II mərtəbə, 224-cü otaq. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC).

# “Neftqazmaş” ASC-nin 2022-ci il yanvarın 1-dən dekabrın 31-nə maliyyə hesabatı

manatla

| AKTİVLƏR | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | |
| Torpaq, tikili və avadanlıqlar | 1.929.614 | 1.870.435 |
| Qeyri-maddi aktivlər | 1.094 | 1.216 |
| Sair uzunmüddətli maliyyə aktivləri | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | ***1.930.708*** | ***1.871.651*** |
| ***Qısamüddətli aktivlər*** | | |
| Ehtiyatlar | 905.831 | 1.397.436 |
| Qısamüddətli debitor borcları | 50.331 | 2.301 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 218.316 | 276.862 |
| Gələcək dövrün xərcləri | 35.321 | 36.622 |
| Sair qısamüddətli aktivlər | 10.505 | 55.454 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | ***1.220.303*** | ***1.768.675*** |
| **CƏMİ AKTİVLƏR** | **3.151.011** | **3.640.326** |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 767.890 | 767.890 |
| Kapital ehtiyatları | 473.848 | 473.848 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 833.393 | 818.783 |
| **CƏMİ KAPİTAL** | **2.075.131** | **2.060.521** |
| **ÖHDƏLİKLƏR** | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | |
| Bank kreditləri | 20.000 | 152.490 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **20.000** | **152.490** |
| ***Qısamüddətli öhdəliklər*** | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 94.232 | 19.073 |
| Qısamüddətli kreditor borcları | 164.938 | 235.238 |
| Sair qısamüddətli öhdəliklər | 494.063 | 790.078 |
| Dvidendlər üzrə təsisçilərə borclar | 302.647 | 382.926 |
| **CƏMİ QISAMÜDDƏTLİ** ÖHDƏLİKLƏR | ***1.055.880*** | ***1.427.315*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1.075.880** | **1.579.805** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **3.151.011** | **3.640.326** |

# “BAKI POLAD BURAZLAR “ASC-nin 2022-ci il dekabrın 31-nə mühasibat balansı

manatla

| Bölmələrin,maddələrin adları | Əvvəlki dövr 2021-ci il üzrə | Hesabat dövrü 2022-ci il üzrə |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Uzunmüddətli aktivlər | | |
| Qeyri-maddi aktivlər | | |
| Torpaq, tikili və avadanlıqlar (əsas vəsaitlər) | 9651.10 | 8928.00 |
| Daşınmaz əmlaka investisiyalar | | |
| Bioloji aktivlər | | |
| Təbii sərvətlər | | |
| İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | |
| Təxirə salınmış vergi aktivləri | | |
| Uzunmüddətli debitor borcları | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | |
| Sair uzunmüddətli aktivlər (zərər) | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | 9651.10 | 8928.00 |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | 188660.53 | 156199.00 |
| Sair debitor borcları | 16138.24 | 46506.00 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12.97 | 130.00 |
| Gələcək dövrün xərcləri | 919298.03 | 1560005.00 |
| Digər aktivlər | 19948.98 | 19949.00 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | 1144056.75 | 1782789.00 |
| **CƏMİ AKTİVLƏR** | **1135709.85** | **1791717.00** |
| Kapital və öhdəliklər | | |
| Kapital | | |
| Ödənilmiş nominal(nizamnamə) kapital | 68066.00 | 68.066.00 |
| Emissiya gəliri | | |
| Geri alınmış kapital (səhmlər) | | |
| Kapital ehtiyatları | | |
| Bölüşdürülməmiş mənfəət (zərər) | 62283.95 | 62284.00 |
| CƏMİ KAPİTAL | 130349.95 | 130350.00 |

| | | |
|---|---|---|
| Uzunmüddətli öhdəliklər | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | |
| Uzunmüddətli kreditor borcları | | |
| Sair uzunmüddətli öhdəliklər | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | X | X |
| Qısamüddətli öhdəliklər | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər (bank krediti) | 619718.72 | 588519.00 |
| Sair kreditor borcları | 403641.18 | 228252.00 |
| Digər öhdəliklər | 0.00 | 844596.00 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | 1023359.90 | 1661367.00 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | 1023359.90 | 1661367.00 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **1135709.85** | **1791717.00** |

**Mənfəət və zərər haqqında hesabat (xərclərin funksiyaları üzrə)**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 543879.67 | 814117.00 |
| Satışın maya dəyəri | (280459.47) | (441489.00) |
| Ümumi mənfəət | 263420.20 | 372628.00 |
| Sair əməliyyat gəlirləri | 1830.48 | 4651.00 |
| Kommersiya xərcləri | | |
| İnzibati xərclər | (304970.01) | (411339.00) |
| Sair əməliyyat xərcləri | (31272.39) | (39060.00) |
| Fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər) | | |
| Əməliyyat mənfəəti (zərəri) | .(7099172) | (73120.00) |
| Maliyyə gəliri | | |
| Maliyyə xərcləri | | |
| Asılı və birgə muəssisələrin mənfəətlərində (zərərlərində) pay | | |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | (70991.72) | (73120.00) |
| Mənfəət vergisi | X | X |
| Hesabat dövrundə xalis mənfəət_(zərər) | (70991.72) | (73120.00) |
| Hər səhm üzrə mənfəət | | |
| Azaldılmış hər səhm üzrə mənfəət | | |

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**
**“BAKI POLAD BURAZLAR” ASC-nin rəhbərliyinə!**

Biz, **“BAKI POLAD BURAZLAR “** ASC-nin 2022-ci il yanvarın 1-dən dekabrın 31- nə təqdim edilən balans hesabatı və həmin tarixdə tamamlanan 2022-ci il üzrə mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

**Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti**

1.Hazırkı Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə rəhbərlik məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar daxildir: səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı, maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminin yaradılması, tətbiq edilməsi və davam etdirilməsi, müvafiq uçot siyasətinin seçilməsi, tətbiq edilməsi və şəraitdən asılı olaraq məqbul uçot təxminlərinin irəli sürülməsi.

**Auditorun məsuliyyəti**

2. Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən maliyyə hesabatlarına aid rəy bildirməkdən ibarətdir.Sənədlərin düzgünlüyünə sifarişçi məsuliyyət daşıyır. Biz audit yoxlamamızı Beynəlxalq Audit Standartları əsasında apardıq. Həmin standartların tələblərinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

3. Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara aid auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizələrindən, səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

4. Bizcə, əldə etdiyimiz auditor sübutları rəyimizi bildirmək üçün kifayət qədər əsas verir.

**Rəy**

5. Bizim fikrimizcə, təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından **“BAKI POLAD BURAZLAR”**ASC-nin 2022-ci il yanvarın 1-dən dekabrın 31-nə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından ibarət olan maliyyə nəticələrini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun balansda düzgün əks etdirir.

**“YENİ ZAMAN-AUDİT”MMC-nin auditoru, Hüseyn Cəbiyev**
**Bakı şəhəri, 24 aprel 2023-cü il**

# “BOKT İCRAÇI KREDİT AGENTLİYİ” MMC-nin 2022-ci il dekabrın 31-nə maliyyə hesabatı

| AKTİVLƏR | 2022-ci il dekabrın 31-nə | 2021-ci il dekabrın 31-nə |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 10,916 | 1,623 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 914,856 | 939,401 |
| Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər | 10,624 | 21,695 |
| Təxirə salınmış vergi aktivi | 70,945 | 41,785 |
| Hökumət fondları ilə hesablaşmalar | 303,507 | 841,474 |
| Digər aktivlər | 1,434 | 56,539 |
| **Cəmi aktivlər** | **1,312,282** | **1,902,517** |
| **ÖHDƏLİKLƏR** | | |
| Banklardan və digər maliyyə institutlarından alınmış müddətli öhdəliklər | 78,602 | 117,904 |
| Buraxılmış istiqrazlar | 10,296 | 10,265 |
| Mənfəət vergisi öhdəliyi | 9,806 | 17,842 |
| Digər öhdəliklər | 41,233 | 423,614 |
| **Cəmi öhdəliklər** | **139,937** | **569,625** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 272,076 | 272,076 |
| Xəzinə səhmləri | (5,360) | (5,360) |
| Kapital ehtiyatları | 102,589 | 102,589 |
| Bölüşdürülməmiş mənfəət | 803,040 | 963,587 |
| **Cəmi kapital** | **1,172,345** | **1,332,892** |
| **Cəmi öhdəliklər və kapital** | **1,312,282** | **1,902,517** |

# “Bakıtikişsənaye “ASC-nin 2022-ci il dekabrın 31-nə balans hesabatı

| | |
|---|---|
| İllik gəlir | 170478,84 |
| İllik xərclər –cəmi | 94382,02 |
| o,cümlədən | |
| Əmək haqqı | 9953,58 |
| sosial sığorta | 1878,81 |
| enerji | 34572,69 |
| qaz | 38106,15 |
| rabitə | 231,84 |
| bank xidməti | 299,12 |
| amortizasiya | 5794,94 |

| | |
|---|---|
| sığorta | 999,07 |
| M.D.Mərkəzi | 115,5 |
| Gəlirdən çıxılan vergilər( torpaq və əmlak ) | 2430,32 |
| Balans nəticəsi | 76096,82 |
| vergi güzəşti 75% | 57072 |
| ke çmiş illərin zərəri | 11000 |
| vergiyə cəlb edilən mənfəət | 8024,82 |
| vergi məbləği-20% | 1604,96 |
| xalis mənfəət | 63491,86 |

# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

## balansındakı “Professor Gül”, “Merkuri-1” və “Şəki” gəmilərinin “MAN 6K45GFCA” baş mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədilə

# MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il mayın 23-ü Bakı vaxtı ilə saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1071.
Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

# “Quba konserv-1” ASC səhmdarlarının nəzərinə!

Səhmdarların növbəti illik ümumi yığıncağı 22 iyun 2023-cü il saat 14.00-da Quba şəhəri ,Vaqif küçəsi 30 nömrəli ünvanda “Quba konserv-1” ASC-də keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

*1. Cəmiyyətin illik hesabatının, balansının, mənfəət və zərər hesabatlarının təsdiqi.*
*2. Cəmiyyətin yeni müşahidə şurasının tərkibinin seçilməsi.*
*3. Cəmiyyətin müfəttişinin təyin olunması.*
*4. Dividendlərin ödənilməsi qaydasının müəyyən edilməsi.*
*5. Digər cari məsələlər.*

Səhmdar ümumi yığıncaqda bilavasitə özü və ya nümayəndəsi vasitəsilə etibarnamə ilə iştirak edə bilər.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiqləyən sənədin əslini (nümayəndə olduqda isə etibarnaməsinin notarial təsdiq edilmiş surətini) təqdim etməlidir.

# “Bakıtikişsənaye” ASC səhmdarlarının nəzərinə!

22 iyun 2023-cü il saat 16.00-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri,Həsən Əliyev küçəsi 1008 –ci məhəllədə keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

*1. ASC-nin müşahidə şurasının üzvlərinin seçiləsi.*
*2. Baş direktorun seçilməsi.*
*3.Müfəttişin seçilməsi.*
*4. Cəmiyyətin 2022-ci ilin yekunu üzrə maliyyə hesabatı.*
*5. Dividendlərin verilməsi.*

Əlaqə telefonları - (012) 440-86-25, (012) 440-09-19.

# 22 yoluxma faktı qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 22 yoluxma faktı qeydə alınıb, 71 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 4 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 831 min 482 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 821 min 24 nəfər müalicə olunaraq sağalıb, 10 min 254 nəfər vəfat edib. Aktiv xəstə sayı 204 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1006, bu günə qədər isə ümumilikdə 7 milyon 594 min 650 test icra olunub.

# “Quba Məişət Xidməti” ASC səhmdarlarının nəzərinə!

“Quba Məişət Xidməti” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 17 iyun 2023-cü il saat 10.30-da cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. 2022-ci ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək tanış ola bilərlər.

Telefon- 050 – 311 –86 – 06.
Ünvan- Quba şəhəri, Mərkəzi bazar, məişət cərgəsi.

# “CƏNUB” ASC səhmdarlarının nəzərinə!

23 iyun 2023-cü il saat 11.00-da “CƏNUB” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Ağa Nemətulla küçəsi 48 nömrəli ünvanda “MONTİNİN” otelində keçiriləcəkdir.

Gündəlikdəki məsələ:
1. 2022-ci ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələ ilə bağlı sənədlərlə hər həftənin iş günləri, saat 13.00-dək +994503252717 nömrəli telefonla əlaqə saxlayaraq tanış ola bilərlər.

# “Saxsı Qablar” ASC səhmdarlarının nəzərinə!

24 iyun 2023-cü il saat 10.00-da cəmiyyətin yerləşdiyi inzibati binada “Saxsı Qablar” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. 2022-ci ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Mənfəət və zərərlərin bölüşdürülməsi.
3. Digər məsələlər.

Telefon -012-514-23-80.
Ünvan- Bakı şəhəri, H.Əliyev prospekti 102.

*İdman xəbərləri*




# Suqovuşanda avarçəkmə yarışı

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş avarçəkmə üzrə "Prezident kuboku-2023" beynəlxalq reqatası başlayıb. Suqovuşanda keçirilən yarışın birinci günündə ilk qaliblər bəlli olub.**

2005-2006-cı il təvəllüdlü oğlanların birnəfərlik qayıqda 200 metr məsafəyə yarışında Elmir Məmmədov, Sezar Amari (Moldova), Radislav Çifliqarov (Bolqarıstan) ilk üçlükdə qərarlaşıblar. 2007-2008-ci il təvəllüdlü qızların mübarizəsində Yıldız Özgün Naz (Türkiyə) birinci yeri tutub. Mişel Fessun (Ukrayna) ikinci, Mixaela Rusu (Rumıniya) üçüncü yerlərə layiq görülüblər. 2009-2010-cu il təvəllüdlü qızların yarışı isə Evelina Kostenkonun (Qazaxıstan) qalibiyyəti ilə başa çatıb. İzabela Aleksandra Jarnovska (Polşa) və Sofiya Nenno (Moldova) sonrakı pillələrdə qərarlaşıblar.

Yarışlar mayın 7-dək davam edəcək. Reqatada 20-dək ölkədən avarçəkmə akademik, kayak və kanoe növlərində 100-dən çox yerli və xarici idmançı mübarizə aparır.

Yarışın növbəti mərhələləri Mingəçevirdəki "Kür" Olimpiya Tədris-İdman Mərkəzində, mükafatlandırılma və bağlanış mərasimi Bakıda təşkil ediləcək.

# Qrup mərhələsi başa çatıb

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq minifutbol turnirində qrup mərhələsi başa çatıb.**




A qrupu çərçivəsində Azərbaycan yığması son oyununu Serbiya komandasına qarşı keçirib. Matçda qolsuz bərabərlik qeydə alınıb. Beləliklə, Azərbaycan millisi yer aldığı A qrupunu 8 xalla üçüncü pillədə başa vurub.

Xatırladaq ki, yığmamız ilk oyunda Çexiya ilə də qolsuz heç-heçə etmişdi. Daha sonra İtaliya və Gürcüstan seçmələrinə 2:0 hesabı ilə qalib gəlmişdi.

Komandamız bu gün pley-off oyununda digər qrupun ikincisi olan Fransa ilə üz-üzə gələcək. Bu cütün qalibi isə yarımfinalda Qazaxıstanla oynayacaq.



# Futzal turniri yekunlaşıb

**Bakı İdman Sarayında keçirilən və ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında futzal üzrə turnirin qalibi müəyyənləşib.**

Birinci yer uğrunda mübarizədə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının komandası Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin yığmasını məğlub edərək qalib adına sahib olub. Üçüncü yer uğrunda oyunda isə Bakı Dövlət Universiteti Gəncə Dövlət Universitetinin futzalçılarını məğlub edərək bürünc medala layiq görülüb.

Yarışda 19-u Bakı, 13-ü regiondan olmaqla, ümumilikdə 32 ali və orta ixtisas təhsili müəssisələrinin komandaları iştirak ediblər. Yarışlar yarımqrup oyunları, pley-off, yarımfinal və final mərhələləri üzrə keçirilib.

Çempionatın təşkilində məqsəd ulu öndər Heydər Əliyevin irsinin aşılanması, tələbələr arasında futzal idman növünün kütləviliyinin təmin edilməsi, beynəlxalq yarışlarda iştirak üçün respublikanın tələbələrdən ibarət yığma komandasına namizədlərin müəyyənləşdirilməsidir.

***L.QURBANOVA, "Xalq qəzeti"***

# Qara dəliklər – kosmik canavarlar

**NASA kainatdakı ürpədici böyüklükdə olan 10 qara dəliyin yeni animasiyasını yayımlayıb. Videogörüntüdə Günəşdən dəfələrlə böyük olan kosmik "canavarların" ağlasığmaz miqyası nümayiş etdirilib.**



Göründüyü kimi, belə qara dəliklərin nəhəng ölçüləri Günəşin kütləsindən 100.000 milyardlarla dəfə dəyişir.

Animasiyada qalaktikanın müxtəlif yerlərində yerləşən cəmi 10 irihəcmli qara dəlik qeyd olunub. Onların arasında Günəşin ölçüsündən 4 milyon dəfə böyük olan "Sagittarius A" da yer alıb. Bu nəhəng qara dəlik ilk dəfə keçən il aşkar edilib.

"Hubble" kosmik teleskopu vasitəsilə ərsəyə gələn görüntünün nümayişi bizə fövqəlkütləli qara dəliklərin füsunkar ölçüsünü və kainatın miqyasını daha yaxşı başa düşməyə imkan verir. "Gələcəkdə bu sirli obyektlər haqqında kəşf edəcəyimiz yeniliklər bizim üçün çox həyəcanvericidir", – deyə NASA əməkdaşları qeyd edib.

***Aytən NƏCƏFOVA, "Xalq qəzeti"***

*Sosial şəbəkələrdən seçmələr*

# Dil aç görüm nə deyirsən, göyərçin!



**Filologiya üzrə fəlsəfə doktoru Aynur Familqızı sosial şəbəkələrdə xalqımızın milli-mənəvi, əxlaqi dəyərləri ilə bağlı müzakirələrdə vətəndaş fəallığı ilə seçilən dəyərli ziyalılardandır.**

Aynur xanımın insan və təbiət, ətraf mühtin təmizliyi mövzularında, xüsusilə güllərə, quşlara, bütün canlılara qayğının vacibliyi ilə əlaqədar səmimi paylaşımları da diqqəti cəlb edir.

Bu günlərdə A.Familqızı özünün "Facebook" səhifəsində sülh və harmoniya rəmzi olan göyərçinlə əlaqədar kövrək düşüncələrini paylaşıb. Orada yazılır: "Bu gün (dünən) UNEC-in 4-cü tədris binasında online formada mühazirə deyərkən, bir göyərçin uçub auditoriyanın pəncərəsinə qondu. Xeyli vaxt içəri boylandı, sonra sakitcə dayandı. Mənim səsim, danışığım heç də ona təsir etmirdi, çox rahat, sərbəst idi.

Bu çağırılmamış qonaq məni çox sevindirdi, həm də audutoriyaya bir nəfəs gətirdi, ruhum təzələndi. Yadıma gözəl bir şeir düşdü:

*Bu dünyaya görən niyə gəlmişik,*
*Yerimiz ki, bura deyil, göyərçin!*
*Qulağına deyiləsi sözüm var,*
*Boyum çatmır bir az əyil, göyərçin!*

*Mən yerdə yalqızam, sən göydə yalqız*
*Suallarım niyə qaldi cavabsız…*
*Mənim ki, ümidim sənəydi yalnız,*
*Quruyubmu ağzında dil, göyərçin!*

***Hazırladı: M.HACIXANLI, "Xalq qəzeti"***

# Süni intellektin inkişafı təhlükəlidirmi?

**Süni intellektin (AI) "xaç atası" kimi tanınan Cefri Hinton "New York Times" qəzetinə verdiyi açıqlamada "Google"dan istefa verdiyini bildirib və gördüyü işdən peşman olduğunu söyləyib. O qeyd edib ki, AI çatbotları ilə bağlı bəzi təhlükələr "olduqca qorxuludur".**




Qeyd edək ki, C.Hintonun neyron şəbəkələri və dərin öyrənmə üzrə qabaqcıl tədqiqatı ChatGPT kimi hazırkı süni intellekt sistemləri üçün yol açıb. Süni intellektdə neyroşəbəkələr məlumatı öyrənmə və emal etmə üsulu ilə insan beyninə bənzəyən sistemlərdir. Onlar süni intellektlərə insan kimi təcrübədən öyrənməyə imkan verir. Buna dərin öyrənmə deyilir.

Britaniya-kanadalı psixoloq və kompüter alimi olan Hinton bildirib ki, çatbotlar insan beyninin saxladığı məlumat səviyyəsini tezliklə ötüb keçə bilər. O qeyd edib: "Hazırda gördüyümüz ondan ibarətdir ki, GPT-4 insanı ümumi bilikləri həcmində əvəz edir və daha çox bilik toplayır. Bu, mühakimə baxımından o qədər də yaxşı deyil, amma reallıqdır. Tərəqqi sürətini nəzərə alsaq, hər şeyin kifayət qədər sürətlə inkişafını gözləyirik. Buna görə də bu barədə narahat olmalıyıq."

Xatırladaq ki, bundan əvvəl milyarder İlon Mask, AI-nin digər "xaç atası" Yoşua Benhio da süni intellekt sahəsində sürətli inkişafın təhlükəli olması barədə xəbərdarlıq ediblər.

***"Xalq qəzeti"***

✓ **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yasamal Rayon İdarəsi tərəfindən Bəyalıyev Bulud İbrahim oğlunun adına verilmiş H3 4266609 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.**

✓ **Fövqəladə Hallar Nazirliyi tərəfindən Kazımova Aysel Aqif qızına verilmiş 1007797A nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

*Sağlamlıq guşəsi*

# Bolqar bibəri və ahıllar

**Bolqar bibərinin yaşlı insanlar tərəfindən istehlakı ürək-damar xəstəliklərinin profilaktikası üçün faydalıdır. Xarici ölkə mütəxəssisləri bolqar bibərini yaşlı insanların rasionunda ən yaxşı tərəvəzlərdən biri adlandırıblar. Onların fikrincə, bibərin tərkibində antioksidant effektinə malik karotinoidlər, eləcə də sağlamlığı (ürək-damar sisteminin sağlamlığını) möhkəmləndirən digər maddələr var.**

Bolqar bibəri orqanizmin ürək-damar xəstəlikləri zamanı müdafiəni yaxşılaşdıran mikroelementlər olan kalium və maqnezium mənbəyidir. Bu qida məhsulunun qəbulu yaşla bağlı xəstəliklər – məsələn, hipertoniya ilə mübarizədə səmərəli kömək edir. Bolqar bibəri yaşla bağlı meydana gələn xəstəliklərin profilaktikasında da faydalıdır. Bunlar ateroskleroz, podaqra, hipertoniya xəstəliyidir.



Mütəxəssislər, həmçinin qeyd ediblər ki, tərəvəzin tərkib hissələri sayəsində onun istehlakı hiperqlikemiya və şəkərli diabet əleyhinə müdafiəni yaxşılaşdırır. Bibərdə olan liflər şəkərin qana sorulmasının qarşısını alır, karotinoidlər isə yüksək qlükoza konsentrasiyasının zərərli təsirini neytrallaşdırır.

***Z. HÜSEYNOVA, "Xalq qəzeti"***

# HAVA PROQNOZU

✓ *Mayın 5-də*

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim cənub küləyi əsəcək, gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 10-14°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 762 mm civə sütununa enəcək, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 4-9° , gündüz 19-24° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləy əsəcək. Gecə 0-5°, gündüz 7-12° bəzi yerlərdə 16° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağıntılı olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 0-5° isti, dağlıq ərazilərdə 2°-dək şaxta, gündüz 6-11°, bəzi yerlərdə 15-17° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 5-10°, gündüz 19-24° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə, gündüz isə şərq rayonlarında arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 3-8°, gündüz 17-22° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi şərq rayonlarında qısamüddətli az yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 8-12°, gündüz 20-25° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 9-13°, gündüz 18-23°, dağlarda gecə 4-8°, gündüz 12-17° isti olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov və universitetin kollektivi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlıya atası

**BABA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və həmkarlar ittifaqı təşkilatı universitetin informasiya texnologiyaları şöbəsinin müdiri Hüseyn Bağırlıya atası

**RAFAİL BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aydın Həsənov Xaləddin, Vilayət və Nizaməddin Musayevlərə qardaşları

**SURXAY MUSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5048
SİFARİŞ 1076
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00